AZƏRBAYCAN RESPUBLİKASI



# TARİXİ MƏNBƏLƏRDƏ NUH PEYĞƏMBƏR

63.4(5Az)
T 26

AZƏRBAYCAN RESPUBLİKASI
NAXÇIVAN MUXTAR RESPUBLİKASI

118112

# TARİXİ MƏNBƏLƏRDƏ NUH PEYĞƏMBƏR

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

Naxçıvan – 2015

63.3Az

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin
12 yanvar 2015-ci il tarixli, 1\12 №-li (protokol №1)
qərarı ilə nəşr olunur.

**Elmi redaktor:** **İsmayıl Hacıyev**
*Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, professor*

**Tərtib edən:** **Fəxrəddin Səfərli**
*AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor*

Kitabda Nuh peyğəmbərin Naxçıvanla bağlılığı ilə əlaqədar şifahi xalq ədəbiyyatı nümunələri, Qurani–Kərimdə Nuh peyğəmbər haqqında verilən məlumatlar, orta əsr müəlliflərinin , həmçinin XIX əsrdə və XX yüzilliyin əvvəllərində Naxçıvanda olmuş Rusiya məmurlarının və tədqiqatçılarının qeydləri toplanmışdır. Həmçinin, bir sıra tədqiqatçıların Nuh peyğəmbər və Naxçıvan bağlılığı ilə əlaqədar məqalələri də əsərə əlavə olunmuşdur.

Kitabdan Azərbaycanın mühüm elm, təhsil və mədəniyyət mərkəzlərindən olan Naxçıvanın qədim və orta əsrlər dövr tarixi ilə maraqlananlar, geniş oxucu kütləsi faydalana bilər.

***Fəxrəddin Səfərli, Tarixi mənbələrdə Nuh peyğəmbər.*** Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2015, 160 səh.

4700000000
053-2015

© "Əcəmi" 2015.

*Azərbaycan xalqı və Azərbaycan islam dünyasının ayrılmaz parçasıdır. Bu bizim tariximizdir, bu günümüzdür, ənənəmizdir, milli identifikasiyamızdır. Bizim milli dəyərlərimiz islam dəyərləri əsasında formalaşıbdır. Biz milli dəyərlərimizə çox sadiqik və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Dəfələrlə demişəm və şadam ki, gənc nəsil də milli ruhda böyüyür, milli ruhda tərbiyə alır. Biz Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərini, ənənələrini qorumalıyıq, saxlamalıyıq, təbliğ etməliyik. Hər bir Azərbaycan gənci, hər bir Azərbaycan uşağı bu əhval-ruhiyyədə böyüməlidir.*

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

# NUH PEYĞƏMBƏRİN NAXÇIVAN ŞƏHƏRİNDƏKİ MƏZARÜSTÜ TÜRBƏSİNİN BƏRPA EDİLMƏSİ HAQQINDA

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## SƏRƏNCAMI

Qədim, antik və orta əsr şəhər yerləri üzərində yerləşən Naxçıvan Azərbaycanın və dünyanın ən qədim şəhərlərindən biridir. Daş dövründən bu ərazidə ibtidai insanlar yaşamışlar. Naxçıvanda daş dövrü mədəniyyətinin izləri Qazma, Kilid, Daşqala mağaralarında, Batabat yaylağında və Kültəpədə qalmaqdadır. Azərbaycanda Eneolit (eradan əvvəl V minillik), Kür-Araz (eradan əvvəl IV-III minilliklər) və boyalı qablar (eradan əvvəl XIII-VII əsrlər) mədəniyyətinin əsas ocaqları Naxçıvandadır. Bu, bir daha sübut edir ki, Naxçıvan ərazisində minilliklər boyu insanlar ardıcıl və intensiv həyat sürmüşlər.

Eradan əvvəl V-II minilliklərdə Naxçıvan ərazisindəki tayfaların iqtisadi, ictimai və mədəni həyatında böyük təkamül baş vermiş, iri tayfa ittifaqları meydana çıxmış və ilkin şəhərlər yaranmışdır. Belə şəhərlərdən biri də Naxçıvandır.

Naxçıvanın meydana gəlməsi haqqında bir sıra yazılı mənbələr mövcuddur. Qədim yunan, latın, ərəb, İran tarixçilərinin, coğrafiyaşünas və səyyahların verdikləri məlumata görə, Naxçıvan eradan əvvəl II minilliyin birinci yarısında meydana gəlmişdir. Naxçıvan haqqında ilkin məlumat tarixçi İosif Flaviyə (eradan əvvəl I əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın II əsri) məxsusdur. Ptolemey Naxçıvan şəhərinin adını dünyanın 7 böyük şəhəri ilə bir sırada çəkmişdir. İlk orta əsr alban tarixçisi Moisey Xorenski (V əsr) Naxçıvan şəhərinin eradan əvvəl VI əsrdə mövcud olduğunu göstərmişdir. Bəzi qaynaqlarda isə Naxçıvan şəhərinin eradan əvvəl XV əsrdə yaranması fikri söylənmişdir. Orta əsr tarixçisi Stefan Orbelyani Naxçıvan şəhərinin əsasının eradan əvvəl 1539-cu ildə qoyulduğu haqda məlumat vermişdir. Həmin məlumat "Qafqaz" qəzetinin Naxçıvana həsr olunmuş 1882-ci il nömrəsində də öz təsdiqini tapmışdır. Yazılı mənbələri

sistemləşdirərək və Naxçıvan ərazisindən əldə olunan arxeoloji materiallara, məşhur Gəmiqaya qayaüstü yazılarına, buradakı digər abidələrə istinad edərək bu fikrə gəlmək mümkündür ki, Naxçıvan şəhərinin 3500-4000 ildən artıq yaşı vardır.

Şəhər adı kimi "Naxçıvan" ən qədim dövrlərdən mövcuddur. Qədim yunan mənbələrində "Naksuana", ərəb-fars mənbələrində "Nəxçuvan", "Nəxçəvan", "Nəqşicahan" kimi göstərilən bu adın müxtəlif dövrlərdə müxtəlif yozumu olmuş, toponimin yaranmasının əsası kimi "Naxç" türk tayfa, elamların "Nahhunte" Allah adlarına istinad olunmuş, bir sıra tədqiqatçılar isə Naxçıvan toponimini Nuh peyğəmbərin adı ilə bağlamışlar.

Tarixdə "Ümumdünya tufanı" barədə rəvayətin ilk yazılı variantı eramızdan əvvəl II minilliyin ortalarına aid edilən şumer əfsanəsidir. Həmin əfsanədə deyilir ki, Ümumdünya daşqınından böyük bir gəmidə yalnız bir qrup insan xilas ola bilmişdir. Bu əfsanəyə görə Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzi olmuşdur. Şumer rəvayətinin Naxçıvan şəhəri ilə bağlılığının tarixi əsası vardır. Belə ki, Naxçıvan Mesopotamiya, Babil, Xett və digər bu kimi qədim mədəniyyət mərkəzləri ilə sıx əlaqələr şəraitində inkişaf etmişdir. Eramızdan əvvəl II minilliyin ortalarına aid Bilqamıs haqqında akkad eposunda da "bütün canlıların toxumunun götürülüb" Allahın məsləhəti ilə düzəldilən gəmidə xilas olunduğundan danışılır.

İstər şumer, istərsə də Bilqamıs haqqında akkad rəvayətlərinin yarandığı və yazıya alındığı dövrlə Naxçıvanın yarandığı dövr arasında tarixi yaxınlıq olduğunu əsas götürüb, Ümumdünya daşqınının Naxçıvan ərazisini də əhatə etdiyini və Nuh peyğəmbərin məhz bu ərazidə quruya salamat çıxdığını güman etmək mümkündür.

Qədim dövrlərdən Naxçıvan əhalisi arasında yayılan rəvayətə görə, təxminən 7500 il bundan əvvəl baş vermiş Ümumdünya daşqını zamanı Nuh və ona iman gətirənlərin mindiyi gəmi ilk dəfə Naxçıvanda quruya çıxmış və insanlar burada məskən salmışlar. Beləliklə, yeni nəsil buradan törəyərək artmış, təşəkkül tapmışdır. Bir çox əfsanə və rəvayətlərin yaranmasının elmi əsası olduğu artıq təsdiq edilmişdir. Bunu Naxçıvan ərazisində Ümumdünya daşqını barədə rəvayətlərin yayılması və Nuhla bağlı yer adlarının çoxluq təşkil etməsi bir daha

sübut edir. Yer üzündə elə bir ərazi yoxdur ki, orada Naxçıvandakı qədər Nuhla bağlı toponimik vahid (Nuhdaban, Naxçıvan, Nəhəcir, Nehrəm və s.) olsun. Xalq arasında yayılmış və bu gün də mövcud olan inama görə Naxçıvan şəhərinin cənubunda Nuhun, şimal-qərbində isə bacısının qəbri vardır.

XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində işləmiş maarifçi K.A.Nikitin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı əsərində Nuh tufanının Naxçıvanla əlaqədar olması barədə geniş məlumat verərək yazmışdır: "Rəvayətə görə, əfsanəvi tufandan sonra Ağrı dağı Nuh peyğəmbəri gəmisi ilə birlikdə qəbul etmişdir... Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarının və türbəsinin yerini göstərirlər... Hətta Nuh peyğəmbərin Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. O burada ilk çalışanlardan biri olmuşdur. Rəvayətə görə Kəmki əfsanəvi gəminin dayandığı birinci dağdır. Nuh buradan Ağrı dağına yola düşmüşdür. Yolda gəmi İlanlı dağına toxunmuş və dağın zirvəsinə elə zərbə endirmişdir ki, dağ haçalanmışdır.

Bundan sonra Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir. Nuh peyğəmbər və onun ailəsi uzun müddət Naxçıvanda yaşamışdır. Rəvayətə görə, insan nəsli buradan yayılmışdır. Nuh peyğəmbər özü, bacısı və ailənin digər üzvləri Naxçıvanda vəfat etmiş və burada dəfn olunmuşlar".

K.A.Nikitin Nuhun Naxçıvandakı qəbrini də görmüş və onu belə təsvir etmişdir: "Nuhun qəbri şəhərin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi VIII yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o, yerdən qalxan çox da böyük olmayan türbəni xatırladır... Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, çətinliklə keçmək mümkün olan, ortadan daş diräklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir. Həmin dirəyin altında Nuh peyğəmbərin cənazəsi yerləşir".

Rus tədqiqatçısı V.M.Sısoyev Nuhun türbəsini təsvir edərkən onun mərkəzində diametri 2 metrə çatan səkkizguşəli sütun olduğunu gös-

tərmişdir. Təsvir edilən bu əlamətlər yeraltı və yerüstü hissədən ibarət olan türk türbələri üçün xarakterikdir. Nuhun qəbri olan yerdə aparılan tədqiqatlar zamanı aşkara çıxarılan tikinti qalıqları burada Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edir.

Araşdırmalar göstərir ki, "Ümumdünya tufanı" və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim yunan alimi Klavdi Ptolemey ilk dəfə Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XVI əsrin görkəmli ərəb alimi və coğrafiyaşünas Əl-Şərifi nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. İ.M.Dyakonov Gəmiqaya qayaüstü təsvirlərini və Naxçıvanın Nuhla bağlılığı məsələsini şumerlərdən gələn əfsanə ilə əlaqələndirmişdir. Yəhudi alimi İosif Flavi isə Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı K.N.Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş və onun yerini də göstərmişdir. Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində və Naxçıvan Muxtar Respublikasının Dövlət Tarix muzeyində mühafizə olunaraq nümayiş etdirilir.

Göründüyü kimi, Nuh peyğəmbər Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun qəbri və qəbirüstü türbəsi Naxçıvanda Sovet hakimiyyəti qurulanadək bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Sovet hakimiyyəti illərində Naxçıvanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğunu sübut edən yüzlərlə tarixi abidə kimi, Nuh peyğəmbərin qəbri üzərindəki türbənin qalıqları da dağıdılmışdır.

Yuxarıda qeyd olunanları əsas götürərək **qərara alıram**:

1. Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi bərpa olunsun.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat idarəsi Nuh peyğəmbərin türbəsinin layihəsini hazır-

layıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsinlər.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 iyun 2006-cı il*

## "NUH PEYĞƏMBƏR: DÜNYA TUFANI VƏ NAXÇIVAN" MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN KEÇİRİLMƏSİ HAQQINDA

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## SƏRƏNCAMI

Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridir. Şərur rayonundakı Qazma, Ordubad rayonundakı Kilid, Babək rayonundakı Daşqala və Naxçıvan şəhəri ərazisindəki Duzdağ mağaralarından əldə olunmuş maddi-mədəniyyət nümunələri, Əshabi-Kəhf ziyarətgahı ən qədim dövrlərdən burada insanların yaşayışını sübut edir.

Naxçıvanın qədimliyini sübut edən mühüm amillərdən biri də bu yurdun Nuh peyğəmbər və tərəfdarları ilə bağlı olmasıdır. Ordubad rayonu ərazisində olan və eradan əvvəl 4-cü 1-ci minilliyə aid edilən Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Nuhgədik, Peyğəmbərayağı kimi yer adlarının mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamasının daha bir əyani ifadəsidir.

Son vaxtlar Nuh peyğəmbər, Dünya tufanı və bunların Naxçıvanla əlaqəsi ciddi aktuallıq kəsb etmiş, bir sıra araşdırmalar aparılmış, Gəmiqaya abidəsi kompleks şəkildə öyrənilmiş, tarix və mədəniyyət abidələri yenidən elmi tədqiqata cəlb olunaraq pasportlaşdırılmış, qeyd olunanlarla bağlı 20-dək kitab və monoqrafiya, 120-dən çox elmi məqalə çap olunmuş, "Naxçıvan abidələri ensiklopediyası" hazırlanaraq nəşr edilmişdir. Bundan əlavə Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin yeri dəqiqləşdirilmiş, abidənin qalıqları aşkar edilmiş və həmin abidə yenidən bərpa olunmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq **qərara alıram:**

1. 2009-cu ilin aprel ayında Naxçıvan şəhərində "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpozium keçirilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 fevral 2009-cu il*

## "NUH PEYĞƏMBƏR: DÜNYA TUFANI VƏ NAXÇIVAN" MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ SİMPOZİUMDA NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN

## ÇIXIŞI

Hörmətli simpozium iştirakçıları!

Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasında çox mühüm elmi və tarixi əhəmiyyət kəsb edən beynəlxalq tədbir öz işinə başlayır. "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda simpozium keçirilir.

Adından da göründüyü kimi, beynəlxalq simpozium yer üzünün tarixi taleyində həlledici rola malik olan bir məsələyə, daha dəqiq desək, bəşəri mövzuya həsr olunmuşdur. Simpoziumda Azərbaycanın və xarici ölkələrin nüfuzlu elmi müəssisələrini təmsil edən nümayəndələrin, habelə Nuhşünas və Naxçıvanşünas alimlərin, mütəxəssislərin iştirakı əsas verir deyək ki, beynəlxalq elmi forum uğurla keçəcək, qarşısına qoyduğu məqsədə çatacaqdır.

Tarix öz-özünə yaranmır. O, qüdrətli şəxsiyyətlərin, xalqların və millətlərin birgə yaradıcılığının məhsuludur. İkinci tərəfdən, hər bir xalqın tarixi onun dünya birliyində özünəməxsus yer tutması üçün milli kimlik pasportudur. Tarix mahiyyət etibarı ilə beynəlmiləl olduğu qədər də millidir. Milli olmayan tarix beynəlmiləl ola bilməz. Keçmiş Sovet tarix elmində məhz bu amil diqqətdən kənarda saxlanmış, digər xalqlar kimi, Azərbaycan xalqının da tarixi hər cür təhriflərə məruz qalmış, faktiki olaraq xalqımız uzun müddət öz gerçək tarixinin sahibi ola bilməmişdir. Azərbaycan tarixinin bir hissəsini təşkil edən Naxçıvan tarixi də lazımi səviyyədə öyrənilməmiş, qədim tariximizə qərəzli münasibətlər göstərilmişdir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra milli dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkə iqtisadiyyatının dirçəldilməsi sahəsində görülən işlərlə yanaşı Azərbaycan tarixinin keçmiş Sovetlər Birliyinə xas olan ideoloji baxışlardan təmizlənməsi, xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklor və adətlərinin, milli dəyərlər sisteminin, geniş mənada xalq yaradıcılığının

elmi dəlil və konkret faktlar əsasında yenidən araşdırılması sahəsində əsaslı tədbirlər görüldü. Bu tədbirlərin kökündə ulu öndər Heydər Əliyevin rəhbər göstərişləri, tapşırıq və tövsiyələri dayanırdı. Qısa zaman ərzində mühüm elmi nailiyyətlər qazanıldı. Azərbaycançılıq məfkurəsi formalaşdı. Xalqımızın qədim tarixinə, etnogenezisinə dair sanballı elmi-tədqiqat materialları, xəritələr toplusu hazırlandı.

Ümummilli liderimizin Azərbaycan tarixşünaslığına verdiyi töhfələrdən biri də regionların tarixinin öyrənilməsidir. Çünki bu olmadan, bütövlükdə Azərbaycan tarixindən danışmaq mümkün deyil. Məhz belə bir yanaşmanın, konseptual baxışın nəticəsidir ki, Naxçıvan tarixinin öyrənilməsi sahəsində də əhəmiyyətli dönüşə nail olunmuşdur.

Lakin bütün bunlar qəti fikir söyləməyə əsas vermir ki, qarşıda dayanan vəzifələr tamamilə həll olunmuşdur. Naxçıvanın qədim tarixinə dair bir sıra məsələlər hələ də tam araşdırılmamışdır. Öyrənilməsinə, tədqiq olunmasına ciddi ehtiyac duyulan bir çox məsələlər qalmaqdadır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması münasibəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında Sərəncam imzalamışam... Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən, dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".

Hal-hazırda bu ehtiyac nəzərə alınaraq elmi-tədqiqat müəssisələrinin fəaliyyəti gücləndirilir. Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanın siyasi, iqtisadi və milli dövlətçilik tarixində mühüm yer tutan Naxçıvan tarixinin ardıcıl öyrənilməsi, "bu olduqca mühüm və səmərəli işin davam etdirilməsi" zərurətindən danışaraq demişdir: "Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbay-

candan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir".

Bu gün qədim Azərbaycan torpağı olan Naxçıvanda öz işinə başlayan "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumu ulu öndər Heydər Əliyevin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Naxçıvanın qədim tarixinin öyrənilməsi sahəsində qarşıya qoyduqları vəzifələrin həlli istiqamətində atılan daha bir əməli addımdır.

Beynəlxalq simpoziumun öz işinə başlaması münasibəti ilə sizin hamınızı təbrik edir, simpoziumun iştirakçılarını və qonaqları salamlayıram!

Hörmətli simpozium iştirakçıları!

Naxçıvan qədim tarixə malikdir. Milli sərvətlərimiz olan abidələrlə zəngin bir diyardır. Tale bu torpaqdan öz səxavətini əsirgəməyib. Bu yurdun ən böyük sərvəti isə şübhəsiz ki, onun dünyaya bəxş etdiyi böyük tarixi şəxsiyyət, bəşəriyyətin ikinci atası sayılan Həzrəti Nuh peyğəmbərin də vətəni olmasıdır.

Qeyd etmək lazımdır ki, qədim dövrlərdə və orta əsrlərdə Naxçıvanın tarixindən bəhs edən tədqiqatçılar, alim və səyyahlar Nuh peyğəmbər və Naxçıvan bağlılığından danışsalar da, bu məsələ ilə bağlı yazılı mənbələr qoyub getsələr də, Sovetlər Birliyi dövründə "Nuh-Naxçıvan" mövzusu qadağan olmuş, elmi ədəbiyyatlarda işlədilməsinə icazə verilməmişdir. Hətta iş o yerə çatdırılmışdır ki, Naxçıvanda nəşr olunan "Sovet Naxçıvanı" qəzetinin 1986-cı il 30 yanvar tarixli nömrəsində Nuhun gəmisinin Naxçıvan ərazisindəki Gəmiqayada quruya çıxması, buradakı runik yazılarında gəmi təsvirinin verilməsi barədə fikirləri, bütövlükdə Nuh peyğəmbər və Naxçıvan əlaqələrinə dair elmi təhlilləri özündə əks etdirən "Xalqımızın mənlik heykəli" adlı yazının dərc edilməsi mərkəzi hakimiyyət tərə-

findən ciddi etirazla qarşılanmış, partiya orqanlarının büro və plenum iclaslarında sərt tənqid olunmuş, "Nuh əyyamı" dövrünün əfsanəvi süjetini milli iftixar mövzusu kimi qələmə verdiyinə görə qəzetin rəhbərliyi cəzalandırılmışdır.

Göründüyü kimi, Sovet tarixşünaslığı Nuh peyğəmbər və Naxçıvan bağlılığını qətiyyətlə təkzib etməyə çalışmış, o dövrün elmi ədəbiyyatlarında, hətta Azərbaycan müstəqillik qazandıqdan sonra nəşr olunan bir sıra tədqiqat materiallarında da "Naxçıvan" sözünün mənşəyi barədə ziddiyyətli fikirlər irəli sürülmüşdür. Bəzi tarixçilər yunan mənbələrinə istinad edərək "Naxçıvan" sözünün Naksuana kimi yazılmasından, digərləri isə qədim ərəb mətnlərində Nəşəva kimi işlənməsindən istifadə edərək Naxçıvan ifadəsində yad elementlər axtarmağa cəhd göstərmişlər. Bu sözü elamların allahı ilə əlaqələndirənlər, qədim tayfa adından yarana biləcəyini fərz edənlər də vardır. Bir sıra alimlər isə Naxçıvanı "Nəqşi-Cahan", yəni dünyanın bəzəyi kimi başa düşmüşlər.

Mülahizələrin çoxluğuna baxmayaraq, elmi fikir əsasən yad mənbələr üzərində köklənmiş, yalnız az sayda tədqiqatçılar Naxçıvan sözünün Nuh peyğəmbərlə bağlılığını əsaslandırmağa çalışmışlar. Bu söz məhz "Nuh" ifadəsi ilə bağlıdır və Naxçıvan – Nuhçuların, Nuh tərəfdarlarının məskəni deməkdir.

Naxçıvan o yerdir ki, burada Nuh peyğəmbərin, yaxın qohumlarının və tərəfdarlarının məzarları mövcuddur. Araşdırmalar göstərir ki, "Ümumdünya tufanı" və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim yunan alimi Klavdi Ptolemey bizim eranın II əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas əl-Şərifi nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. Eradan əvvəl I əsrdə yaşamış yəhudi alimi İosif Flavi Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş, hətta onun dəqiq yerini də göstərmişdir. Azərbaycan rəssamı Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir

əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində mühafizə və nümayiş etdirilir.

Qeyd olunanlar bir daha göstərir ki, Nuh peyğəmbər Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun məzarı bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Dünya xəritəsinə nəzər salsaq, heç bir yerdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında olduğu qədər Nuh peyğəmbərlə bağlı yer adlarına rast gəlmək mümkün deyil. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda olan və eradan əvvəl IV minilliyə aid edilən Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Nuhgədik və Peyğəmbərayağı, Haça dağ kimi yer adlarının, yaşayış məskənlərinin mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamasının daha bir əyani sübutudur.

Burada haqlı sual doğur: Nuh peyğəmbər və tərəfdarları nə üçün məhz Naxçıvanı seçmişlər? Bu fikrin ən sadə izahı bu günkü Naxçıvanın relyefi, yerüstü təbii sərvətləri, coğrafi mövqeyidir. Arazboyu və dağətəyi zonada əkinçiliyin və sənətkarlığın, dağlıq ərazidə heyvandarlığın inkişafı üçün yaranmış əlverişli şərait, mövcud 11 iqlim qurşağından 9-nun Naxçıvanda olması daş dövründən başlayaraq insanların burada məskunlaşması ilə nəticələnmişdir. Eradan əvvəl IV minilliyə aid Kültəpə, Qazma, Kilid, Oğlanqala, Govurqala, Daşqala mağara-yaşayış yerləri Naxçıvanın qədim sivilizasiyanın əhəmiyyətli mərkəzlərindən biri kimi formalaşmasının canlı nümunəsidir. Burada aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanmış daş və metal dövrünün abidələri, Nuh peyğəmbərlə bağlı olan Gəmiqaya təsvirləri, mükəmməl sənətkarlıq nümunələri kimi diqqəti cəlb edən boyalı qablar texnologiyası, xalq sənətkarlığının inkişaf etmiş və dövrümüzə qədər gəlib çatmış digər sahələri Naxçıvanın ilkin şəhər mədəniyyətindən xəbər verir. Azərbaycan Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas ocaqları Naxçıvandadır. Bu, bir daha sübut edir ki, minilliklər boyu Naxçıvan ərazisində ardıcıl və intensiv həyat olmuş, eradan əvvəl V-III minilliklərdə burada məskunlaşmış insanların iqtisadi, ictimai və mədəni həyatında ciddi dəyişikliklər baş vermiş, iri tayfa ittifaqları meydana gəlmiş, Naxçıvan şəhəri yaranmışdır.

Qeyd etmək lazımdır ki, müxtəlif dövrlərdə Naxçıvan şəhərinin yaranması barədə də Azərbaycan tarixşünaslığında ziddiyyətli, heç bir elmi əsası olmayan fikirlər irəli sürülmüşdür. Bir sıra tədqiqatçılar Naxçıvanın 2 min, bəziləri 3 min 500 yaşı olduğunu iddia etmiş, lakin yekun elmi nəticəyə gələ bilməmişlər. Səbəb nə idi? Səbəb o idi ki, Naxçıvan şəhərinin yaşı ilə bağlı araşdırmalar lazım olan yerdə aparılmamış, Naxçıvan şəhərinin Nuh peyğəmbərlə bağlılığı elmi tədqiqatlardan kənarda qalmışdır. Yadda saxlamaq lazımdır ki, indiki Naxçıvan qədim və orta əsrlər şəhər mədəniyyətinin üzərində yerləşir. Deməli, elmi fikir yenidən Naxçıvanın yaşı məsələsinə qayıtmalı, tədqiqatlar bu ərazidə aparılmalı, Naxçıvan şəhərinin indiki ərazisini əhatə etməlidir.

Rus tədqiqatçısı Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar" məcmuəsində nəşr olunan "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı irihəcmli məqaləsində deyilir: "Tufandan sonra...Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu. Və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir".

Həmin məqalədə eyni zamanda qeyd olunur ki, Nuh peyğəmbər şəhər əhalisinə duz çıxartmağı öyrətmiş, özü də yaxınlıqdakı duz mədənində ilk çalışanlardan olmuşdur. Nuh peyğəmbərlə bağlı Naxçıvan ərazisində yayılmış digər rəvayətlər kimi, bu fikir də özünün elmi təsdiqini tapmış, XIX əsrin axırlarında Naxçıvan duz mədənində nəzarətçi işləyən Beyer duz şaxtasında qədim daş baltalar aşkar etmişdir. O, həmin baltalardan ikisini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Peterburq və Tiflis muzeylərinə göndərmişdir. Aydın olmuşdur ki, duz çıxarılması üçün istifadə olunan bu daş baltalar azı beş min il bundan əvvəl düzəldilmişdir. Bu, bir tərəfdən Naxçıvanda duzçıxarma mədəniyyətinin 5 min ildən artıq bir dövrü əhatə etdiyini göstərirsə, digər tərəfdən Naxçıvan şəhərinin yaşı məsələsini yenidən elmi fikrin predmetinə çevirir.

Naxçıvan yaxınlığındakı Duzdağın və ona bitişik ərazilərin Naxçıvan şəhər mədəniyyətinin formalaşmasında mühüm rolu olmuşdur. Həmin ərazidən aşkar olunmuş arxeoloji nümunələrə əsaslanaraq

demək mümkündür ki, yerli əhali Eneolit dövründə buradan geniş istifadə etmişdir. Təbii ki, çıxarılmış duz ancaq yerli tələbatı ödəməmiş, digər yerlərə də aparılmış, bu yolla ticarət inkişaf etmişdir. İkinci tərəfdən, bu ərazi insanların məskunlaşması üçün də əlverişli yer olmuşdur. Arazboyu və Duzdağ ətrafı düzənliklərdəki torpaqlar, sututarlar əhalinin tədricən oturaq həyata keçməsi ilə nəticələnmiş, əkinçilik, zəngin təbii imkanlardan istifadə etməklə isə sənətkarlıq formalaşmış, dulusçuluq, sonrakı dövrlərdə metal istehsalı və xalq sənətkarlığının digər sahələri inkişaf etmişdir.

Tarixi mənbələrdə Dünya tufanının ən azı 7 min 500 il bundan əvvəl baş verdiyi qeyd olunur. Deməli, Naxçıvan bu dövrdən etibarən yaşayış məskəni kimi seçilmiş, əlverişli təbii-coğrafi şərait burada əkinçiliyin, maldarlığın, sənətkarlığın müxtəlif sahələrinin inkişafına səbəb olmuş, ticarət əlaqələri yaranmışdır. Göstərilən şərtlər erkən şəhər mədəniyyətinin formalaşmasında əsas amillərdən hesab edildiyindən Naxçıvan şəhərinin 5 min il bundan əvvəl yarandığını söyləmək mümkündür.

Dünya tufanının ilk yazılı variantı olan və eradan əvvəl IV minilliyin ortalarına aid edilən Şumer əfsanəsi ilə Naxçıvan arasında bağlılıq da bu qədim şəhərin 5 min ildən artıq yaşı olduğunu göstərməkdədir. Belə ki, Naxçıvan mədəniyyəti Mesopotamiya, Babil, Xett və digər bu kimi antik mədəniyyət mərkəzləri ilə sıx əlaqədar şəraitdə inkişaf etmiş, özünəməxsus formalaşma mərhələsi keçmişdir.

Qeyd olunanların yekunu kimi əminliklə göstərmək mümkündür ki, Nuh peyğəmbər və Dünya tufanı qədim Naxçıvanla bağlı olmuşdur. Bu, Azərbaycanda Nuh peyğəmbər və Naxçıvan mövzusunda aparılan elmi araşdırmaların gəldiyi ən düzgün və məntiqi nəticədir. Müasir Nuhşünasların fikrincə, dünyada yerin və göyün qovuşduğu, Allahın bərəkətli torpaq kimi nişan verdiyi yer Naxçıvandır. Belə olmasaydı, dünya tarixinə Nuh möhürü Naxçıvanda vurulmazdı.

Bu gün "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusu regional yox, qlobal, bəşəri məsələdir. Biz Nuh peyğəmbər və Naxçıvan bağlılığını təsdiq etməklə, öyrənməklə Naxçıvan tarixinin araşdırılmasında yol verilmiş nöqsanları aradan qaldırır, bu yurdun gerçək tarixini yaratmağa çalışır, bununla da Azərbaycan tarixini zən-

ginləşdirir və dünya tarixinə layiqli töhfə vermiş oluruq.

Beynəlxalq simpoziumun öz fəaliyyətini bu istiqamətdə quracağına, forumun gəldiyi nəticələrin elmimiz üçün faydalı olacağına inanır, sizin hamınıza uğurlar və elmi hesabatlarınızın məhsuldar olmasını arzulayıram.

118812

M.S.Ordubadi

# TƏRTİBÇİDƏN

Yaxın Şərqin, o cümlədən Azərbaycanın inkişaf etmiş mədəniyyət mərkəzlərindən olan Naxçıvan diyarı qədim zamanlardan bəri bir sıra mühüm tarixi-siyasi hadisələrin, təbii fəlakətlərin baş verdiyi ərazilərdən biri olmuşdur. Belə hadisələrdən biri də Nuh peyğəmbərin zamanında baş verən Dünya tufanıdır. Xalq inamlarına görə təxminən 7-8 min il bundan əvvəl baş verən Tufan zamanı boğulmaqdan xilas olmaq üçün gəmiyə minən Nuh peyğəmbər və tərəfdarları suyun çəkilməsindən sonra bu ərazidə quruya çıxmış və Naxçıvan bölgəsində məskunlaşmışlar.

Naxçıvan ərazisində yerli əhali arasında indiyədək yaşayan şifahi xalq ədəbiyyatı materiallarının (miflərin, əfsanələrin, rəvayətlərin və s.) verdiyi məlumatlardan aydın olur ki, Naxçıvan ərazisi Dünya tufanı zamanı suyun altında qalmış, Nuh peyğəmbərin və tərəfdarlarının mindiyi gəmi əsasən bu ərazilərdə üzmüş, bir sıra dağlara toxunmuş, nəhayət Ordubad rayonu ərazisindəki Gəmiqayada quruya oturmuşdur. Nuh peyğəmbər, övladları və tərəfdarları ilk dəfə burada quruya ayaq basmış, orada məskunlaşmışlar. Nuh peyğəmbər burada yaşamış, Naxçıvan şəhərinin əsasını qoymuş, duz çıxarmanı, üzümçülüyü və başqa sahələri insanlara öyrətmişdir. 950 il ömür sürən Nuh peyğəmbər Naxçıvan şəhərində vəfat etmiş və şəhərin cənubunda dəfn olunmuşdur. Orta əsrlər zamanı üzərində möhtəşəm türbə ucaldılan, XX əsrin əvvəllərinədək mövcud olan, qalıqları gəlib çatan bu türbə – məzar əhali tərəfindən həmişə Nuhun qəbri kimi tanınmış, indi də belə tanınmaqdadır.

Naxçıvan şəhərinin cənubunda yerləşən bu məzar Naxçıvanda ən məşhur ziyarətgahlardan biri olmuşdur. Ancaq Sovet hakimiyyəti illərində Azərbaycanın digər məşhur inam yerləri kimi bu müqəddəs qəbrin üzərindəki türbə də özülünədək dağıdılmış, özü isə xalqa zorla unutdurulmuşdur. Ona görə də tək-tək yaşlı adamlar istisna olmaqla, əhalinin əksəriyyətinin bu abidə haqqında məlumatı yox idi və onun yerini heç kim bilmirdi.

Dövrümüzədək gəlib çatmış bəzi qaynaqlarda Nuh peyğəmbərin

Naxçıvanla bağlılığı, Nuhun qəbri haqqında məlumatlar verilmişdir. Eramızdan əvvəl I əsrdə yaşamış İosif Flavi, orta əsr müəlliflərindən Qilom de Rubruk, Jurden de Severak, İvan Şiltberqer, Ambrodjo Kontarini və başqaları öz əsərlərində bu məsələdən söhbət açmış, XVI əsrdə yaşamış ərəb coğrafiyaşünası əl-Şərifi Nuhun gəmisinin və qəbrinin Naxçıvanda olduğunu qeyd etmişdir. Fransız səyyahı və taciri Jan Batist Tavernye Naxçıvan şəhərində olarkən orada böyük bir məscid binasının qalıqlarını görmüş, onu Asiyanın ən yaxşı və gözəl məscidlərindən və Nuhun qəbrinə yadigar olaraq inşa edilməsindən bəhs etmişdir. Başqa bir fransız səyyahı, 1673-cü ildə Naxçıvanda olmuş Jan Şardənin "Səyahətnaməsi"ndə də Nuhun Naxçıvanla bağlılığı haqqında məlumata rast gəlinir. XIX-XX əsr müəlliflərindən V.Qriqoryev, Dyuba de-Monperye, İ.Şopen, K.Nikitin, V.Sısoyev, K.Smirnov və başqaları da Nuh peyğəmbərlə Naxçıvanın bağlılığı, Nuh peyğəmbərin Naxçıvandakı məzarı və məzarüstü türbəsi haqqında maraqlı məlumatlar vermişlər. Azərbaycanın ilk peşakar rəssamı Bəhruz Kəngərli 1916-1921-ci illərdə Nuh peyğəmbərin qəbrinin üzərindəki türbənin 6 dəfə rəsmini çəkmişdir.

Dünya tufanından sonra Naxçıvanda məskunlaşan Nuh peyğəmbərin və övladlarının Naxçıvanda bu günədək bir çox izləri qalmışdır. Bu sıradan toponimlər – yer yurd adları xüsusi qeyd olunmalıdır. Buna nümunə olaraq Naxçıvan, Gəmiqaya, Qapıcıq, Qaranquş yaylağı, Nəbi yurdu, Xəzər obası, Qız-gəlin çuxuru, Kəmki dağı, Haçadağ, Ələngəz dağı, Nehrəm kəndi, Nəhəcir kəndi, Nəhəcir dağı, Nuhdaban, Nuhun qəbri, Peyğəmbər ayağı, Üç qardaş piri və s. onlarla toponimi misal göstərmək olar.

Toponimlərlə yanaşı Naxçıvanda Nuh peyğəmbərlə əlaqədar yaranmış çoxlu deyimlər, o cümlədən "Nuh əyyamından qalma", "Nuhu taxtda görüb, Süleymanı qundaqda", "Nuhdan qalma məsəldir" və s. də qalmışdır. Burada Naxçıvanda müəyyən qədər rast gəlinən Nuhbala, Nuhu, Nuhizər, Nuhvəli və tərkibində "Nuh" komponenti olan başqa şəxs adlarını da Naxçıvanda Nuh peyğəmbər və övladları ilə əlaqədar qalmış izlər kimi qeyd etmək yerinə düşər.

Naxçıvan bölgəsində Nuh peyğəmbər və Dünya tufanı ilə əlaqədar çoxlu izlərin qalmasına baxmayaraq Sovet hakimiyyəti illərində bu

mövzu unudulmuş, ona demək olar ki, toxunulmamışdır. Hətta filologiya üzrə fəlsəfə doktoru Əbülfəz Hüseyninin "Sovet Naxçıvanı" qəzetinin 30 yanvar 1986-cı il tarixli nömrəsində dərc olunan "Xalqımızın mənlik heykəli" məqaləsində Gəmiqaya – Nuh peyğəmbər bağlılığına toxunulduğuna, bu haqda bəhs olunduğuna görə müəllif və qəzet rəhbərliyi Azərbaycan KP MK-nin plenumunda ciddi tənqid olunmuş, qəzetin redaktor müavini cəzalandırılmışdı. Bundan sonra Gəmiqaya, Nuh peyğəmbər mövzusuna toxunulmamışdı.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra tarix və mədəniyyətimizin digər problemləri kimi Dünya tufanı, Nuh peyğəmbər və onların Naxçıvanla bağlılığı mövzusu da elmi dövriyyəyə daxil olmağa başlamışdır. İlk dəfə olaraq bu mövzuya akademik İsa Həbibbəyli müraciət etmiş və "Vətən səsi" qəzetində (16 fevral 1991-ci il, № 6). "Nuhun qəbri haradadır?" məqaləsini nəşr etdirmişdir. Məqalədə Nuh peyğəmbərin Naxçıvan şəhərindəki qəbrindən bəhs olunmuşdur.

Nuh peyğəmbər və Dünya tufanı ilə sıx bağlı olan Gəmiqaya abidəsi 1968-ci ildən elmə bəlli olsa da orada geniş tədqiqat işləri aparılmamışdı. Məhz buna görə də ümummilli lider Heydər Əliyev bir sıra çıxış və məruzələrində, xüsusilə 15 iyun 2001-ci ildə Naxçıvan şəhərindəki Olimpiya kompleksinin açılışındakı nitqində Gəmiqaya abidəsinin öyrənilməsini tədqiqatçılar qarşısında aktual bir vəzifə kimi qoymuşdur. Gəmiqaya abidəsinin öyrənilməsinə böyük önəm verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2001-ci ildə "Ordubad rayonundakı Gəmiqaya abidəsinin öyrənilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq 2001, 2002 və 2005-ci illərdə Gəmiqayada geniş miqyaslı tədqiqatlar aparılmış, bundan sonra çoxlu monoqrafiya, kitab və məqalələr yazılmışdır. Ali Məclis Sədrinin tapşırığı ilə Naxçıvan şəhərinin cənub tərəfində yerləşən Nuhun qəbrinin yeri müəyyənləşdirilmiş və Ali Məclis Sədrinin 28 iyun 2006-cı ildə imzaladığı "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" sərəncamına uyğun olaraq türbə bərpa edilmişdir. Ali Məclis Sədrinin 10 fevral 2009-cu il tarixli sərəncamına əsasən 24-25 aprel 2009-cu ildə Naxçıvan şəhərində "Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpozium keçirilmişdir. Beləliklə, Nuh pey-

ğəmbər, Dünya tufanı və Naxçıvan mövzusu geniş tədqiqat obyektinə çevrilmişdir. Bundan bir qədər sonra AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan bağlılığı problemini sistemli tədqiqat obyektinə çevirmiş, bu məsələ ilə əlaqədar iki monoqrafiya ("Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvan: Nuh baba və Türk atadan gələn yol") nəşr etdirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 07 iyun 2011-ci ildə imzaladığı sərəncama əsasən 20-24 iyul 2011-ci ildə Naxçıvan şəhərində baş tutan, yekun iclası Gəmiqayada keçirilən "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" beynəlxalq simpozium Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan bağlılığı ilə əlaqədar aparılan tədqiqatların nəticələrinin təhlil olunması sahəsində mühüm mərhələ oldu. Konfransda iştirak edən əcnəbi və ölkə alimlərinin gəldiyi ən mühüm qənaət bundan ibarət oldu ki, Naxçıvan insanların ilk dəfə məskunlaşdığı, Dünya tufanının baş verdiyi, insanların və heyvanların mindiyi gəminin üzdüyü, quruya oturduğu, Nuh peyğəmbər və övladlarının quruya çıxdığı və ilkin şəhər mədəniyyətinin meydana gəldiyi ərazidir.

Simpoziumun keçirilməsi ilə əlaqədar imzalanan sərəncamla təsdiq olunan "Tədbirlər planı"nda qeyd olunan məsələ ilə əlaqədar nazirliklər, komitələr, elm və təhsil müəssisələri qarşısında bir sıra vəzifələr qoyulmuşdur. Həmin vəzifələrdən biri də "Tarixi mənbələrdə Nuh peyğəmbər" sənədlər toplusunun hazırlanmasıdır. Təqdim olunan bu toplu "Tədbirlər planı"nda icrası AMEA Naxçıvan Bölməsinə tapşırılan vəzifəyə uyğun olaraq hazırlanmışdır.

Toplu 4 fəsildən ibarətdir:

I fəsildə Naxçıvanda Nuh peyğəmbərlə əlaqədar yaranmış şifahi xalq ədəbiyyatı nümunələri (burada toplanan nümunələri söyləyənlərin dil xüsusiyyətləri olduğu kimi saxlanmışdır);

II fəsildə Qurani-Kərimdə Nuh peyğəmbər haqqında məlumatlar;

III fəsildə Qaynaqlarda Nuh peyğəmbər və Naxçıvan bağlılığı haqqında məlumatlar;

IV fəsildə Nuh peyğəmbərin Naxçıvanla bağlılığı ilə əlaqədar tədqiqatlar toplanmışdır.

Məlumdur ki, Naxçıvan ərazisi 1828-ci ildə Rusiya tərəfindən tu-

tulduqdan sonra bölgəyə gələn rus məmurları və tədqiqatçılarına bələdçiliyi erməni əsilli adamlar etmişlər. Həmin adamlar yazdıqları əsərlərdə erməni bələdçilərdən aldıqları məlumatları və öz müşahidələrini yazmışlar. Ona görə də nəşr olunan əsərlərdə erməni bələdçi və tərcüməçilərin bölgənin tarixi, mədəniyyəti və s. ilə əlaqədar arzuladıqlarına və xülyalarına uyğun olaraq söylədikləri yanlış məlumatlar da öz əksini tapmışdır. Bu səbəbdən də topluda həmin məsələlərə tənqidi baxımdan yanaşılmışdır.

**Fəxrəddin SƏFƏRLİ**
*AMEA - nın müxbir üzvü, professor*

# I FƏSİL

# NAXÇIVANDA NUH PEYĞƏMBƏRLƏ ƏLAQƏDAR YARANMIŞ ŞİFAHİ XALQ ƏDƏBİYYATI NÜMUNƏLƏRİ

## I.1. MİFLƏR

### AZƏRBAYCAN MİFOLOJİ MƏTNLƏRİ
**Bakı: Elm, 1988, 196 s.**

S. 42-43. Allahdan vəh gəlir, Nuh peyğəmbər də bını insannara deyir, söylüyür ki, bə tufan olacax, dünyanın üzünü su alacax. Heş kim bına inanmır. Nuh peyğəmbər bir gəmi qəyirir, bütün cannılardan bir cüt qoyur gəmiyə. Bının yeddi oğlu varımış. Oğlannarınnan altısı gəmiyə minir, biri minmir. Deyir ki, su gələndə çıxaram dağın başına, mənə heş zad olmaz.

Çox keçmir ki, dünyanın üzünü su alır. İnsannar boğulup ölür. Nuh peyğəmbər baxır ki, dağa çıxan oğlu da boğulhaboğuldadı. İstiyir ki, gəmini ona sarı sürsün. Allahdan səs gəlir ki, ya Nuh, çıx get, bı oğlan sizlərdən deyil.

Nuh gəmini sürüp gedir. Çox getmir ki, tufan dayanır, su yatır. Nuh peyğəmbər oğlannarına deyir ki, istədiyiviz cannılardan götürüp düşün quruya, yaşıyıp nəslivizi artırın.

Oğlannardan birinin adı Türk idi. Bı Türk qoyunun qoçu götürüp torpağa düşdü. Gəmi çıxıp getdi. Demiyəsən Türkün düşdüyü torpax cəzirəyimiş. Hər tərəfi su olduğuna görə bı cəzirədən çıxmaq olmazımış.

Türk dörd yüz əlli il bı cəzirədə yaşayır. Onun heyvannarı oqqədər çoxalır ki, bütün cəzirəni tutur. Ta cəzirədə ot-ələf, kol-kolavat qalmır, heyvannar hammısın yeyip qutarır. Elə gün gəlip çatır ki, heyvannar yeməyə heş nə tapbıyıp başdıyıllar qırılmağa. Nuh oğlu Türk baxır ki, belə getsə, heyvannar da öləcəh, bının özü də öləcək. Ha fikirləşir, bir nicat yolu tapammır. Qalır məhətdəl, bilmir neynəsin.

Günnərin bir günü Türk görür ki, bir heyvanı parçalayıp yeyiplər. Öz-özünə deyir ki, axı bı cəzirədə qoyunnan başqa heş bir heyvan yoxdu. Bə bını nə yeyip?

Türk çox təəccüblənir. Gecəni yatmıyıp güdür. Bir də baxır ki, uzaxda suyun içiynən bir qəraltı gəlir. Bı qəraltı gəlip cəzirəyə çatanda tanıyır ki, bı boz irəhli qurtdu. Boz qurt cəzirəyə çıxan kimi cumur bir heyvanın üstünə. Bıyızdan da Türk çıxır. Boz qurt Türkü görüp gəldiyi yolunan dala qəyidir. Türk də düşür bının dalına. Xeylah gedillər. Türk bəxır ki, qurdun getdiyi yerrərdə su heç topuğa qalxmır. Birəz gedənnən sora quruya çıxıllar. Bınnan da Türk xilas olur. Qəyidip heyvannarı da həmən yolunan gətirir quruya. Sora Türk fikirrəşir ki, bə məni bı boz qurt xilas elədi. Gərəh mən də boz qurdun şiklini çəkəm öz bayrağıma.

Belə də eliyir. Soralar Türkin nəsli çoxalanda hammısına deyir ki, boz qurt bizim xilaskarımızdı, əgər o, yol göstərməsəydi, nə mən olardım, nə də siz olardız. Ona görə də gərəh həmmişə boz qurda inanasız. Boz qurdun şiklini bayrağıvıza çəkip həmmişə bı bayrağın dalınca gedəsiz. Çətinniyə düşsəz, boz qurdu köməyə çağırasız.

Türkün övladları bı nəsihətə həmmişə əməl eliyillər.

* * *

## KOSMİK QƏZA. TUFAN.

S. 45-46. İlan dağının, Kəmçinin, Ağrının adını Nuh qoymuşdur.

Nuhun gəmisi hər yerdə sulardan sakit keçir. Təkcə bir dağdan keçəndə gəmi bir az ilişir. Nuh deyir:

- İnankı dağdı.

Ona görə də bu dağın adı İlan dağı qalır.

Nuhun gəmisi xeyli aralıda yenə də çətinliyə düşür. Nuh deyir:

Bu dağ o dağdan kəm deyil.

Bu sözə görə bu dağın adı Kəmçi olur.

Üçüncü dəfə Nuhun gəmisi daha böyük çətinliyə düşür. Nuh deyir:

- Bu dağ daha ağır dağdı, gəmi burdan keçə bilməyəcək. Bu dağın da adı Ağrı dağı qalır

* * *

S. 46. Nuh böyük bir gəmi düzəltdirir, bütün canlılardan ora götürür.

Tufan başlanır. Yer üzünü su basır. Yer üzərindəki bütün canlılar

tələf olur. Xeyli vaxt keçir, gəminin bir yerindən deşik açılır, gəmiyə su dolmağa başlayır. Deşiyi qapaya bilmirlər. Nuh deyir ki, kim deşiyi qapaya bilsə, onun arzusunu yerinə yetirəcək. Bu zaman gəmidə olan böyük bir ilan qıvrılıb deşiyi qapayır, gəmiyə daha su dolmur. Bir qədər sonra tufan sakitləşir, su çəkilir. Nuh gəmidəki canlıları yer üzərinə buraxır.

Bu hadisədən bir müddət keçir. Bir gün ilanın yadına Nuh peyğəmbərin dediyi söz düşür. O, Nuhun yanına gəlib verdiyi sözü yadına salır. Nuh ondan nə istədiyini soruşur. İlan deyir:

- Mən istəyirəm ki, mənim nəslimə dünyadakı ən şirin şeyi yeməyə izin verəsən.

Nuh razı olur. Qaranquşla arını dünyada ən şirin şeyi axtarmağa göndərir.

Qaranquşla arı uzun müddət gəzir, hər şeyin şirinliyini yoxlayırlar. Axırda arı deyir ki, ən şirin şey insan ətidi.

Onlar geri qayıdanda qaranquş insanları xilas eləməkdən ötrü aldadıb arının dilini dimdikləyib qoparır. Arı danışa bilmir, vızıldaya-vızıldaya birtəhər qaranquşdan soruşur:

Sən məni niyə bu günə saldın?

Qaranquş arının sözünü cavabsız qoymur:

Niyə sən təkcə insan ətinin şirinliyini gördün? O, bizə ev tikir, isti yuva qurur, bizi qoruyur. Sən bunları niyə görmədin?

Arı nə qədər vızıldayırsa cavab verə bilmir, dili tutulur.

Onlar Nuhun yanına gedirlər. Arı özünü qabağa verir. Çox çalışır, çox vızıldayır, ancaq bir şey qandıra bilmir. Qaranquş deyir:

Ən şirin şey torpaqdı.

Nuh ilana yemək üçün torpaq verir. İşin içində kələk olduğunu başa düşən ilan qaranquşu tutub məhv etmək istəyir. Lakin qaranquş uçub onun əlindən çıxır. İlan yalnız onun quyruğunu dişləyə bilir. Elə o gündən arı vızıldayır, qaranquşun da quyruğu haça qalır.

* * *

S. 47. Nuh xəbər tutur ki, dünyanı su alacaq. Əl-ayağa düşür, gəmi hazırlayır, heyvanların hərəsindən bir cütünü də gəmiyə qoyur ki, onların nəsli kəsilməsin.

İşdən halı olan, dünya görmüş, ömür sürmüş ağbirçək qarı Nuha yaxınlaşıb deyir:

Məni də özünlə apar.

Nuh söz verir. Amma səfər zamanı verdiyi söz huşundan çıxır, qarı qalır yer üzündə.

Vaxt gəlir. Bir yağış yağır, bir yağış yağır, tut ucundan çıx göyə. Çaylar şahə qalxır, sel dağları qopartmaq istəyir. Hər yan suya qarışır, dünya görünməz olur.

Vaxt keçir, vədə yetişir, gün çıxır. Günəşin zərbindən su ərşə çəkilir. Nuh qayıdanda qarı düşür yadına. Gedir ki, onun öldüsündən-qaldısından bir xəbər tutsun.

Qarının evinə yaxınlaşanda qulağına səs düşür, dinləyib görür ki, cəhrə səsidi, qarı salamatdı, özü də ip əyirir.

Soruşur:

Qarı, dünyanı su aldı, sən bunu görmədinmi, bilmədinmi?

Yer üzünü su almağını ondan bildim ki, piltələrim bir az nəm kimi oldu.

Nuh barmağını dişləyir, başa düşür ki, qarı qoca dünyanın özü imiş. Sən demə dünya-aləm batanda bunun ancaq piltəsi nəmlənərmiş.

* * *

S. 47. Dünyanı su basanda Nuh gəmisi ilə bərabər qalıbmış su üzündə. Gün keçir, vaxt dolanır, vədə tamam olanda su yavaş-yavaş çəkilməyə başlayır. Su çəkildikcə gəmi aşağı enir. Bir vaxt görürlər ki, gəmi nəsə bir ağır şeyə toxundu. Nuh deyir:

- Bu nə ağır şeydi!

Su yatanda baxırlar ki, bu ağır şey böyük bir dağdı. Nuh bu dağın adını Ağır dağ qoyur.

Günün istisindən su yenə də çəkilir. Az keçmir ki, gəmi lap bərk silkələnir. Nuh deyir:

İnan ki, bu da dağdı.

Buna görə də Ağır dağa Ağrı dağ, gəminin ikinci dəfə toxunduğu dağa İlanlı dağ deyirlər.

* * *

## AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI. NAXÇIVAN FOLKLORU. II cild. Naxçıvan: Əcəmi, 2010, 196 s.

### NUH TUFANI

S. 6-7. Həzrəti Nuh bir gecə yatmışdı. Aləmi-vaqiədə gördü ki, buna təklif gətirdilər, ya Nuh yaxın vaxtda dünyanın üzünü su alacaq. Gedirsən meşədən ağaclardan kəsirsən, bir gəmi hazırlayırsan. O vaxtı Həzrəti Nuh əleyhissalam buyurdu: Ey mənim Rəbbim, mən ustalığı bilmirəm ki, mən dülgərliyi bilmirəm ki, mən gedəm ağac kəsəm, gəmi hazırlayam.

Allah-Taaladan nida gəldi: - Ya Nuh, sən get ağaclardan qır, gəminin qəyrilməyinən işin yoxdu.

Həzrəti Nuh, yuxuda ki, belə deyildi, səhər baltasını qoydu çiyninə, başladı meşəyə yol elədi. Getdi ağacların harda düzləri vardı kəsdi, qabıxlarını soydu, yığdı bir yerə. Gecəni gəldi evə, səhərisi getdi gördü bunlar yonulub, mıxçalanıb.

Bir müddət bu işiynən məşğul oldu, bir günləri gəmi hazır oldu.

Dedi: - Ey mənim Allahım, gəmini hazır elədim.

Ya Allah, mən nə bilərəm ki, dünyanın üzünü havaxt su alacax, mən gəlim, bu gəmiyə sahiblik eliyim.

Bu vaxtı Allah-Taaladan nida gəldi: - Ya Nuh, o vaxtı ki, sən çöldə əkin əkəssən, arvadın evdə çörək yapacaq. Havaxt ki, o yanan təndirdən su qalxdı, o vaxtı bilginən ki, vaxt gəlib çatıb.

Rəvayətə görə, Həzrəti Nuh çöldə əkin əkirdi. Arvad evdə çörək yapırdı. Bir təndirin yapmışdı, ikinci təndiri salmışdı, arvatdar belə oturmuşdular, baxdılar ki, təndirdən su poqqulduyıb qalxır. Ay Allah bı nə əhvalatdı, bı nə əhvalatdı?

Nuhun arvadı oğlunun birini göndərdi ki, qaç atana deginən bir belə qəza baş verib. Anam çörəh yapdığı yerdə təndirdən su qalxıb, anam qalıb məhətdəl.

Həzrəti Nuh əleyhissalam gəldi, arvada dedi, tədarükü gör. Ay kişi, nolub? Dedi, tez ol, nə qoymusan, nə yoğurmusan, nə yapmısan, götür gedəyh. Arvat qaldı məhətdəl, dedi, ay kişi, bəyan elə da.

Dedi: Mənim Allahım mənə xəbər eliyib ki. bu dünyanın üzünü

su alacax, bəşər qalmıyacax. Həzrəti Nuh oğlannarını dəvət elədi. Balalar, tez olun gedəyh. Balalar dedilər:

- Ata, dünyanın üzünü su alar gedəriyh dağın dibindən qalxarıx, çıxarıx dağın başına. Dedi, bala, dünyanın hər yerin su alacax. Gəlin gedəx. Balalar eşitmədi. Həzrəti Nuh bəyan elədi. Hər kim məni, peyqumbərliyimi, mənim dediklərimi eşidirsə əyər, Allah-Taala mənə xəbər eliyib ki, dünyanın üzünü su alacax. Gəlin gedəyh. O vaxtı Nuha inanannar Nuhun arxasınca gəldilər. Gördülər gəmiyə, hər heyvanatdan, hər həşəratdan o qədər dolup. Baxdılar ki, yerin üzün su yavaş-yavaş alır. Su gəlib qalxdıxca gəmi başladı yavaş-yavaş suyun üzüynən hərəkət eləməyə. Harda ki dağa dəyirdi, hiss eliyirdi. Deyirdi bırda dağdı. Bizim bı İlannı dağı ki, görükür, rəvayətdə deyilir ki, o vaxtı həmən gəmi bu İlannı dağına dəyən vaxtında Həzrəti Nuh deyib ki, bı inan ki, dağdı. Elə o vaxtdan da bı dağın adı qalıb İlandağ. Yəni İnan dağ.

* * *

S. 7. Bir gün Yaycıda münəccimlər deyirlər ki, sizin qarğıdalıları qara qarğalar dağıdacax. Bunun bir yolu var, dağdan, Nuhun çeşməsinnən su gətirməh lazımdır. Onu qarğıdalılara səpin, heş nə olmaz. Suyu gətirip səpillər, heş zad olmur.

* * *

## GENNİ DAĞI

S. 7. Nuh peyğəmbərin gəmisi Genni boyunca gedirmiş. Nuh da "Necə də gen dağdı" deyip. O vaxtdan da dağın adı "Gen dağ, Genni" qalıp.

* * *

## I.2. ƏFSANƏLƏR VƏ RƏVAYƏTLƏR

### AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI. NAXÇIVAN FOLKLORU. I cild. Naxçıvan: Əcəmi, 2010, 512 s.

### NUHUN GƏMİSİ

S. 49. Qədim zamanlarda bir qarı yer üzünü su alacağını eşidir və Nuh peyğəmbərə yalvarır ki, onu da öz gəmisinə götürsün. Qarı bir balaca çörək bişirib özü ilə götürmək istəyir və təndirdə onu yuxu tutur. Su qarının təndirindən qalxır. Peyğəmbər bütün canlıların hamısından bir cüt gəmiyə alır. Gəmi qalxır, onun bir parçası İlandağa dəyərək düşür. Sonra bir xeyli irəlidə gəmi yenə başqa dağa çarpır və bir taxtası düşür. Sonra heyvanlardan ilan narahatçılıq edir. Peyğəmbər deyir, Allahın heyvanı, səni kor olasan, gecə başın ağrısın, gündüz dişin, sürüncəhli qalasan. Nuhun gəmisi yenir, quşların hamısı uçub gedir. Toyuq uça bilmir, soruşur mən niyə uça bilmədim, ya Allah?

Peyğəmbər cavabında deyir: - Nahaqdan danışdığına görə uça bilmədin.

* * *

### NUHUN TUFANI

S. 62-66. Deyilənə görə, Nuh Nəbi bilirmiş ki, tufan baş verəcək, dünyanın üzünü su alacaq. Odur ki, böyük bir gəmi düzəltmək qərarına gəldi. Günbatanda bir meşə var idi. Gün arxasına keçəndə kölgəsi günçıxanı tuturdu. Ağacların gövdəsinə qırx arşın ip - kəndir çatmazdı.

Meşədə Ac adlı bir pəhləvan yaşayırdı. Biləyində öküz zoru var idi. İş-peşəsi el-obanın ilxısına, naxırına zərər vurmağıydı. Hər öynədə bir öküz yeyir, üstündən üç tuluq su içib doymurdu.

Nuh Nəbi pəhləvanı yanına çağırdı.

- Sənə doyunca yemək verərəm - dedi. Günbatandakı meşədən bir xeyli ağac kəs.

Ac təəccüblə Nuhdan soruşdu:

- Kişi, sən məni necə doyduracaqsan? Bilirsən ki, mən nə qədər yesəm də, elə acam.

Nuh Nəbi dedi:

- Səbr edib mən deyənə əməl etsən, mən deyən də olar. Ac razı-

laşdı. Nuh onun gücünə görə də balta düzəltdirdi.

Pəhləvan baltanı götürüb ac qurd kimi meşəyə girişdi. On gün bəs deyincə kəsib tökdü.

Nuh pəhləvana bir öküz kəsdi. Ətini qızardıb qabağına qoydular. Pəhləvan öküzün bir budunu yedi, üstündən də bir tuluq su içib geri çəkildi. Doymağına heyrət etdi. Nuh Nəbi dedi:

- Pəhləvan, bu halal zəhmətin qazancıdır. Onun üçün də doydun. Haram yemək səni doyurmaz.

Pəhləvan o gündən əvvəlki peşəsindən daşındı.

Nuh Nəbi sənətkarlıqda mahir olan yeddi nəfər usta çağırdı. Əvvəldən gəminin xərcini verib, razı saldı. Ustalar işə başladı. Bir aydan sonra gəmi hazır oldu.

Bir gün Nuhun arvadı sıfra açıb, xəmir yoğururdu. Durub təndirə od salmaq istədi, duvağı qaldıranda quruyub qaldı. Təndir yarıya kimi suyla dolmuşdu. Arvad gedib əhvalatı ərinə söylədi.

Nuh dedi:

Get, sıfra – xəmiri yığışdır. Tez ol, dünyanın üzünü su alacaq. Yol tədarükündə ol. Üç aylıq azuqə götür.

Arvat tədarük gördü. Azuqəni gəmiyə yığdılar. Nuh öz ailəsini, əlavə də hər heyvandan, quşdan bir cüt götürüb gəmiyə mindi. Oğlanlarından biri Nuhu eşitmədi. Dedi:

- Mən uca dağın başına çıxacam.

Nuh gəmidən yenib düşdü oğlunun dalına. Gördü oğlu ona itaət etmir. Qayıtdı mindi gəmiyə.

Qırx gün, qırx gecə yağış yağdı. Bir yağış ki, tut ucundan çıx göyə. Su qalxdı, dünyanın üzünü almağa başladı. Gəmi də suyun üzünə qalxdı. Uca dağlar görünməz oldu. Axırı – sonu görünməyən bir dərya yarandı. Nə qədər canlı vardısa tələf oldu.

Gəmi Məğribdən Məşriğə üz qoydu. Günlər, həftələr dolandı. Gəmi bir gün nəyəsə toxunub keçdi. Gövdəsi bərk yırğalandı. Nuh Nəbi bildi ki, gəmi dağa toxundu.

- Pəh, nə ağır dağdı! - dedi. Başından heç qarın əksik olmasın. Odu-budu, dağın adı "Ağrıdağ" qaldı. Başından da qar əskik olmadı.

Bir həftə də keçdi. Gəmi yenə silkələndi. Nuh Nəbi gəmidəkilərə:

- Bu da inan dağdı - dedi.

Bu dağın da adı "İnan dağ" oldu. Zirvəsi də zərbədən iki yerə haçalandı.

Gəmi səfərə davam etdi. Bir az getmişdilər ki, təkrar silkələndi. Nuh gəmidəkilərdən soruşdu:

- Bu dağ o dağdan kəm deyil?!

Dağın adına "Kəmki" dedilər. Gəmi burdan aralandı. Tufan da yavaşıdı.

Bir gün bir siçan gəmini deşdi. Su gəmiyə dolmağa başladı. Nuh Nəbi gördü ki, gəmi qərq olacaq. Üz tutdu gəmidəkilərə ki, kimin imkanı var əlac eləsin.

İlan dedi:

Mən eləsəm, nə verərsən? Nuh Nəbi dedi:

Nə istəyirsən? Dedi:

Dünyada şirin nədisə onu. Nuh Nəbi razı oldu.

İlan quyruğuyla deşiyi tutdu. Qıvrılıb yatdı.

Gəmi bir qayaya yan alıb ehmalca toxundu. Nuh buna "Gəmiqaya" adı verdi. Gəmidəkilər quruya çıxdılar. Tufandan sonra bir gün Nuh Mozalana dedi:

Get, fırlan, gör dünyada şirin şey nədir?

Mozalan havaya qalxdı. Hər otun, çiçəyin, canlının üstünə qondu. Hər şeydən daddı. Şirin olan bir şey tapmadı. Fikirləşdi ki, dünyada dadmadığı daha nə qaldı. Yadına düşdü ki, bir insan ətindən dadmayıb.

Mozalan bir dağa uçdu. Şirin yatmış bir ovçu gördü. Əlinin kəfəsinə yapışıb, ətindən daddı. Gördü ki, şirindi. Geri qayıtdı.

Qaranquşa dedilər ki, get gör, Mozalan niyə gecikdi. Qaranquş Mozalan gedən tərəfə uçdu. Yolda rastlaşdılar. Qaranquş soruşdu:

Dünyada nə şirindi? Mozalan dedi:

İnsan əti.

Qaranquş fikirləşdi ki, bu ixtiyar ilana verilsə, dünyada insan qalmaz. İstədi Mozalanı dilə tutsun ki, bu sirri açma. Amma fikrindən daşındı. Dedi ki, birdən bunun faydası olmaz. Odur ki, hiylə işlətdi. Dedi:

- Gətir dilini dadım, görüm şirindi? Şirin olmasa ilan səni çalar. Qaranquş Mozalanı aldatdı. Mozalan dilini ona uzatdı. Qaranquş onun dilini kökündən qopartdı, qabaqda qaçdı. Gəlib dedi ki, Mozalan gəlir. Mozalan gəlib Nuhun qabağında yerə düşdü. Başladı fırlanıb mızıldamağa. Heç nə anlamadılar. Dedilər:

"Yorulub, ya da dilin şəkər tutub".

Nuh Nəbi qaranquşdan soruşdu:

- Yolda sən görəndə dili var idi? Qaranquş cavab verdi:

- Var idi. Dedi ki, dünyada torpaq şirindi. Nuh Nəbi ilana dedi:

- Torpağı verdim sənə.

İlan qaranquşun hiyləsini duydu. Atılıb onu tutmaq istədi. Qaranquş uçanda quyruğu keçdi ağzına. Lələyinin ikisini çəkib qopartdı.

O vaxtdan qaranquş haçaquyruq qaldı, xeyir xəbər müjdəçisi oldu. Mozalan lal olduğundan vızıldamağa başladı. İlan da torpaqda yaşadı, ondan qənaətlə istifadə etməyə başladı. Rəvayətə görə Nuh Nəbi də oğlanlarıyla Naxçıvanda məskən saldı. Gəmisi də Ordubadın Nəsirvaz kəndi yaxınlığındakı Gəmiqayada qaldı.

* * *

## NUHDABAN

S. 71. Rəvayətə görə, Nuhun gəmisi Gəmiqayada quruya oturmuşdu. Oğlanları bir gün gördülər ki, uca dağlar od tutub yanır. Gəmi oturan dağ da tüstüsüz alova bürünüb. Özləri də od-alovun içindədilər. Qorxudan bilmədilər neyləsinlər. Haray-həşir salıb bağırdılar.

- Aman tanrı! Günahımız nədi ki, indiyədək tufanda qaldıq, indi də od-alova düşmüşük.

Amma bu qorxu çox çəkmədi, gördülər ki, od-alov onları yandırmır. Yaşıl çəmənə, gülə, çiçəyə də toxunmur.

- Bu nə sirrdir? - dedilər. - Dağ da yanar?

Onlar atalarının yanına gedib bu sirri soruşdular.

Nuh Nəbi dedi:

- Gördüyünüz elə belə od deyil. Sirli, möcüzəli oddur. Bu torpağın mayası oddan yoğrulub. Burda hər şey öz qidasını oddan-alovdan alır. Yanan dağların biri Gəmiqaya, biri İlandağ, biri Ağrı dağıdır. Bu arada yurd salın. Dediyim üç dağ sizə qüvvət, bərəkət verəcək. Bərkdə şərdən, yağıdan qoruyacaq.

Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı, ayağı torpağa gələndə pəncəsi yox, dabanı yerə dəydi. Oğulları həmin yerdə yurd saldılar, adına da "Nuhdabanı" dedilər.

* * *

## GÖYGÖL

S. 72-73. Rəvayətə görə bir çoban Göygölün ətrafındakı səfalı yaylaqda qoyun otarırmış. Sürüdəki qoyunların qoça gələn vaxtıymış. Amma çobanın qoçu yoxuymuş. Odur ki, Allahdan arzu edir ki, ona qoç yetirsin, qoyunları qısır qalmasın. Qarşıdan gələn il yaylağa gələndə gölün kənarında bir qurban kəssin. Bir az keçmir ki, yer, göy titrəyir. Göygöl bərk təlatümə gəlir. Göldən bir ağ, bir qara qoç çıxıb sürüyə qarışır. Az keçir, qoçlar qayıdıb suya girirlər. Çobanın sevinci yerə - göyə sığmır.

Vaxt gəlib çatanda sürüdəki qoyunların hamısı quzulayır. Heyvanların sayı birə-iki çoxalır. İl dolanır, yenə yaylaq vaxtı çatır. Çoban quzuları da analarının yanında sərin Göygöl yaylağına gətirir.

Bəli, bir gün sürü çəmənliyə yayılıb şirin-şirin otlayırdı. Çoban da həvəslə gah sürüyə, gah da Göygölə tamaşa edirdi. Birdən yadına düşdü ki, keçən ilki vədinə görə gölün kənarında qurban kəsməlidir.

Çoban sürüdəki heyvanlarına qıymadı. Yerdən bir həşərat tutub öldürüb dedi ki, bu da buranın qurbanı. Çoban bunu demişdi ki, yenə yer-göy titrədi. Göygöl təlatümə gəldi. Keçən ilki qoçlar göldən çıxdı. Bir göz qırpımında sürünü döşləyib gölə tökdü.

Çoban başına döyə-döyə qaldı. Dediyinə peşman oldu. İtini yanına salıb gölün qırağına gəldi, heç nə görmədi.

Deyilənə görə, çobanla iti o qədər durub baxdılar ki, şəkilləri həmişəlik düşüb suda qaldı.

* * *

## İLANDAĞ

S. 74. Rəvayətə görə, dünyada iki ilanlar padşahı varmış. Bunlardan biri Naxçıvanın Əlincə çayındakı İlandağda, biri də İranın Diri dağında imiş. İlanlar padşahlarının böyük mülkü, tükənməz xəzinələri varmış. Ancaq bu mülk, xəzinə İrandakı ilanlar padşahına az görünürmüş. Tamah güc gəlib onu qonşu malına şirnikdirirmiş.

Bir gün İrandakı ilanlar padşahı güclü qoşunla Araz çayını keçib İlandağa hücum edir. Ölüm - dirim vuruşması başlanır. Onlar bir-birini didib dağıdır, boğub öldürürmüşlər. İlanların qanı dərələrdə selə dönür,

Əlincə çayıyla Araz çayına qarışır, suları qızardır.

İlandağdakı ilanlar sayca çox olan düşmənə qarşı mərdliklə vuruşub, yeddi gün, yeddi gecə çəkən qanlı döyüşdə qalib gəlirlər. Onlar düşməni sıxışdırıb, qovurlar.

Deyilənə görə, ilanların qanlarının qızartısı indi də İlandağının qayalarında, bir də yanındakı təpələrdə görsənir.

* * *

## AĞRI DAĞ

S. 77-78. Deyirlər ki, qədim zamanlarda yer üzündə iki dev varmış. Bu devlərin biri Məğribdə, o birisi Məşriqdə yaşayırmış. Bunlar qolda-qüvvətdə bir-birindən geri qalmazmış. Hər ikisi öz igidliyindən dəm vurub "mənəm-mənəm" deyərmiş.

Onlar bir-birinin haqqında çox eşidibmiş, amma heç vaxt görüşməyibləmiş. "İki qoçun başı bir qazanda qaynamaz!" - deyib, Naxçıvanda görüşmək qərarına gəlirlər.

Uzun səfərdən sonra onlar Naxçıvanda üz-üzə durub vuruşmağa başlayırlar. Vuruşları çox çəkir. Heç biri üstün gələmmir. Bu minvalnan xeyli vuruşurlar, di gəl bir şey çıxmır.

Devlər qurşaq tuturlar, genə bir-birini yıxammırlar. Axırda toppuz vuruşuna keçirlər. Sən demə, bu devlərdən biri qadınmış, o biri kişi. Amma bu məsələdən kişi devin xəbəri yoxuymuş. Toppuz vuruşu da çox bərk gedir. Birinci, ikinci vuruşda toppuzlar göydə toqquşur. Üçüncü vuruşda toppuzu bir-birinin başına endirə bilirlər. Qadın devin toppuzu kişi devin başın haçalayır, kişi devi toppuzu da nə təhər bərk dəyirsə, qadın dev uşaq salmalı olur. Həm də zərbələrini bərk vurduqlarından bir-birindən aralı düşürlər. Kişi dev öz əməlindən peşman olur, yaralı-yaralı başını qaldırır ki, qadın devi görsün, amma qadın dev çox aralı düşmüşmüş.

Devlərin vuruşu göylərə xoş getmir. Hər iki devi tanrı daşa döndərir. Üstündən xeyli keçəndən sonra devlər iki dağa dönüb aralıdan bir-birinə baxırlar.

O vaxtdan kişi dev "Haça dağ", qadın dev isə "Ağrı dağ" adıyla tanınır. Ağrı dağın yanında balası da var.

## AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI. NAXÇIVAN FOLKLORU. II cild. Naxçıvan: Əcəmi, 2011, 496 s.

### KƏMKİ DAĞI

S. 36. Nuhun gəmisi keçdiyi yerdən xeyli aralıda yenə də çətinniyə düşür. Nuh deyir:

- Bu dağ, o dağdan kəm deyil.

Dağın adı "Kəmki" olur.

* * *

### DİRİDAĞ

S. 36. Nazan nənə addı bir qarı sacda çörəh bişirirmiş. Nəvəsi də yanındaymış. Birdən dünyanın üzünü su alır. Qarı qalır suyun altında. Nəvəsi qaçıb çıxır bir dağın başına. Nuhun gəmisi gəlir, uşağı dağın başınnan sağ-salamat götürüb gedir. O vaxtdan o dağa Diridağ deyillər. Nazan nənənin çörəh bişirdiyi yer ocaxdır.

* * *

### BƏLKƏ DAĞI

S. 36. Nuh gəmisi ilə dağların arasınnan keçəndə, gəlib dəyillər bu dağa. Nuh qayıdıb deyir:

- Bəlkə dağdır.

O günnən bu dağın da adı "Bəlkə dağı" olur. Bu dağ Ordubad rayonundadır

* * *

## AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI. NAXÇIVAN FOLKLORU. III cild. Naxçıvan: Əcəmi, 2012, 560 s.

### Peyğəmbərin dediyi

S. 47. O vəx ki, dünyanı su basır. Nuh peyqumbər bütün cannılardan hərəsinnən iki-iki qoyub gəmisinə. Su qalxdıxca gəmi də qalxıb. Gəmi gedəndə dayanıb dağa. Nuh deyib:

- Bəlkə də dağdı.

Keçib gedip Əcnövürə tərəf. O dağın da adın qoyup Əcnövür. Əcnövür Ordubadın dağıdı. Kəmki, Bəlkə, Əcnövür addarın dağlara Nuh qoyupdu.

* * *

**LƏTİF HÜSEYNZADƏ. NƏXCİR ƏFSANƏSİ. Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 1999, №5, s. 139-140**

S. 139. Zalım hökmdar "Dağyunus"un "Ölən şəhər" adlanan şəhəri və Nuhun Əbu -Türk (Türkün atası) adlanan oğlu Yafəsin adı ilə bağlı Yafs şəhərinin xarabaları Naxçıvan şəhəri yaxınlığındadır. Hətta əfsanə və rəvayətlərə görə adı Allah tərəfindən verilmiş və bütün türk qövmlərinin şərəfli adı olan Yafəsin Türk adlı oğlu Naxçıvanda doğulmuşdur.

* * *

**HACI QADİR QƏDİRZADƏ. NUH PEYĞƏMBƏR DÜNYA TUFANI VƏ NAXÇIVAN. Qızıl dağ, 2008, 192 s.**

S. 178. Göygöl və Qazangöl Nuh Tufanı zamanı yaranmışlar. Sular çox yüksəklərə qalxmış dağların da başını örtmüşdür. Tufan yatdıqdan sonra dağın başında bir-birinə yaxın iki göl yaranmışdır - Göygöl, Qazangöl. Xalq arasında hər iki göl Nuh peyğəmbərin dövründən qalmaqla müqəddəs sayılır. Lakin Göygöl daha müqəddəs hesab edilir. Deyirlər ki, onun ortasındakı ada Nuh peyğəmbərin gəmisinin qalığıdır. Müqəddəs olduğu üçün göldəki su onun başına dolanır. Şahidlərin verdiyi məlumata görə gölə atılmış yüngül bir əşya, daha çox alma adanın başına dolanıb bir müddət keçəndən sonra atılan yerə qayıdır. Ona görə almaya üstünlük verilir ki, onu uğurlu hesab edirlər. Kiminsə arzusu, istəyi olarsa, gətirib gölə alma atır və gözləyir, əgər alma dolanıb yenidən atıldığı yerə qayıdırsa, deməli, istək yerinə yetəcəkdir.

* * *

S. 179-180. Nuh peyğəmbərin bir qızı varmış. Qız həddi-buluğa çatdıqdan sonra eyni gündə buna üç yerdən elçi gəlir. Elçilər özgə məmləkətdən imişlər. Gələnləri boş qaytarmayan peyğəmbər onların üçünə də söz verir. Elçilər getdikdən sonra arvadı deyir ki, ya Rəsu-

lullah, bu necə olacaq sən elçilərin üçünə də söz verdin? Nuh (ə.s.) çox pis vəziyyətdə qalır. Əl götürüb, Allaha yalvarır ki, ya Rəbbim, sən mənə kömək ol, mən elçilərin heç birinə yox deyə bilmədim. İndi isə qalmışam çıxılmaz vəziyyətdə! Bu vaxt qeybdən səs gəlir ki, ya Nuh darıxma, sənin həyətindəki iti və tövləndəki eşşəyi də qız edəcəm. Onlar qızınla tam eyni olacaqlar. Beləliklə, Allahın hökmü ilə it və eşşək qıza çevrilir. O dərəcədə oxşar olurlar ki, Peyğəmbərin özü də onları ayırd edə bilmir. Qızlar ərə getdikdən sonra Nuhun arvadı ona deyir ki, ya Nuh, get gör qızımız necədir. Lakin onlar çox böyük çətinliklə qarşılaşmışdılar. Əsil qızlarını tapmaq müşkül məsələ idi.

Rəvayətə görə Nuh (ə.s.) hazırlıq görüb qızının ərdə olduğu yerə gəlir. Soraqlaşıb onların harada yaşadıqlarını öyrənir. Gedir qızının evinə, kürəkəni onu çox yaxşı qarşılayır, arvadını çağırıb deyir ki, atan gəlib. Qız danışa-danışa çıxır həyətə, ərinə deyir ki, gəlib gəlsin də, nə edim. Peyğəmbər baxır ki, nə deyirlər qızı dil qaytarır, ətrafdakıları acılayır, hər şeyə danışır. Bilir ki, bu həyətdəki itidir.

Bir az oturub gedir o birisi qızlarını yoluxmağa. Gəlib digər qızının evini tapır. Yenə kürəkəni qabağına çıxır. Xoş gəldin edib Peyğəmbəri evə aparır. Arvadını çağırıb deyir ki, atan gəlib. Arvad çox ləng tərpənərək qarşıya çıxmır. Əri hirslənir. Peyğəmbər başa düşür ki, bu da tövləsindəki eşşəyidir.

Bir az oturduqdan sonra Peyğəmbər getmək istədiyini bildirir. Qadın çox saymazlıq edərək ayağa qalxmır. Bundan sonra Peyğəmbər üçüncü qızın evinə gəlir. Baxır ki, qızı həyətdədir. Səlqə-səhman yaradır. Atasını görən kimi qaçır qabağına, evə keçirib xidmət etməyə başlayır. Bu vaxt kürəkəni gəlir. Peyğəmbər düşünür ki, bu mənim öz qızımdır. Amma yoxlayım görək kürəkənim ondan razıdırmı. Keçib otururlar. Kürəkən arvadını çağırıb deyir ki, get zirzəmidən qarpız gətir, kəsək. Qız çıxıb gedir. Əlində bir qarpız gəlir. Kürəkən deyir ki, bu qarpız pisdir, apar dəyiş. Bu vəziyyət yeddi dəfə təkrarlanır. Nuh (ə.s.) kürəkənindən soruşur ki, qızdan razıdırmı? Kürəkən cavab verir ki, ya Rəsulullah mən ondan çox razıyam. Allah da ondan razı olsun. Bizim evimizdə cəmi bir qarpız vardı. Mən onu yeddi dəfə qaytardım. O isə hər dəfə eyni qarpızı gətirdi və heç nə demədi. Hər şey peyğəmbərə tam aydın olur.

* * *

## HACI QADİR QƏDİRZADƏ. NAXÇIVAN: NUH BABA VƏ TÜRK ATADAN GƏLƏN YOL (rəvayətlər, baxışlar, tarixi həqiqətlər). Naxçıvan: Əcəmi, 2011, 192 s.

S. 17. Həzrəti Nuhun gəmiyə ilk götürdüyü heyvan siçan olmuşdur. Bundan sonra gəmiyə ardıcıl olaraq öküz, pələng, balıq, ilan, at, qoyun, meymun, quş (toyuq, xoruz), it və qaban mindirilir. Nuh peyğəmbər bildirir ki, gələcəkdə illər bu heyvanların xüsusiyyətlərinə uyğun olmaqla 12 ildən bir dəyişəcəkdir. Beləliklə, tarixdə türklərlə bağlanan və 12 heyvana əsaslanan təqvim yaranmışdır.

* * *

S. 23. Tufandan sonra sular tədricən çəkilməyə başlamış, ərazinin dağlıq hissələri sulardan qurtarsa da nisbətən aşağı zonalarda torpaq hələ də tam qurumamışdır. Belə bir vəziyyətdə peyğəmbər (Nuh peyğəmbər – tərtibçi) bu qaya ilə hərəkət etməli olmuşdur. Ayağını qoyduğu yerdə yerimək asanlaşsın deyə qaya yumşalmış, onun ayaq izləri (127 ədəd) orada qalmışdır (hazırda ziyarət olunan bu məqam Culfa rayonunun Kırna kəndinin cənub tərəfində yerləşən Gen dərənin sağında – şimal tərəfində bir yüksəklikdədir – tərtibçi).

* * *

S. 25. Rəvayətə görə suların tamamilə qurumadığı bir zaman peyğəmbər (Nuh peyğəmbər – tərtibçi) qarşıdakı təpəyə, üç oğlu (Ham, Sam, Yafəs – tərtibçi) isə indi "Üç qardaş" adlanan yerə çıxırlar. Hər tərəfdə külək, yer tam qurumamış, ətrafda dəhşətli təbiət hadisələri baş verir. "Nuhdaban" rəvayətində deyildiyi kimi, dağlar alov püskürür. Qorxuya düşmüş üç qardaş yaxınlıqdakı böyük qayaya söykənirlər. Qaya onları qoruyur və Allahın hökmü ilə onların formasını alır. Beləliklə, yan-yana dayanmış, üç insana bənzəyən, Peyğəmbər oğlanlarının söykəndikləri həmin qaya sonrakı dövrlərdə insanların inam yerinə çevrilir ("Peyğəmbər ayağı"ndan şərqdə, Gen dərənin baş tərəfində yerləşən bu məqam el arasında "Üç qardaş" piri adı ilə tanınır – tərtibçi).

* * *

**XALQ YADDAŞININ İZLƏRİ (Miflər, əfsanələr, nağıllar...) Folklor toplusu. Toplayan və nəşrə hazırlayan MƏHSƏTİ İSMAYIL. Bakı: "Elm", 2005, 144 s.**

S. 36. Bir nəfər gəlir. Deyir, ya Nuh, nə gəzirsən? Deyir ki, Allahdan mana belə bir əmr olub, amma mən bilmirəm gəmini harda qayırtdırım, kimə qayırtdırım. Ərz elədi ki, get çıx o təpiyə onun dalında bir şəxs var, ona Ucubılıx deyillər. Gedərsən o sənə sər-subut eliyər. Gəlib qayırarsan. Nuh peyğəmbər gəmini qayırdı. Allahdan nida gəldi ki, hər nəsildən bir dənə maldan, heyvandan götür, yığ gəmiyə, sal dəriyya. Dünyanı qərq eliyəcəm. O məslahatı verənsə cənab Əmirimiş.

* * *

## NUHUN GƏMİSİ

S. 38. Allah-tala Nuha tapşırır ki, yer üzünü su alacaq, sən get gəmi bağla. Gəmi bağla, hər heyvandan bir erkək bir dişi yığ gəmiyə çıxsın suyun üzünə. Dünyanın üzünü su alandan sonra nəsil kəsilməsin. Nuh gedir meşədə ağacları doğruyur, taxta çəkir. Taxtanı çəkəndə taxtanın biri göy yazılı, biri qırmızı yazılı taxta çıxır. Der ki, orda oxuyur İmam Hüseyn şəhid olacaq, qanına boyanacaq, göy yazı da İmam Həsən zəhrinən öləcək. Orda imamlarımıza birinci Nuh peyqumbər ağlıyır.

* * *

S. 38-39. 300 il ömür eliyib Nuh peyğəmbər. Ömrü sona yaxınnaşanda deyiblər ki, ya peyğəmbər, bı dünyanın nəyinnən razı qaldın? Deyir:

- Onnan razı qaldım ki, elə yaxşı da olsa gün gəldi axşam oldu, pis oldusa da gün gəldi getdi.

Bir də deyillər ki, bir dəyə tihmişimiş yanı yerdən yarma o vaxtı da adamlar belə yekə-yekə olurmuş. İndi insannar cırlaşıb, xırdalıb. Hələ belə də deyillər ki, millət o qədər cırlaşacaq ki, dəvənin kölgəsində yatacaq. Deyiblər ki, ya peyğəmbər, bı 300 il ömr elədin, niyə

öza geniş yer tihmədin?

Der:

- Bilsəydim 300 il yox, 900 il yaşıyacam, innən belə 1000 il yaşıyacam, axırı ölüm olacaq, mən heş bı dəyəni də tihməzdim.

* * *

**EL SÖZÜ, YURD YADDAŞI. Folklor toplusu. Toplayıb tərtib edəni və çapa hazırlayanı MƏHSƏTİ RÜSTƏM qızı İSMAYIL. Bakı: "Elm", 2010, 168 s.**

S. 36. Nuh meymuna der ki, dünyanın üzün su alacax. Sən qalassan suyun içində, yaxşısı bıdı min gəmiyə. Bı da deyip ki, getmirəm, istəmirəm. İki-üç balası varımış. Elə ki su qalxır. Meymun görür ki, boğulur, balaların qoyur ayağın altına özün qaldırır ki, boğulmasın. O vaxtdan bı söz qalıbdı ki, su meymunun boğazına çatanda balasın qoyar ayağının altına.

* * *

**TÜRKAN QƏDİRZADƏ. GƏMİQAYA TƏSVİRLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ ETNOQRAFİK MATERİALLARIN ƏHƏMİYYƏTİ. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 97-101**

S. 97-98. Xalq arasında olan rəvayətə görə hər kəs yolunu azmış, insanlar arasında küfr hökm sürürmüş, insanları cəzalandırmaq üçün Allah-Taala bəşəriyyətin ikinci atası olan Nuh (ə.s) peyğəmbəri Dünya Tufanının olacağından insanları xəbərdar etməyi və böyük bir gəmi düzəltməyi əmr edir. Həmin ərazidə Acqulu adlı nəhəng bir adam var imiş, əlinə keçəni yeyirmiş amma doymurmuş. Nuh (ə.s) peyğəmbər gəminin düzəldilməsi üçün Acquluya meşədən odun gətirməyi tapşırır. Nuh (ə.s) peyğəmbər qarşılığında Acquluya deyir ki, sən yemək yemədən əvvəl "Bisimillah" desən o zaman doyarsan. Doğrudan da o yeməkdən əvvəl "Bisimillah" deyir və həmin vaxtdan Acqulu bir az yedikdən sonra doyurmuş. Nuh (ə.s) peyğəmbər bir müddət keçdikdən sonra gəmini hazırlayıb qurtarır. Rəvayətə görə gə-

minin hazırlanması üçün qoz, palıd və şam ağaclarından və qətrandan istifadə olunmuşdur. Gəminin hazırlanmasına baxmayaraq bir müddət yer üzünə yağış yağmır. Nankor insanlar Nuh (ə.s) peyğəmbərə Dünya Tufanı nə zaman olacaq deyə öz aralarında gülürmüşlər. Boş qalan gəmini murdarlayır, içini əllərinə keçən zibillə doldururlar. Çox keçmədən həmin ərazidə kütləvi yoluxucu xəstəlik yayılır, nə edirlərsə ondan qurtara bilmirlər. Bir gün yenə gəmiyə natəmiz şeylər atmağa gedən bir nəfər yıxılır və bədəni orada olan zibilə bulaşır. Sonra həmin adam xəstəlikdən qurtarır. Bunu eşidən digər insanlar da sağalmaları üçün gəmiyə atdıqları zibilləri götürüb bədənlərinə sürtürlər. Bütün bunların heç biri təsadüfən olmayıb. Allah-Taala o qədər böyük gəmini Nuh (ə.s) peyğəmbərin təmizləməməsi üçün özləri bir zamanlar zibil deyə atdıqlarını dərman kimi istifadə etməyi məsləhət görmüş və insanlara böyük bir bəla göndərmişdir. Bundan sonra insanlar yenə də Nuh (ə.s) peyğəmbərə qarşı nankorluq edərək yağış yağmayan bir ərazidə Dünya Tufanı olacağından şübhə edirmişlər. Yağış yağmağa başladıqdan sonra Allah-Taalanın hökmü ilə hər heyvandan bir cüt (erkək-dişi) gəmiyə yığışır, yağış 40 gün 40 gecə davam. edir. Gəmi ilk olaraq Türkiyə ərazisində olan Ağrı dağa, İran ərazisində olan Kəmki dağa, Naxçıvan ərazisində olan İlanlı dağa, son olaraq isə Gəmiqaya (Qapıcıq) dağına toxunmuşdur. Heç təsadüfi deyil ki, xalq buranı Gəmiqaya adlandırıb. İnama görə gəmi Naxçıvan ərazisində 6 dəfə fırlanıb burada dayanmış və daşlaşmışdır.

* * *

S. 98. Yağış yağmağa başladıqdan sonra Allah Taalanın hökmü ilə hər heyvandan bir cüt (erkək, dişi) gəmiyə yığışır, yağış 40 gün 40 gecə davam edir. Xalq arasında olan inama görə gəmi ilk olaraq Türkiyə ərazisindəki Ağrı dağa, İran ərazisindəki Kəmki dağa, Naxçıvan ərazisində olan İlanlı dağa, son olaraq isə Gəmiqaya (Qapıcıq) dağına toxunmuşdur. Heç təsadüfi deyil ki, xalq buranı Gəmiqaya adlandırıb. İnama görə gəmi Naxçıvan ərazisində 6 dəfə fırlanıb burada dayanmış və daşlaşmışdır.

* * *

S. 99. Göy göl və onun ortasında olan daşla bağlı maraqlı inamlar

vardır. Bu daş "Çoban daşı" adlandırılır və niyyət üçün də istifadə edilir. Bu məqsədlə almanı suya atırlar həmin alma daşın ətrafında bir dəfə fırlanıb gəlib atan adamın bərabərindən keçərsə niyyət qəbul olmuş hesab olunur.

* * *

S. 99. Göy göl haqqında olan digər bir rəvayətə əsasən gölün ortasında olan daş deyil, Nuh (ə.s) peyğəmbərin düzəltdiyi gəminin qalıqlarıdır. Ona görə müqəddəs sayılır. İndi də onun daş və ya taxta olduğu haqqında heç bir məlumat yoxdur. Xalq arasında belə bir inam vardır ki, indiyə qədər heç kim ona toxunmamışdır.

* * *

**TÜRKAN QƏDİRZADƏ. GİLANÇAY HÖVZƏSİNDƏ NUH PEYĞƏMBƏR VƏ DÜNYA TUFANI İLƏ BAĞLI RƏVAYƏTLƏR, İNAMLAR (Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. 24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2010, s. 127-132**

S. 130. Rəvayətə görə, tufandan əvvəl Nuh (ə.s.) gəmiyə 2 erkək, bir dişi camış götürmüşdür. Bunun səbəbini soruşduqda Nuh (ə.s.) sağ-salamat qurtardıqdan sonra camışı qurban verəcəyini söyləyir. Tufan dayandıqdan sonra quruya çıxdıqda böyük bir bəladan sağ-salamat qurtaran Nuh (ə.s.) həmin camışı qurban kəsir. Elə həmin vaxtdan ora Camışölən (Camışın kəsildiyi yer – tərtibçi) adlanır.

* * *

S. 130. Deyirlər ki, tufandan sonra Nuh peyğəmbərin qızları və gəlinləri ilk olaraq həmin əraziyə (Gəmiqayadakı Qız-gəlin çuxuruna – tərtibçi) ayaq basmışlar. Xalq arasında Qız-gəlin çuxuru müqəddəs hesab olunur. Yaxın keçmişə qədər ilin isti vaxtlarında niyyəti olan qız-gəlinlər həmin yeri ziyarət edərmişlər.

* * *

**ƏLƏSGƏR NEHRƏMLİ. NEHRƏM (tarixi oçerk və poema). Naxçıvan: Qızıldağ, 2009, 112 s.**

S. 4-6. Nuhun gəmisi Zəngəzurun və Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıqdan Naxçıvan çuxuruna daxil olur. Bu yeri Nuh "Qapıcıq" adlandırır.

Gəmi Ağrı dağında ilişir və gəmidəkilərin böyük səyi və zəhməti nəticəsində dağdan qurtulub aralanır. Nuh bu dağı ağır və ağrılı zəhmətlə keçdikləri üçün "Ağrı dağı" adlandırır. Naxçıvan ərazisində suyun yenməsi ilə əlaqədar Arazın o tayında yüksələn dağa ilişən gəmi burdan da qurtarır. Nuh bu dağın Ağrıdan bir az kəm olduğunu deyir və bu dağa "Kəmki" adını verir.

Şimala doğru hərəkət edən gəmi dağa sürtünə-sürtünə çətinliklə gedir. Nuh bu dağı "Dar dağ" (Darı dağı) adlandırır. Sonra İlanlı dağa ilişən gəmi onun baş hissəsini uçurur və tez keçir, Nuh əvvəlcə bu dağa "inan ki, dağdı" deyir, ancaq suyun yenməsi ilə əlaqədar üzə çıxan dağa çoxlu ilan yığışdığına görə bu dağa "İnan dağ" adı ilə yanaşı "İlanlı dağ" da deyilir.

Nəhayət gəmi quruya oturur və bu yerə "Gəmiqaya" adı verilir.

## I.3. İNAMLAR

**AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI. NAXÇIVAN FOLKLORU. III cild. Naxçıvan: Əcəmi, 2012, 560 s.**

S. 31. İnama görə Nuha Allah (c.c) yeddi toxum göndərib. Nuh (ə) onnarı əkibdi. İllər sonra böyük meşə əmələ gəlib. Nuh (ə) o ağacları qırıb gəmi düzəldib.

* * *

## I.4. BAYATILAR

**AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI. NAXÇIVAN FOLKLORU. I cild. Naxçıvan: Əcəmi, 2010, 512 s.**

S. 373-374. Nuh adına məkan var,
Ayağından çəkən var.
Düşmən istər dağıda,
Haqdan onu tikən var.

Burda yatan Nuhudu,
Nişanəsi çoxudu
Bunu yazan kişilər,
Bəlkə gəldi oxudu

* * *

**ƏSGƏR QƏDİMOV. Ədəbi qaynaqlarda Naxçıvan. Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı, 1996, s. 187-197**

S. 188. Əzizim ozan ağlar,
Daşları yazan ağlar.
Burda Nuhum ölübdür,
Qəbrini qazan ağlar.

* * *

## I.5. TƏRTİBÇİNİN TOPLADIĞI MATERİALLAR

Vaxtilə Naxçıvan şəhəri ilə Əshabi-Kəhf ziyarətgahı arasında bir şəhər varmış. Bu şəhər dünya daşqınından sonra burada məskunlaşan Nuh peyğəmbərin oğlu Yafəs tərəfindən salınıbmış. Buna görə də şəhər onun adı ilə Yafəsus (yerli əhali tərəfindən Əfsus da deyilir) adlanırmış. Bu şəhərdə dağ Yunus adlı zalım bir adam hökmdarlıq edirmiş. Dağ Yunus özünü Allah elan etdiyi üçün təkallahlığa sitayiş edən 6 gənc onun zülmünə dözməyərək gecə ikən şəhəri tərk etmiş, qaçmışlar. Yolda onlara bir çoban və Qıtmir adlı iti də qoşulmuşdur. Qaçqınlar indi əhali arasında Əshabi-Kəhf kimi tanınan mağaraya sığınmış və orada Allahın iradəsi ilə 300 (üstəgəl 9) il yatmış, oyandıqdan sonra qeybə çəkilmişlər (Məlumat tərtibçi tərəfindən 104 il ömür sürmüş filologiya elmləri namizədi, Prezident təqaüdçüsü, İstiqlal ordenli Lətif Hüseynzadədən alınmışdır).

* * *

Nuh peyğəmbər ondan sonra ümmətinin aqibətinin necə olacağından narahat idi. Ona görə də Allahdan ona vəhy gəlir ki, ey Nuh, ümmətin sarıdan narahat olma. Mən sənə elə bir övlad verəcəyəm ki, ondan törəyənlər hər yerə yayılacaqlar və dünyaya hökm edəcəklər. Bundan sonra Nuhun bir oğlu olur. Nuh peyğəmbər oğlanın adını Türk qoyur. Həqiqətən Türkün törəmələri dünyanın hər yerinə yayılırlar və geniş ərazilərə hökmranlıq edən imperiyalar yaradırlar (Məlumat tərtibçi tərəfindən 104 il ömür sürmüş filologiya elmləri namizədi, Prezident təqaüdçüsü, İstiqlal ordenli Lətif Hüseynzadədən alınmışdır).

* * *

Mən aşiq İlanlı dağ,
Dillərdə Elanlı dağ.
Yer üzü suya daldı,
Nuh səndən güc aldı, dağ.

(Bayatı 2014-cü ildə polkovnik Mirqiyas Rüstəmovdan alınmışdır).

## I.6. NUH PEYĞƏMBƏR VƏ ÖVLADLARI İLƏ ƏLAQƏDAR YARANMIŞ YER-YURD ADLARI

Naxçıvan şəhəri
Nuhdaban yaşayış yeri
Nəhəcir kəndi
Nəsirvaz kəndi
Nehrəm kəndi
Nürgüt kəndi
Nuhgədik kəndi
Nuhun qəbri
Nuhun bacısının qəbri
Yafəsus (Əfsus) şəhəri

* * *

Ağrıdağ
Kəmki
Gəmiqaya
Haça dağ
İnan dağ
İlanlı dağ
Qapıcıq zirvəsi
Dava daşı
Peyğəmbər ayağı qayası
Üç qardaş piri
Qazangöl dağı
Nəhəcir dağı
Əcnövür dağı
Əlincə çayı
Əlincə dağı
Genni dağı
Diridağ
Ələngəz dağı
Bəlkə dağı
Darıdağ
Şişdağ
Toxluqaya

* * *

Nəbi yurdu
Xəzər obası
Baca bulağı
Göygöl
Qazangöl
Nuh yurdu
Ayı çuxuru
Camışölən
Qız-gəlin çuxuru

* * *

## I.7. NUH PEYĞƏMBƏRLƏ BAĞLI DEYİMLƏR

1. Nuh Nəbidən xəbər verir
2. Nuhdan qalma
3. Nuh əyyamı
4. Nuh dövrü
5. Nuh əyyamından qalma
6. Nuhdan qalma məsəldir
7. Nuh Nəbini taxtda görüb, Süleymanı qundaqda
8. Elə nuh tökərəm yerlə göy qovuşar
9. Nuh deyir peyğəmbər demir

* * *

## I.8. NAXÇIVAN BÖLGƏSİNDƏ NUH PEYĞƏMBƏRLƏ BAĞLI RAST GƏLİNƏN ŞƏXS ADLARI

1. Nuh
2. Nuhbala
3. Nuhiddin
4. Nuhin
5. Nuhizər
6. Nuhməhəmməd
7. Nuhu
8. Nuhzad
9. Nuhəli
10. Nuhvəli

* * *

## II FƏSİL

## QURANİ-KƏRİMDƏ NUH PEYĞƏMBƏR HAQQINDA MƏLUMATLAR

**Qurani-Kərim məalı. Azərbaycan dilinə tərcümə edənlər: Z.M.BÜNYADOV, V.M.MƏMMƏDƏLİYEV, 2007, IX nəşr, 604 s.**

### 7. "ƏL-ƏRAF" surəsi

S. 57. 59. Biz Nuhu öz tayfasına (peyğəmbər) göndərdik. O dedi: "Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Mən (müsibəti) böyük günün (qiyamət gününün) sizə üz verəcək əzabından qorxuram!.

60. Tayfasının başçıları ona: "Biz səni (haqq yoldan) açıq-aydın azmış görürük! - deyə cavab verdilər.

61. (Nuh) dedi: "Mən (haqq yoldan) heç azmamışam, lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm!

62. Mən sizə Rəbbimin əmrlərini təbliğ edir və öyüd-nəsihət verirəm. Allahdan (gələn vəhy ilə) sizin bilmədiklərinizi bilirəm!

63. Yoxsa sizi (Allahın əzabı ilə) qorxutmaq, sizin də qorxmanız və (bunun nəticəsində) rəhm oluna bilinməniz üçün içərinizdən olan bir adam (peyğəmbər) vasitəsilə Rəbbinizdən sizə xəbərdarlıq gəlməsinə təəccüb edirsiniz?

64. Buna görə onlar (Nuhu) yalançı hesab etdilər. Biz də onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Ayələrimizi təkzib edənləri isə (tufan vaxtı) qərq etdik (suda boğduq). Onlar, həqiqətən, kor bir camaat idilər.

* * *

### 11. "HUD" surəsi

S. 223-226. 25. Həqiqətən, Biz Nuhu öz tayfasına peyğəmbər göndərdik. Nuh dedi: "Mən sizi (Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm!

26. Allahdan başqasına ibadət etməyin. Mən (cəzası) şiddətli (ağrılı-acılı) günün (qiyamət gününün) sizə üz verəcək əzabından qorxuram!

27. (Nuh) tayfasının kafir əyan-əşrafı dedilər: Biz səni ancaq özümüz kimi (adi) bir insan sayır, elə ilk baxışda yalnız içimizdəki səfillərin (cütçü, pinəçi, dəmirçi, dərzi və i. a.) sənə uyduğunu görürük. Və sizin bizdən (heç bir şeydə) üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik!

28. (Nuh) dedi: "Ey camaatım! Bir deyin görək. Əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə (möcüzəyə) istinad etsəm, Rəbbim mənə Özündən bir mərhəmət (peyğəmbərlik) bəxş etsə və o sizə gizli qalsa (sizin bəsirətsiz gözünüz onu görməyə qadir olmasa), istəmədiyiniz halda, biz sizi ona (iman gətirməyə) məcburmu edə bilərik?!

29. Ey camaatım! Mən peyğəmbərliyi təbliğ etməyə görə sizdən bir mal (mükafat) istəmirəm. Mənim mükafatım ancaq Allaha aiddir. Mən iman gətirənləri qovan deyiləm. Onlar (qiyamət günü) öz Rəbbi ilə qarşılaşacaqlar. Lakin mən sizi cahil bir tayfa görürəm!

30. Ey camaatım! Əgər mən onları qovsam (bu hərəkətimə görə) məni Allahın əzabından kim qurtara bilər? Məgər (səhv etdiyinizi) düşünmürsünüz?

31. Mən sizə demirəm ki, Allahın xəzinələri məndədir. Mən qeybi də bilmirəm. Mən demirəm ki, mələyəm. Mən eyni zamanda sizin xor baxdığınız kəslərə (iman gətirən yoxsullara) Allahın heç bir xeyir verməyəcəyini də demirəm. Onların ürəklərində olanı (hamıdan yaxşı) Allah bilir. (Əgər mən iman gətirənləri qovsam və bu sözləri desəm), onda, şübhəsiz ki, zalımlardan olaram!

32. Onlar dedilər: "Ey Nuh! Bizimlə çənə-boğaz olub çox mübahisə etdin. Əgər doğru danışanlardansansa, bizi təhdid etdiyin əzabı gətir görək!

33. (Nuh) belə cavab verdi: "Onu istəsə, ancaq Allah sizə gətirər və siz əsla Allahı aciz buraxa (Allahın əzabından qaçıb canınızı qurtara) bilməzsiniz.

34. Əgər Allah sizi (haqq yoldan) sapdırmaq (və ya məhv etmək) istəyirsə, mən sizə nəsihət vermək istəsəm də, heç bir faydası olmaz. O sizin Rəbbinizdir və siz Onun hüzuruna qaytarılacaqsınız!

35. Yoxsa (Məkkə müşrikləri): "O (Muhəmməd) onu (Qur'anı və ya Nuha dair xəbərləri) özündən uydurdu!- deyirlər. Onlara belə cavab ver: "Əgər mən onu özümdən uydururamsa, günahı mənim boynumadır. Mən isə sizin törətdiyiniz günahlardan uzağam!

36. Nuha belə vəhy olundu: "Əvvəlcə iman gətirənlərdən başqa, tayfandan daha heç kəs iman gətirməyəcək. Onların etdikləri əməllərə görə kədərlənmə! (Biz tezliklə onları məhv edər, səni kafirlərin zülmündən qurtararıq!)

37. Nəzarətimiz altında və vəhyimiz üzrə (sənə öyrədəcəyimiz kimi) gəmini düzəlt, zülm edənlər barədə mənə müraciət etmə (onların bağışlanmalarını Məndən xahiş etmə). Çünki onlar suya qərq ediləcəklər!

S. 225. 38. (Nuh) gəmini düzəldir, ümmətinin əyan-əşrafı isə yanından ötüb-keçdikcə onu məsxərəyə qoyurdular. (Nuh) onlara deyirdi: "Əgər (indi) siz bizi məsxərəyə qoyursunuzsa, biz də (Allahın əzabı gəldikdə) siz bizi məsxərəyə qoyduğunuz kimi məsxərəyə qoyacağıq.

39. Onda rüsvayedici əzabın kimə gələcəyini və kimin əbədi əzaba düçar olacağını biləcəksiniz!

40. Nəhayət, (onları məhv etmək barəsində) əmrimiz gəldiyi və təndir qaynadığı (təndirdən və ya yer üzündən, yaxud gəminin qazanından su qaynayıb daşdığı) zaman (Nuha) dedik: "Hər heyvandan biri erkək, biri dişi olmaqla bir cüt, həmçinin əleyhinə (ölümünə) əvvəlcədən hökm verilmiş şəxslər istisna olmaqla, qalan ailə üzvlərini və iman gətirənləri gəmiyə mindir! Əslində onunla birlikdə (tayfasından) çox az adam iman gətirmişdi.

41. Nuh dedi: "Gəmiyə minin! Onun (üzüb) getməsi də, dayanması da Allahın adı ilədir. Həqiqətən, Rəbbim bağışlayandır, rəhm edəndir!

42. Gəmi onları dağlar kimi (yüksək) dalğaların içi ilə apardığı zaman Nuh (gəmidən) aralı olan oğlunu (Kənanı) haraylayıb dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma!

43. (Oğlu ona) belə cavab verdi: "Mən bir dağa sığınaram, o da məni sudan qoruyar. Nuh dedi: "Allahın rəhm etdiklərindən başqa, bu gün heç kəs (insanları) Onun əzabından qoruya bilməz! Nəhayət, dalğa ata ilə oğulun arasına girib onları bir-birindən ayırdı və o da suya qərq

edilənlərdən oldu.

44. (Allahdan bir əmr olaraq:) "Ey yer! Suyunu ud! Ey göy! (Yağışını) saxla (açıl)! - deyildi. Su çəkildi. İş bitdi (Nuha iman gətirməyənlərin məhv edilməsi barədə Allahın əmri yerinə yetdi). Gəmi Cudi dağı üzərində oturdu və: "Zalımlar məhv (Allahın mərhəmətindən uzaq) olsun! - deyildi.

45. Nuh Rəbbinə (dua ilə) müraciət edib dedi: "Ey Rəbbim! Oğlum (Kənan) mənim ailə üzvlərimdəndir. Sənin vədin sözsüz ki, haqdır. Sən hakimlər hakimisən!

S. 226. 46. (Allah) buyurdu: "Ey Nuh! O sənin ailəndən deyildir. Çünki o (küfr etməklə) pis bir iş görmüşdür. (Və ya sənin Məndən onu xilas etmək xahişin yaxşı iş deyildir). Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı tövsiyə edirəm (məsləhət görürəm).

47. (Nuh) dedi: "Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən (belə bir işə cürət etməkdən) Sənə sığınıram. Əgər məni bağışlamasan, rəhm etməsən, ziyana uğrayanlardan olaram!

48. (Sonra) belə deyildi: "Ey Nuh! Sənə və səninlə birlikdə (gəmidə) olan camaatdan törənəcək (mömin) ümmətlərə Bizdən əmin-amanlıq və bərəkətlər bəxş edilməklə (gəmidən) en. (Gələcəkdə sizin nəsildən olub küfr edəcək) bəzi ümmətlərə də (dünyada) dolanışıq verəcək, sonra isə (axirətdə) onları şiddətli bir əzaba düçar edəcəyik!

49. Bunlar (bu əhvalatlar) sənə vəhy etdiyimiz (vəhylə bildirdiyimiz) qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi. (Ya Peyğəmbərim! Müşriklərin və kafirlərin əzab-əziyyətinə) səbir et. Həqiqətən, (gözəl) aqibət müttəqilərindir!

* * *

## 25. "ƏL-FURQAN" surəsi

S. 362. 37. Biz Nuh qövmünü də peyğəmbərlərimizi təkzib etdikləri vaxt suda boğduq və onları insanlar üçün bir ibrət dərsi etdik. Biz zalımlar üçün də şiddətli bir əzab hazırlamışıq.

* * *

## 26. "ӘŞ-ŞUӘRA" surəsi

S. 370-371. 104. Həqiqətən, sənin Rəbbin yenilməz qüvvət sahibi, mərhəmət sahibidir! (Kafirlərdən intiqam alar, tövbə edən bəndələrini bağışlayar!)

105. Nuh tayfası peyğəmbərləri təkzib etdi. (Onlar Nuhu yalançı saydılar. Bir peyğəmbəri təkzib etmək bütün peyğəmbərləri təkzib etmək deməkdir).

106. O zaman qardaşları Nuh onlara dedi: "Məgər (küfr etməyinizə görə) qorxmursunuz?

107. Şübhəsiz ki, mən sizin üçün etibar olunası (bel bağlanılası) bir peyğəmbərəm! (Vədimə xilaf çıxmaz, əmanətə xəyanət etmərəm!)

108. Artıq Allahdan qorxun və mənə itaət edin!

109. Mən bunun (dini, risaləti təbliğ etməyin) müqabilində sizdən heç bir muzd (əvəz) istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir!

110. Artıq Allahdan qorxun və mənə itaət edin!

111. Onlar: "Sənə ən rəzil (səfil, yoxsul) adamlar tabe olmuşkən, biz sənə imanmı gətirəcəyik? -dedilər.

112. (Nuh) dedi: "Mən onların nə etdiklərini (daxilən nə cür olduqlarını) bilmirəm!

113. Əgər başa düşürsünüzsə, (bilin ki) onların haqq-hesabı (imanlarının zahiri, yaxud daxili olduğu, ürəkdən iman gətirib-gətirmədikləri) yalnız Rəbbimə aiddir! (Mən ancaq zahirə baxıram!)

114. Və mən iman gətirənləri qovan da deyiləm!

115. Mən yalnız (günahkarları Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm!

116. Onlar dedilər: "Ey Nuh! Əgər (dediyin sözlərdən və bütlərimizi təhqir etməkdən) əl çəkməsən, mütləq daşqalaq ediləcəksən!

117. (Nuh) dedi: "Ey Rəbbim! Həqiqətən, qövmüm məni təkzib etdi.

118. Artıq mənimlə onlar arasında Sən hökm ver, məni və mənimlə birlikdə olan möminləri (bu əzabdan) qurtar!

119. Buna görə də Biz onu (Nuhu) və onunla birlikdə yüklü gəmidə olanları xilas etdik.

120. Sonra yerdə qalanları suda boğduq!

121. Şübhəsiz ki, bunda (Nuhun bu hekayətində) bir ibrət vardır. Halbuki onların (Nuh tayfasının, yaxud bu hekayətə qulaq asanların) əksəriyyəti iman gətirmədi.

122. Həqiqətən, sənin Rəbbin yenilməz qüvvət sahibi, mərhəmət sahibidir! (Kafirlərdən intiqam alar, tövbə edən bəndələrini bağışlayar!)

* * *

## 54. "ƏL-QƏMƏR" surəsi

S. 528. 13. Biz Nuhu (ona iman gətirənlərlə birlikdə) taxtadan düzəlmiş və mismarlanmış gəmiyə mindirdik.

14. (Qövmü tərəfindən) inkar edilmiş kimsəyə (Nuha) mükafat olaraq verilən (gəmi) gözümüzün qabağında (nəzarətimiz altında) üzüb gedirdi.

15. And olsun ki, Biz onu (tufan hadisəsini, yaxud Nuh qövmünün başına gələnləri sonrakı nəsillərə) ibrət üçün saxladıq. Amma heç bir ibrət alan (öyüd-nəsihət qəbul edən) varmı?!

16. (Bir görəydiniz) Mənim əzabım və qorxutmağım necə oldu!

17. And olsun ki, Biz Qur'anı (ondan) ibrət almaq (öyüd-nəsihət qəbul etmək) üçün belə asanlaşdırdıq. Amma heç bir ibrət alan (öyüd-nəsihət qəbul edən) varmı?!

* * *

## 71. "NUH" surəsi

S. 569-570. 1. Həqiqətən, Biz Nuhu: "Qövmünə şiddətli bir əzab gəlməmişdən əvvəl onları (Allahın əzabı ilə) qorxut! - deyə öz tayfasına peyğəmbər göndərdik.

2. O dedi: "Ey qövmüm! Həqiqətən, mən sizi (Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm!

3. Allaha ibadət edin, Ondan qorxun və mənə də itaət edin!

4. (Əgər belə etsəniz) O sizin günahlarınızdan keçər, sizə müəyyən vaxtadək (əcəliniz çatana qədər) möhlət verər (cəzanızı dünyada verməyib axirətə saxlayar). Allahın (əzəldən lövhi-məhfuzda) müəyyən

etdiyi əcəl (ölüm) gəlib çatdıqda isə, o əsla təxirə salınmaz. Kaş biləydiniz!

5. O dedi: "Ey Rəbbim! Mən qövmümü gecə-gündüz (imana, haqq yola) dəvət etdim!

6. Lakin dəvətim onların (imandan) qaçmalarını daha da artırmaqdan başqa bir şeyə yaramadı.

7. Sənin onları bağışlamağın üçün mən nə zaman onları (imana) dəvət etdimsə, onlar (dəvətimi eşitməsinlər deyə) barmaqlarını qulaqlarına tıxadılar, (məni görməsinlər deyə) libaslarına büründülər, (küfrlərində) israr edib durdular və təkəbbür göstərdilər.

8. Sonra mən onları uca səslə (açıq-açığına haqqa) dəvət etdim.

9. Daha sonra onlara (iman gətirmək lazım olduğunu) aşkar söylədim və gizli bildirdim.

10. Və dedim: "(Tövbə edib) Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O, (tövbə edən bəndəsinin günahlarını) çox bağışlayandır!

11. O sizə göydən bol yağış göndərər;

12. O sizə mal-dövlət, oğul-uşaq əta edər. O sizin üçün bağlar-bağçalar yaradar və çaylar axıdar!

13. Sizə nə olub ki, Allahın əzəmətindən çəkinmirsiniz? (Sizə nə olub ki, Allahın əzəmət və qüdrətindən qorxmur, Onu layiqincə uca tutmursunuz? Yaxud iman gətirəcəyiniz təqdirdə Allahın axirətdə sizə mərhəmət əta edəcəyinə ümid bəsləmirsiniz?)

14. Halbuki sizi cürbəcür (müxtəlif tövrlərdə) yaratdı (və ya müxtəlif mərhələlərlə - əvvəl nütfə, sonra laxtalanmış qan, sonra bir parça ət və nəhayət, insan şəklində xəlq etdi).

15. Məgər görmürsünüz ki, Allah yeddi göyü (bir-birinin üstündə) qat-qat necə yaratdı?!

16. Orada ayı bir nur, günəşi də bir çıraq etdi.

17. Və Allah sizi (atanız Adəmi) yerdən (torpaqdan) bir bitki kimi göyərtdi.

18. Sonra sizi yenə ora qaytaracaq və (qiyamət günü dirildib oradan da) çıxardacaqdır.

19. Allah yeri sizin üçün xalı etdi (fərş kimi ayaqlarınızın altına döşədi) ki, Onun geniş yollarında gəzəsiniz!

20. Onun geniş yollarında gəzəsiniz!"

21. Nuh dedi: "Ey Rəbbim! Onlar mənə qarşı çıxdılar və mal-dövləti, oğul-uşağı özlərinə ziyandan başqa bir şey artırmayan kimsələrə (öz kafir başçılarına) tabe oldular.

22. (Onların kafir başçıları mənim əleyhimə) çox böyük bir hiylə qurdular.

23. Və (tabeçiliyində olanlara) dedilər: "Öz tanrılarınızı tərk etməyin, (xüsusilə) Vəddi. Suvaı, Yəğusu, Yəuqu və Nəsri atmayın!"

24. Onlar çoxlarını yoldan çıxartdılar. Sən də (ey Rəbbim!) ancaq onların zəlalətini artır!

25. Onlar öz günahlarından dolayı suda boğdurulub Cəhənnəmə daxil edildilər və özlərinə onları Allahdan (Allahın əzabından) qurtaracaq köməkçilər də tapa bilmədilər!

26. Nuh dedi: "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma!

27. Çünki sən onları (sağ) buraxsan, onlar Sənin bəndələrini yoldan çıxardacaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub-törədəcəklər.

28. Ey Rəbbim! Məni, ata-anamı, mənim evimə (yaxud məscidimə) mömin kimi daxil olan kimsəni və (qiyamət gününə qədər olacaq) bütün mömin kişiləri və qadınları bağışla. Zalımların isə ancaq və ancaq həlakını (ölümünü) artır!"

# III FƏSİL

## QAYNAQLARDA NUH PEYĞƏMBƏR VƏ NAXÇIVAN BAĞLILIĞI HAQQINDA MƏLUMATLAR

### ИОСИФ ФЛАВИЙ (Еврейский историк и военачальник) – I в. до н.э

### ИУДЕЙСКИЕ ДРЕВНОСТИ. Книга первая, Глава первая

www.vehi.net/istoriya/israil/flavii/drevnosti/

После того как Господь Бог предостерег [людей], Он наслал дождь, и в продолжение сорока дней беспрерывно лились потоки воды, так что она покрыла землю на пятьдесят локтей в вышину. Это было причиною того, что вообще больше (кроме Ноя с семейством) никто не спасся, так как не было средства к отступлению и бегству. Лишь сто пятьдесят дней после того, как перестал лить дождь, именно на седьмой день седьмого месяца, начала мало-помалу сбывать вода. Затем, когда ковчег остановился на вершине одной горы, а это заметил Ной, последний открыл его и, увидев около ковчега несколько суши, стал надеяться на лучшее и успокоился. Несколько дней спустя, когда вода еще более убыла, он выпустил ворона, желая узнать, нет ли еще где-нибудь свободной от воды и уже доступной для высадки земли. Однако тот вернулся к Ною, найдя, что еще все покрыто водою. Через семь дней Ной выпустил с тою же целью голубя. Когда же последний вернулся к нему запачканный [землею] и неся лист маслины, то Ной увидел, что земля освободилась от воды, и, прождав еще семь дней, выпустил из ковчега животных и сам вышел со своими домочадцами. Принеся затем жертву Господу Богу, он вместе с сородичами своими устроил жертвенный пир. Это место называют “местом высадки”, и до сих пор еще туземцы показывают там остатки, сохранившиеся от ковчега.

**İOSİF FLAVİ (Yəhudi tarixçi və sərkərdəsi)-e.ə.I əsr.**
**YƏHUDİ QƏDİMLİYİ. I kitab, I fəsil.**
**www.vehi.net/istoriya/israil/flavii/drevnosti/**

Tanrı insanlara xəbərdarlıq etdikdən sonra yağışını göndərdi və bunun ardınca qırx gün fasiləsiz su axını yerə yendi. O torpağı əlli dirsək ölçüsündə su ilə örtdü. Bunun səbəbi o idi ki, heç kəsin qaçmağa və uzaqlaşmağa imkanı olmasın, Nuh və onun ailəsindən başqa heç kim xilas olmasın. Bundan düz yüz əlli gün sonra yağış kəsən kimi, yeddinci ayın yeddinci günü su yavaş-yavaş çəkilməyə başladı. Elə ki, gəmi bir dağın zirvəsinə oturdu, bunu Nuh hiss etdi, o gəminin yanında bir qədər quru gördü, yaxşılığa inanıb sakitləşdi. Bir neçə gün keçəndən sonra, elə ki, su bir qədər də çəkildi, o qarğanı buraxdı, arzu edirdi ki, öyrənib bilsin ki, harda isə su olmayan, gəminin oturması üçün azad bir torpaq sahəsi var ya yox. Ancaq o Nuhun yanına geri döndü və hələ hər tərəf su ilə örtülü idi. Yeddi gün keçdikdən sonra Nuh bu məqsədlə göyərçini buraxdı. Sonuncu torpağa bulaşmış halda, zeytun yarpağı ilə döndüyü vaxt Nuh gördü ki, artıq su çəkilib. Yeddi gün əlavə gözləyərək heyvanları gəmidən çıxarıb ötürdü və özü oradan ailə üzvləri ilə yerə yendi (gəmidən çıxdı). Allaha qurban kəsdikdən sonra o öz tərəfdarları ilə birlikdə qurban piri təşkil etdi. Bu yeri "düşərgə (yenmə) yeri" adlandırırlar. Və bu günə qədər yerli əhali orada gəmidən qalan qalıqları göstərirlər.

* * *

**ГИЛЬОМ ДЕ РУБРУК (Фламандский путешественник) – 1254 г.**
**Путешествие в восточные страны Вильгельма де Рубрика в лето Благости 1253 г. Пер. А.И.Малевина. М.: Географгиз, 1957, 272 с.**
**kitap.net.ru/archive/13.php**

С. 185. Вблизи упомянутого выше города (г. Нахчыван – Ф.С.) находятся горы, на которых, как говорят, опочил ковчег Ноя; этих гор две, одна больше другой; у подошвы их течет Аракс.

**QILYOM DE RUBRUK (Flamand səyyahı) – 1254-cü il. Vilhelm de Rubrukun 1253-cü ilin yayında Şərq ölkələrinə səyahəti. Tərcümə A.İ.Malevinindir. M.: Qeoqrafqiz 1957, 272 s. Kitab.net.ru/archivel/13.php**

K.Nikitinin yazılarında biz oxuyuruq: Nuhun qəbri şəhərin cənub tərəfindəki köhnə qalanın yaxınlığında yerləşir. Hazırkı görkəmdə o VIII əsrdə Naxçıvana sahib olduqdan sonra farslar (ərəblər – F.S.) tərəfindən bərpa edilmişdir. Hazırda o çox da böyük olmayan, yerdən boylanan türbə təsiri bağışlayır. Burada əvvəllər türbə olmuş, sonralar dağılmışdır. Hazırkı tikili əvvəlki türbənin qalıqlarıdır və onun aşağı mərtəbəsi olmuşdur. Tikilinin pillələrlə yenmək lazım gələn daxili demək olar ki, dairəvi, mərkəzdəki, daş sütun üzərindəki qübbəli ma-

ğaraya oxşayır. Rəvayətə görə bu sütunun altında ulubaba Nuhun cənazəsi uyuyur. Mağarada heç bir təsvir və bəzək yoxdur. Divarlar ağardılmışdır və səyyah və zəvvarların müxtəlif dillərdə adları yazılmışdır.

Nuhun bacısının türbəsi isə şəhərdən çıxarkən İrəvan yolunun üzərində, yüksək təpənin üstündə qalmışdır. Bu qəbir Nuhun qəbrindən də pis vəziyyətdə olmaqla hazırda bir dağılmış türbədən ibarətdir.

Əhali illik bayramlarda kütləvi şəkildə Nuhun qəbrinə gedir və Nuhun cənazəsinə sitayiş edir, nəzir verir, adətləri yerinə yetirir, kiçik daşları mağaranın gillə suvanmış qübbəsinə vurur və inanırlar ki, daşlar yapışarsa onların arzu və istəkləri yerinə yetəcəkdir.

Nuhun arvadı Nuhəməzər və ya Nuhəmqar Mərənddə ölmüşdür ("Mayr-and", yəni "Ana oradadır").

* * *

## В.М. СЫСОЕВ (Русский учёный) – 1930 г.
## НАХИЧЕВАНЬ НА АРАКСЕ
### Краткий путеводитель наиболее известным памятникам древности и природы в Азербайджане. Баку, 1930.

С. 31. Нахичевань – главный город Нахичеванской Автономной ССР, населённой преимущественно тюрками, объединённой с Азербайджанской ССР.

С. 32. ...Нахичевань очень древний город: народное предание считает, что он был основан в 1539 г. до европейской эры, а другие утверждают, что "сам Ной, патриарх, прародитель рода человеческого" основал Нахичевань и в доказательство указывают на "могилу Ноя" на здешнем кладбище, она теперь представляет жалкие остатки мавзолея. Именно, предание говорит, что Ной вышел из своего ковчега здесь, в Нахичевани и впервые здесь получил виноградное вино.

С.35. ...На старом кладбище, на восточной окраине города, есть довольно оригинальный мавзолей XVIII в., времён Тахма-

сипа II, с небольшим куполом со вставками чёрных кирпичиков, образующих слово Аллах; рядом с ним два более новых.

На соседнем кладбище, находятся развалины (один каменный столбик и ров) старой гробницы: это и есть "могила Ноя". В 1834 г. Дюбуа-де-Монпере здесь видел полуразрушенную гробницы.

**V. M. SISOEV (Rus alimi) – 1930-cu il**
**ARAZ ÜSTƏ NAXÇIVAN. Azərbaycanın ən məşhur təbiət və qədim abidələrinin qısa yol bələdçisi. Bakı, 1930.**

S. 31. Naxçıvan Naxçıvan MSSR-nın əsas şəhəri olmaqla əsasən türklərin məskunlaşdığı, Azərbaycan SSR - ə birləşik şəhərdir.

S. 32. ...Naxçıvan çox qədim şəhərdir. Xalq rəvayətlərinə görə onun əsası e.ə. 1539-cu ildə qoyulmuşdur. Başqaları isə inandırmağa çalışır ki, Naxçıvanın əsasını insan nəslinin ulu babası Nuh peyğəmbər qoymuşdur və buna sübut kimi buradakı qəbristanlıqda indi acınacaqlı vəziyyətdə olan Nuhun qəbrini göstərirlər. Rəvayətdə deyilir ki, Nuh gəmidən ilk dəfə burada, Naxçıvanda çıxmış və ilk dəfə burada üzüm şərabı almışdır.

S.35. ...Şəhərin şərq tərəfindəki köhnə qəbristanlıqda XVIII əsrə, II Təhmasib dövrünə aid kiçik, üzərində qara kərpiclərin yerləşdirilməsi ilə "Allah" sözü ifadə edilmiş günbəzli, çox orijinal bir türbə vardır. Onunla yanaşı iki daha yenisi vardır.

Qonşu qəbristanlıqda köhnə türbə qalıqları yerləşir (bir daş sütun və xəndək). Bu isə "Nuhun qəbri"dir. Dyuba de Monpere 1834-cü ildə burada yarım dağılmış türbə görmüşdür.

* * *

**К.Н. СМИРНОВ (Русский учёный) – 1934 г.**
**МАТЕРИАЛЫ ПО ИСТОРИИ И ЭТНОГРАФИИ НАХИЧЕВАНСКОГО КРАЯ. Баку: Озан, 1999, 159 с.**

С. 99. Недалеко от старинной крепости Абас-Абад находится так называемая могила Ноя: Нухтабан. Все нахичеванцы держатся

легенды, гласящей, что здесь была первая остановка Ноева ковчега, что и дала название городу. Могила Ноя ничего интересного из собой не представляет. Мало вероятно, чтобы этой могиле было 4900 лет, как сообщает об этом запись сводки сведений из Нахичеванских архивов. Но посещение Нухтабана не особенно развито. Ниже крепости на старом мусульманском кладбище есть имам-заде, на куполе которого сохранилось отчасти слово "Аллах", сделанное из изразцовых кирпичей.

### K. N. SMİRNOV (Rus alimi)-1934-cü il
### NAXÇIVAN ÖLKƏSİNİN TARİXİ VƏ ETNOQRAFİYASINA AİD MATERİALLAR. Bakı : Ozan, 1999, 159 s.

S. 99. Qədim Abbasabad qalasının yaxınlığında Nuhun qəbri yerləşir: Nuhtaban. Bütün naxçıvanlılar belə bir əfsanəyə əsaslanırlar ki, Nuhun gəmisinin ilk dayanacağı burada olmuşdur və şəhərə ad vermişdir. Nuhun qəbri özlüyündə maraqlı elə bir şey göstərmir. Heç inanmaq olmur ki, Naxçıvan arxiv materiallarında xəbər verildiyi kimi bu qəbrin 4900 il yaşı vardır. Nuhtabana gələnlər çox deyildir. Qalanın aşağısında, köhnə qəbristanlıqda günbəzində kaşılı kərpiclərlə düzəldilmiş "Allah" sözü qalan imamzadə vardır.

* * *

### А.К. АЛЕКПЕРОВ (Азербайджанский учёный) – 1936 г.
### ПОЕЗДКА В ЗАНГЕЗУР И НАХ. КРАЙ / Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960, с. 243-249.

С. 244. Очень холодно. Кругом туман, только верхушка Ишыглыдага блестит на солнце. Об этой горе население рассказывает легенду, связанную с именем Ноя и потопом, - как связаны с ними и другие легенды Приагринсикий равнины:

Когда Ноев ковчег вознесён был волнами в эти места, ковчег задел сначала верхушку Агры. " Какая тяжёлая гора (агры-

даг)", – воскликнул Ной (так и теперь зовётся это гора у тюрок). Но вот ковчег опять на что-то натолкнулся. "Поверь, это гора (инанки даг-дыр)", сказал Ной (и эту гору тюрки называют Иланны даг). Наконец, ковчег вынесло к горе Ишыглы-даг; Ной вышел впервые на землю и сказал: "Вступил я в светлый (Ишыглы даг) мир".

Гора эта, одна из высоких в районе, часто находится над облаками и освещена солнцем: отсюда, можно думать и название – светлая, освещенная гора.

**Ə. K. ƏLƏKBƏROV (Azərbaycan alimi) – 1936-cı il.**
**ZƏNGƏZUR VƏ NAXÇIVAN ÖLKƏSİNƏ SƏYAHƏT.**
**Azərbaycan arxeologiyası və etnoqrafiyasına dair tədqiqatlar.**
**Bakı 1960, s.243-249.**

S. 244. Çox soyuqdur. Hər tərəf buluddur. Ancaq İşıqlıdağın zirvəsi günəşlə işıldayır. Bu dağ haqqında əhali Ağrı vadisinin bir çox başqa və onunla əlaqəli olan əfsanələri kimi, Nuh və tufanla bağlı əfsanələr danışır.

Dalğalar Nuhun gəmisini qovub bu yerlərə gətirdiyi vaxt gəmi Ağrının zirvəsinə toxundu. "Necə ağır dağdır" (Ağrı dağ) – deyə Nuh ucadan dilləndi (indi də türklər bu dağı belə adlandırır). Budur, gəmi yenə nəyə isə toxundu. "İnan bu dağdır (İnanki, dağdır)" - Nuh dedi (Türklər bu dağı İlanlı dağ adlandırır). Nəhayət gəmi İşıqlıdağa çatdı. Nuh ilk dəfə torpağa çıxdı və dedi : "Mən işıqlı dünyaya (İşıqlıdağ) çıxdım".

Bu dağ rayonda ən hündür dağdır. Tez – tez buluddan üstə qalxır və günəşlə işıqlanır. Buradan adı fikirləşmək olar - işıqlı, işıqlı dağ.

# IV FƏSİL

# NUH PEYĞƏMBƏRİN NAXÇIVANLA BAĞLILIĞI İLƏ ƏLAQƏDAR TƏDQİQATLAR

**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor*

## 4.1. NUH PEYĞƏMBƏR VƏ DÜNYA TUFANI TOPLUSU

Sivilizasiya - latın sözü olub, mənası şəhərli, dövlət, vətəndaş deməkdir.[1] Bu məfhum altında insan cəmiyyətinin ayrı-ayrı tarixi dövrlərindəki xüsusi inkişaf səviyyəsi nəzərdə tutulur. Hazırda Azərbaycan dilinin leksik tərkibində möhkəmlənmiş "sivil" sözü əslində sivilizasiya anlayışının əlaməti olub, cəmiyyətin indiki mərhələsində dünyəvi, vətəndaş cəmiyyətinə uyğun, çağdaş, mədəni həyat tərzi mənalarını ifadə edir. Bununla belə, təəssüf ki, sivilizasiyaların tipləri və formaları barədə dünya elmində tam yekdil fikir yoxdur. Ayrı-ayrı nəzəriyyəçilərdən hərəsi sivilizasiyaların tiplərini müxtəlif yönlərdən təsnifləndirmiş, fərqli nəticələrə gəlmişlər. Belə ki, artıq sivilizasiyaşünaslıq elmində bəşəriyyətin tarixi təkamül prosesi nəzərə alınmaqla neolit, ilkin quldarlıq, antik, erkən feodal cəmiyyəti, son feodal cəmiyyəti, sənaye cəmiyyəti və postsənaye cəmiyyəti sivilizasiyalarının mövcudluğu qeyd edilmişdir.[2] Doğrudur, bəşər cəmiyyətinin minilliklər boyu keçdiyi tarixi təkamül prosesini əks etdirən bu mərhələlərdən hər biri dünyanın gedişində böyük dəyişikliklərə səbəb olmuşdur. Amma burası da var ki, heç də bütün xalqlar, yaxud ölkələr həmin prosesləri sivilizasiya səviyyəsində yaşamamışlar. Bundan başqa, sivilizasiyaların bölgüsündə coğrafi prinsip əsas kimi qəbul edilməklə ümumi şəkildə Qərb və Şərq sivilizasiyaları anlayışlarına üstünlük verilməsi geniş yayılmışdır.[3] Bu təsnifatı da dünya xalqlarının hamısına eyni səviyyədə aid etmək doğru olmaz. Sivilizasiyaşünaslar Qərb sivilizasiyası dedikdə daha çox Avropa, Avrasiya, Şimali Amerika, Latın Amerikası sivilizasiyalarını nəzərdə tutmuşlar. Sivilizasiyaların Şərq qrupuna isə

əsasən islam, türk, Misir, Şumer, yapon, Çin, hind sivilizasiyaları daxil edilmişdir.[4] Sivilizasiyaşünaslıqda çiçəklənmə dövrünə çatmış xalqlar, inkişaf etmiş və "donmuş" ölkələr bölgüsü, landşaftlar, iqlim xüsusiyyətlərinə uyğun mədəniyyətlərə görə təsnifat, sənayeləşdirmənin səviyyəsinə əsaslanan müəyyənləşdirmələr də mövcuddur.

Azərbaycan sivilizasiyasından bir qayda olaraq ümumtürk və islam sivilizasiyalarının tərkibində bəhs olunur. Son illərdə Gəmiqaya-Qobustan mədəniyyəti müstəvisində Azərbaycanda qədim sivilizasiyadan söz açılır.[5] Eyni zamanda ölkəmizdə milli intibah sivilizasiyasına yeni yanaşmaları əks etdirən elmi mülahizələr də mövcuddur.[6]

Dünya sivilizasiyaşünaslığında Adəm peyğəmbərdən sonrakı və Nuh peyğəmbər sivilizasiyaları bölgülərini önə çəkənlər də vardır. Belə məqamlarda daha çox sivilizasiyaların başlanğıcı anlayışına istinad olunur. Yəni Adəm Peyğəmbərin zühur etməsi insanın yaranması və inkişafının başlanması səviyyəsində dəyərləndirilir. Sivilizasiyaşünaslıqda Nuh peyğəmbərlə əlaqədar Dünya tufanı hadisəsinin baş verməsi isə bəşər cəmiyyətinin yeni həyatı kimi səciyyələndirilir. Ona görə də indi Adəm və Nuh peyğəmbərlərin dövrü, həyatı və fəaliyyətləri ilə bağlı miflərə tarixin dərin qatlarını öyrənmək üçün dünya miqyasında yenidən böyük qayıdış vardır. Bu mənada doğru deyilmişdir ki, "miflər həmişə böyük hövsələ ilə özünün vaxtını gözləyir və lazımi anda qəbul edilmiş reallığa çevrilirlər. Deməli, miflərlə razılaşmamaq mümkün deyildir".[7]

Müşahidə olunan cəhət bundan ibarətdir ki, dünya sivilizasiyaşünaslıq elmində sivilizasiya hadisəsindən bəşər cəmiyyətinin müəyyən inkişaf mərhələsindəki xüsusi yüksəliş dövrü səviyyəsində bəhs etmək ənənəsi əsas prinsip kimi qəbul edilmişdir. Buna görə də sivilizasiyadan təxminən 300 min il yaşı olan bəşər cəmiyyətinin minilliklərdən sonra gəlib çatdığı mühüm, əsas, fərqli nəticə kimi söz açmaq prinsipi üstünlük qazanmışdır. Məsələn: Misir, Şumer, Çin, Xett sivilizasiyaları bizim eradan əvvəlki, Avropa sivilizasiyaları isə yeni eranın ayrı-ayrı tarixi dövrlərində baş verən, yaxud baş tutan tarixi-mədəni hadisələr hesab edilməkdədir. Bundan başqa, müxtəlif epoxalarda və ayrı-ayrı ölkələrdə baş verən sivilizasiyaların bir-birindən fərqləndikləri də nə-

zərə çarpdırılmaqdadır.[8] Çünki oxşar hadisələrin və proseslərin təkrarlanmasından yeni sivilizasiya yarana bilməz. Fikrimizcə, bu məqamda Adəm peyğəmbərdən sonrakı sivilizasiya ilə Nuh peyğəmbərlə başlayan sivilizasiyalara eyni mövqedən, vahid prinsiplər əsasında yanaşmaq doğru sayılmamalıdır. Çünki bəlli olduğu kimi, Adəm peyğəmbərlə insan oğlu bir varlıq kimi yaranmış, minilliklər ərzində formalaşma prosesi keçirmiş, çox uzun bir tarixi təkamül prosesindən sonra hər hansı bir sivilizasiya mərhələsinə gəlib çatmaq imkanı qazanmışdır. Nuh peyğəmbərlə əlaqədar olan Dünya tufanı hadisəsindən sonrakı ikinci sivilizasiyada isə məsələ belə olmamışdır. Məlum olduğu kimi, Dünya tufanı hadisəsi zamanı əfsanəvi gəmidəki "Həzrəti Nuh peyğəmbərin ailə üzvləri, hər canlıdan bir cüt varlıq tufandan xilas olaraq yeni həyata başlamaq imkanına malik idilər. Bu tarixi mərhələdə insanın yaranmasına və formalaşmasına ehtiyac yox idi. Nuh peyğəmbərin əfsanəvi səfərinin uğurlu nəticəsi, yəni insan nəslinin və canlıların Dünya tufanından xilas olması, yeni həyata başlaması bəşər cəmiyyətinin tarixində çox böyük hadisədir. Bu, özünün mahiyyətinə və əhəmiyyətinə görə sonrakı tarixi epoxalarda yaranmış sivilizasiyaların hər hansı birindən qat-qat böyük, mühüm və əlamətdar hadisə sayıla bilər. Məhz Nuh peyğəmbərin uzaqgörənliyi və müdrikliyi sayəsində bəşəriyyət Dünya tufanından xilas olmuş, yeni həyata başlamışdır. Bu, bayram tipli böyük təntənələrlə qeyd edilməsi zəruri olan qeyri-adi bir hadisə kimi qəbul edilməyə layiqdir. Fikrimizcə, dünya ölkələrinin yarısından çoxunu əhatə edən Novruz mərasimləri Dünya tufanından sonra Həzrəti Nuh peyğəmbərin və onun nəslinin davamı vasitəsilə insanlığın yeni həyata başlamasının bayram edilməsindən ibarətdir. Bu bayram Yer üzərində yeni həyata, Dünya tufanından xilas olmağa, yeni sivilizasiyanın başlanmasına insanların şükranlıq və ümid duyğularını ifadə edən mərasimdir. Bizə görə, Novruz sözü də Nuh hadisəsi ilə əlaqədardır. Belə düşünürük ki, Novruz ifadəsi Nuh-ruz sözündən yaranmışdır və mənası Nuh peyğəmbərlə başlanan gün, yeni həyat deməkdir. Məlum olduğu kimi, müxtəlif ölkələrdə Nuh sözünün ayrı-ayrı variantları da işlədilməkdədir. Beləliklə, Novruz sözü zaman-zaman Nuh-ruz, Noy-ruz, Nouruz şəklində dəyişərək indiki Novruz formasına düşmüşdür. Elmi qaynaqlarda da həzrəti Nuh peyğəmbərin

gəmisinin yerə enməsi hadisəsinin xüsusi mərasim kimi sonralar qeyd edilməyə başlanan Novruz bayramı gününə təsadüf etdiyini, həmin günə uyğun gəldiyini təsdiq edən mülahizələr mövcuddur. Mənbələrdə deyilir: "Nuhun gəmisi Ağrı dağına qonduqdan sonra Nuh peyğəmbər Yer üzünün quruyub-qurumadığını öyrənmək üçün öncə bir qarğanı görəvləndirmişdir. Ancaq qarğa geri dönməmişdi. Daha sonra havaya uçurulan göyərçin bir müddət sonra ağzında bir dəfnə yarpağı ilə geri qayıtmağı bacarmışdı. Bu, həm torpağın quruduğunu, həm də baharın gəldiyini müjdələməkdəydi. Həzrəti Nuhun yerə ayaq basdığı gün Novruz idi".[9]

Eyni mətləb Novruz bayramından söz açan digər mənbələrdə də öz əksini tapmışdır: "Nuhun gəmisi Novruz günü Ağrı dağında torpağa oturur".[10]

Novruz bayramı üçün "gecə ilə gündüzün bərabərləşməsi astronomik vahid"[11] kimi qəbul edilmişdir. Bu bayram həm də yeni ilin başlandığı gün hesab olunur. Bütövlükdə Novruz yeniləşmə, dirilik, canlanma, təzəlik mənalarını daşıyır. Ensiklopedik mənbələrdə Novruz sözünün mənası "ilin yeni, başlanğıc günü" kimi qeyd edilir.[12] Deməli, Novruz dünyanın, həyatın yeni başlanğıcının bayram edilməsi deməkdir. Bu da öz növbəsində Dünya tufanı hadisəsi və ya Nuh əfsanəsi ilə üzvi surətdə səsləşir.

Müxtəlif əfsanə və rəvayətlərdə Nuhun gəmisinin əsasən Ağrı dağında yerə endiyi göstərilir. Gəminin yerə enmə hadisəsinin Türkiyə ərazisindəki Cüdi dağına aid edənlər də vardır. Naxçıvan ərazisindən toplanılmış folklor materiallarında isə Nuh peyğəmbərin gəmisinin Ordubad rayonu ərazisindəki Gəmiqaya adlanan yerdə torpağa endiyi bildirilir. "Naxçıvan folkloru" antologiyasında oxuyuruq: "Gəmi bir dağa yan alıb, ehmalca qayaya toxundu. Nuh buna Gəmiqaya adı verdi. Gəmidəkilər quruya çıxdılar".[13]

Bundan başqa, Türkiyə mənbələrində Nuhun tapşırığı əsasında göyərçinin dəfnə yarpağı gətirməsi ilə Dünya tufanının başa çatdığı öz əksini tapmışdır.[14] Azərbaycan folklor materiallarında isə Nuh peyğəmbərin sifarişinin qaranquş tərəfindən yerinə yetirildiyi qeyd olunur.[15] Naxçıvan ərazisindəki Nuhun tufanı ilə bağlı olan Gəmiqaya yüksəkliyində Qaranquş yaylağı adlı yer indi də mövcuddur. Qapıcıq

dağı ətəklərində yerləşən Qaranquş yaylağı toponimi qədim əfsanədəki hadisəni yaşadan mühüm bir əlamətdir. Deməli, bütün variantlarda Nuhun gəmisinin yazın ilk günü yerə enməsi təsdiqlənir. Beləliklə, türk-müsəlman dünyası Nuh-ruz, Noy-ruz Novruz hadisəsini Novruz bayramı kimi böyük təntənə ilə qeyd edir. Mənbələrdən öyrənirik ki, Novruz bayramı Krımda Navrez,[16] Qərbi Trakya türklərində Nevris[17], Çuvaşiyada Naurus,[18] Qırğızıstanda Navruz[19] kimi adlandırılır. Bu isə o deməkdir ki, Nuhun gəmisinin yerə endiyi gün, yəni yeni sivilizasiyanın başlandığı gün min illərdir ki, ayrı-ayrı xalqlar da bayram səviyyəsində qeyd olunur. Beləliklə, Novruz bayramı yeni sivilizasiyanın, yeni həyatın başlanmasının təntənəsidir. Novruz sözü Nuhruz kəlməsindən yaranmışdır.

Deməli, yeni sivilizasiya Dünya tufanı hadisəsinin başa çatdığı vaxtdan və Nuhun gəmisinin torpağa endiyi yerdən başlanır. İndiyədək Nuhun gəmisinə dair mənbələrdə bu hadisə ilə bağlı adı çəkilən Cüdi dağı və Ağrıdağ Türkiyə sınırları içərisində, Gəmiqaya isə Naxçıvan ərazisindədir. Yəni yeni sivilizasiyanın məkanı Diyarbəkir yaxınlığındakı Cüdi dağı ilə Naxçıvandakı Gəmiqaya arasındakı ərazilərdir. Və yaxud yeni sivilizasiyaya Cüdi dağı, Ağrıdağ və Gəmiqayadan biri şahidlik edir. Adı çəkilən yerlər içərisində Dünya tufanı, Nuh peyğəmbərin əfsanəvi səfəri və gəmisi ilə səsləşən rəvayətlər və toponimlər müqayisədə Naxçıvanda daha çoxdur. Naxçıvan ərazisindəki Gəmiqaya, Haçadağ, Nuhdaban, Nuhəcir, Nuhram, Nürgüt, Nəbi yurdu, Qapıcıq, Qaranquş yaylağı, Peyğəmbər ayağı məscidi və sair kimi çoxsaylı yer adları və həmin toponimlərlə bağlı əfsanə və rəvayətlər əfsanəvi gəmi əhvalatının Naxçıvanda baş verməsi ehtimalına ağırlıq qazandırır. Həm də Naxçıvandakı folklor materiallarında və toponimlərdə təkcə gəminin yerə enməsi deyil, bu prosesin hamısı: Qaranquş əhvalatı, dağın haçalanması, Haçadağ, Gəmiqaya, Nuhdaban, Nəbi yurdu, yəni həyat ümidinin başlandığı andan yerə enmə və məskunlaşma prosesinə qədərki bütün gedişat öz əksini tapmışdır. Nuh peyğəmbərlə və Dünya tufanı ilə bağlı əsatir və əfsanələrdə də Naxçıvandakı yer adları geniş yer tutur. Məsələn: "Nuhun gəmisi Gəmiqayada quruya oturmuşdu. Oğlanları bir gün gördülər ki, uca dağlar od tutub yanır... Bu nə sirdir dedilər, dağ da yanar?

...Nuh Nəbi dedi: Gördüyünüz elə belə od deyil... Bu torpağın mayası oddan yoğrulub... Yanan dağlardan biri Gəmiqaya, biri İlandağı, biri Ağrı dağıdır.

Nuh Nəbi sözün qurtardı. Dayandığı yerdən bir addım irəli atdı. Oğlanları həmin yerdə yurd saldılar, adına da Nuhdaban dedilər".[20]

Göründüyü kimi, bu kiçik folklor nümunəsinin mətnində Nuh Nəbi, Gəmiqaya, İlandağ, Nuhdaban və sair adlar öz əksini tapmışdır. Ümumiyyətlə, Nuhun əfsanəvi gəmisinin yerə enməsi ehtimal edilən ərazilərdən: Ağrı dağı və Cüdi dağı ətraflarından heç birində Naxçıvandakı qədər Dünya tufanı hadisəsi və ya Nuh peyğəmbərlə səsləşən adlar, toponimlər, əfsanələr çox deyildir. Son illər bu sahədə aparılan axtarışlar sayəsində məlum toponimlərin sırasına Nəbi yurdu, Xəzər obası, Qaranquş yaylağı, Baca bulağı kimi yer adları da daxil edilmişdir. Burası da maraqlıdır ki, Nuh peyğəmbər hekayəti ilə səsləşən toponimlərin böyük əksəriyyəti əfsanəvi gəminin yerə endiyi ehtimal edilən Gəmiqaya-Qapıcıq ərazisindədir.

Toponim və əfsanələrdə adı çəkilən Nəbi yurdu - peyğəmbər yurdu, yəni Nuh peyğəmbərin yurdu deməkdir. Gəmiqaya qayaüstü rəsmlərinin bir çoxu Nəbi yurdu ərazisindədir. Bu yer ilin üç fəslində başı qarla örtülən Gəmiqaya-Qapıcıq zirvəsindən bir qədər aşağıda yerləşir. Nəbi yurdu buzlaşmanın qurtarıb həyatın, məskunlaşmanın başlandığı məkan, yurd mənasını verir. Hətta burada qədim qəbirlərə də rast gəlmək mümkündür. Bu o deməkdir ki, Nəbi yurdu ilk insan məskənlərindən biridir. Heç şübhəsiz, sistemli araşdırmalar aparılarsa, Nəbi yurdundan yaşayış əlamətlərini ifadə edən daha qədim materiallar da tapmaq mümkün olar.

Qaranquş yaylağı - Nəbi yurduna bitişik yaylaq yeridir və məlum hadisədəki dimdiyində dəfnə yarpağı gətirən qaranquş əhvalatının yadigarıdır. Gəmiqayadakı qayaüstü rəsmlərin böyük əksəriyyəti Qaranquş yaylağındadır. Qaranquş yaylağı haqqında Naxçıvandan toplanmış folklor materiallarına istinad edən AMEA-nın müxbir üzvü Qadir Qədirzadə həmin hekayəti aşağıdakı variantda təqdim edir: "Toplanmış rəvayətlərə görə, Dünya tufanı başa çatıb, sular sakitləşəndən, küləklər dayanandan sonra Nuh peyğəmbər qarğanı buraxır ki, görsün quru yer varmı? Qarğa gedib qayıdır. Peyğəmbər bilir ki, hələlik quru yer yox-

dur. Sonra qaranquşu buraxır. O, çox gec qayıdır. Peyğəmbər baxır ki, onun ayaqlarında və dimdiyində palçıq var. Düşünür ki, artıq sular çəkilməyə başlayıb. Lakin hələlik yaşayış üçün şərait yoxdur. Müəyyən vaxtdan sonra qaranquşu yenidən buraxır. Qaranquş bir müddət dolandıqdan sonra gəmiyə gəlir. Lakin gəmidə qalmayıb, yenidən geri dönür. Beləliklə, onun qurunu tapdığı bəlli olur. Gəmi də həmin istiqamətdə hərəkət edib, quruya çatır. Gəmidəkilər qaranquşu həmin yerdə görürlər. Bundan sonra ərazi onun şərəfinə "Qaranquş yurdu" adlanır".[21]

Deməli, Gəmiqayadakı Qaranquş yaylağı Nuh peyğəmbərin əfsanəvi gəmisindəki canlılar içərisində quru yeri, torpağı tapan, həyat əlamətlərini nişan verən qaranquşun şərəfinə onun adı ilə adlandırılmışdır. Nuh peyğəmbərin gəmisindəkilərin timsalında insanlığı sahilə çıxaran quşun adı Gəmiqayadakı Qaranquş yaylağı ilə əbədiləşdirilmişdir.

Müşahidələr göstərir ki, qaranquş təkcə bələdçi deyildir, eyni zamanda insanların xilaskarıdır. Nuhla bağlı miflərin birində deyilir ki, gəmidəki heyvanlardan olan ilan xidmətinin müqabilində peyğəmbərdən onun nəslinə dünyadakı ən şirin neməti yeməyə izin verilməsini istəyir. Nuh qaranquşla arını (Naxçıvan variantında mozalanı - İ.H.) dünyadakı ən şirin şeyi axtarmağa göndərir. Arı ən şirin nemətin insan əti olduğunu Nuha bildirmək qənaətinə gəlir. Qaranquş bu məlumatın ilanın insanları məhv etməsinə səbəb olacağını başa düşdüyü üçün "aldadıb arının dilini dimdikləyib qoparır. Arı danışa bilmir... Onlar Nuhun yanına gəlirlər. Arı özünü qabağa verir. Çox çalışır, çox vızıldayır, ancaq bir şey başa sala bilmir. Qaranquş deyir: Ən şirin şey torpaqdır.

Nuh ilana yemək üçün torpağı verir".[22] Nəbi yurdu ilə müqayisədə Qaranquş yaylağında qədim qəbirlər bir az da çoxdur. Son illərdə Gəmiqaya ekspedisiyaları zamanı dəniz səviyyəsindən üç min metrdən artıq yüksəklikdə olan Qaranquş yaylağında aşkar edilmiş bir qəbirdə aparılmış arxeoloji axtarışlar nəticəsində burada iki min ildən çox yaşayışın olduğu müəyyən edilmişdir.

İndiyədək diqqətdən kənarda qalmış Xəzər obası toponimi də Həzrəti Nuh peyğəmbərlə bağlıdır. Mənbələrdə Gəmiqayadakı bu yerin adı "Qəzər yurdu" kimi də yazılır.[23] Xalq arasında isə bura Xəzər yurdu, yaxud Xəzər obası adlandırılır. Məlum olduğu kimi, Xəzər Nuh

peyğəmbərin oğlu, türk-müsəlman qövmünün atası sayılan Yafəsin törəmələrindən birinin adıdır.[24] Nəbi yurdunun sağ tərəfində yerləşən Xəzər obası ərazidəki məskunlaşma ilə bağlı yerlərdən biridir. Nəbi yurdu və Qaranquş yaylağı Gəmiqayadakı məskunlaşmanın başlanğıc mərhələsini, Xəzər obası isə davamını, yayılmasını, genişlənməsini aydınlaşdırmağa imkan verir.

Haqqında ilk dəfə söz açacağımız Baca bulağı Gəmiqaya silsiləsindəki Qapıcıq zirvəsinin ən yüksək nöqtələrindən birindədir. Bura Dünya tufanı zamanı suyun çəkilməsi prosesində Nuh peyğəmbər üçün açılan və həyat əlaməti ifadə edən yer mənasını daşıyır. Həzrəti Nuh peyğəmbər zirvədəki həmin bacadan yerə enmişdir. Bacadan bulaq çıxması isə həyatın davam etməsi, çağlaması mənalarını ifadə edir.

Fikrimizcə, Qapıcıq sözü də Nuh hadisəsi ilə səsləşir. Kiçik Qafqazın və Gəmiqaya silsiləsinin ən yüksək zirvəsi sayılan Qapıcıq nöqtəsi məna etibarilə Nuh peyğəmbər üçün açılmış kiçik qapı, giriş yeri kimi başa düşülə bilər. Vaxtilə yazdığımız kimi, "Həzrəti Nuh peyğəmbər məhz Gəmiqayadakı bu qapıdan ana torpağa ayaq basmışdır. Qapıcıq zirvəsi bəşəriyyətin yeni həyatına, sivilizasiyaya açılan qapıdır".[25] Bəlkə də Həzrəti Nuh peyğəmbərin tufandan xilas olaraq bu qapıdan yerə enməsindən sonra həmin yer o hadisəyə uyğun olaraq Qapıcıq adlandırılmışdır. Baca bulağı və Qapıcıq haqqındakı fərziyyələrimiz Nuhun tufanı hadisəsi ilə bağlı proseslərə tam uyğun gəlir. Nəbi yurdu, Qaranquş yaylağı, Xəzər obası toponimlərilə əlaqədar yozumlar Baca bulağı və Qapıcığa aid mülahizələri tamamlayır.

Haçadağ – Naxçıvan ərazisində Nuhun əfsanəvi gəmisinin yarıb keçdiyi dağın adıdır. Xalq arasında Haça dağa İlan dağ da deyirlər. Rəvayətə görə bu dağın və ona yaxın olan, Cənubi Azərbaycanın Ordubad rayonu ilə sərhəddində yerləşən Kəmki dağının adlarını Nuh peyğəmbər qoymuşdur: "Nuhun gəmisi hər yerdə sulardan sakit keçir. Təkcə bir dağdan keçəndə gəmi bir az ilişir. Nuh deyir: İnan ki, dağdır. Ona görə də bu dağın adı İlan dağı qalır.

Nuhun gəmisi xeyli aralıda yenə də çətinliyə düşür. Nuh deyir: Bu dağ o dağdan kəm deyil. Bu sözə görə o dağın adı Kəmki olur".[26]

Beləliklə, Dünya tufanından sonra Naxçıvan ərazisindəki məskunlaşma dəniz səviyyəsindən 3906 metr yüksəklikdə olan Qapıcıq zirvə-

sindən, Baca bulağından üzü aşağı Nəbi yurduna və Qaranquş yaylağına, oradan Xəzər obasına tərəf uzanıb gəlmişdir. Ordubad rayonundakı Nəsirvaz kəndi ilə Qaranquş yaylağı arasında yerləşdiyi ehtimal edilən qədim Nuhdaban yaşayış yeri oturaq həyatın başlanğıcıdır. Nuhdaban - həzrəti Nuh peyğəmbərin yaylaq, oba həyatından, müvəqqəti, mövsümi yaşayış tərzindən nisbətən oturaq həyata keçidinin nişanəsi olan insan məskənidir. Naxçıvandan toplanmış folklor nümunəsində bu yaşayış yerinin yaranması haqqında aşağıdakı məlumat vardır: "Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı. Ayağı torpağa gələndə pəncəsi yox, dabanı yerə dəydi. Oğulları həmin yerdə yurd saldılar, adına da Nuhdaban dedilər".[27]

Fikrimizcə, Naxçıvan - Nuhçıxan Nuhdabandan başlanır. Nuhdaban Dünya tufanından sonrakı ilkin sivilizasiyanın birinci oturaq məntəqəsidir. Nuhdabana yaxın ərazidə yerləşən Nəsirvaz kəndinin adı da Nuh peyğəmbər əhvalatı ilə səsləşən motivləri özündə cəmləşdirir. Bu sözün mahiyyətindən bəhs edənlər "Bilqamıs" dastanına istinad edərək həmin toponimdə Nuhla, əfsanəvi gəmi ilə bağlı motivlərin olduğunu iddia edirlər.[28] Bu yolla həyat, məskunlaşma Nuhdabandan Nəsirvaza, sonra isə indiki Naxçıvan şəhərinə, Nuhçıxana doğru inkişaf etmişdir. Fərziyyəyə, əsatirə görə Nuh peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuşdur.[29] Ulu peyğəmbərin məzarı Naxçıvan şəhərindədir. XX əsrin əvvəllərində görkəmli rəssam Bəhruz Kəngərli naturadan Nuhun məzarını yağlı boya ilə kətan üzərinə köçürmüşdür. Naxçıvan şəhərinin adı da Nuhçıxan sözündən əmələ gəlmişdir.[30]

Bizə görə, Naxçıvan şəhərinin yaranmasının əsas səbəblərindən biri də şəhərətrafı ərazidə duz mədənlərinin olması ilə bağlıdır. Mənbələrdə Naxçıvan ərazisində duzçıxarmanın da əsasının Nuh peyğəmbər tərəfindən qoyulduğu öz əksini tapmışdır. XIX əsrə aid rus mənbələrindən birində deyilir ki: "xalq arasında Nuhun Naxçıvan duz mədənlərində ilk çalışanlardan biri kimi fəaliyyəti haqqında rəvayət mövcuddur".[31]

Mənbələrdə Naxçıvanda duzçıxarma işinin eramızdan üç min il əvvəl başlandığı qeyd edilir.[32] Naxçıvan duz mədənləri ərazisindən daş baltaların tapılması[33] da burada şəhərtipli yaşayışın qədimliyini göstərir. Tədqiqatçılar Naxçıvandan tapılmış daş baltaları Neolit dövrünə

aid edirlər.[34] Fikrimizcə, duzçıxarma ilə əlaqədar olan qazma, daşınma, emal, satış, mübadilə kimi proseslər Naxçıvanda şəhərtipli yaşayışın əsasına çevrilmişdir. Duz mədənlərinin əsaslı şəkildə tədqiqi Naxçıvan şəhərinin tarixinin müəyyən olunması ilə əlaqədar çox mətləblərə aydınlıq gətirə bilər.

Göründüyü kimi, dünya sivilizasiyaları üçün xarakterik olan əlamətlərin bir çoxu hələ Nuh əyyamından etibarən Naxçıvanda baş vermiş, yaranıb inkişaf etmişdir. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

**1. MƏSKUNLAŞMA:** Baca çeşmədən, Qapıcıq zirvəsindən Nəbi yurdu və Qaranquş yaylağına, Xəzər obasına, oradan da üzüaşağı, Nuhdaban yaşayış yerinə qədər uzanan məskunlaşma prosesləri uzun bir dövrü əhatə etmişdir. Burada insanlığın oturaq həyatının əsası qoyulmuşdur.

**2. İNSAN BİRLİKLƏRİNİN YARANMASI, ETNOBİRLİKLƏRİN FORMALAŞMASI VƏ YAYILMASI.** Nəbi yurdu, Xəzər obası, Qaranquş yaylağı anlayışlarının hər birində yurd salmaq, oba qurmaq mənaları ifadə olunur ki, bunlar da öz növbəsində insan birliklərinin mərkəzləşməsinin, cəmiyyət elementlərinin əmələ gəlməsinin göstəricilərindəndir. Tədqiqatçılar da Zaqafqaziyanın dağlıq ərazilərində Nuh nəslindən olan Nax tayfalarının məskən salıb yaşadıqları qənaətinə gəlmişlər.[35] Bu mənada dağətəyi ərazidə salınmış Nuhdaban yaşayış yeri də Nax tayfasının məskunlaşma prosesinin nəticəsində yaranmışdır.

**3. TƏSƏRRÜFAT HƏYATININ YARANMASI.** Məşhur Gəmiqaya rəsmlərində təsərrüfat həyatını əks etdirən süjetlər çoxluq təşkil edir. Bu rəsmlərdəki heyvandarlıq, ovçuluq, əkinçiliklə səsləşən motivlər regionda təsərrüfat həyatının formalaşması proseslərini aydın şəkildə əks etdirir. Bundan başqa, əsatirlərdə Nuh peyğəmbərin Naxçıvan şəhəri ətrafında üzüm bağları salmasına dair məlumatların olması[36] da bu ərazidə məskunlaşmadan sonrakı təsərrüfat həyatının mövcudluğunu təsdiqləyən faktdır. Bir sözlə, elmi fikirdə məşhur Gəmiqaya təsvirlərinin eramızdan əvvəl VI-I minilliklərdə qədim Naxçıvanın yüksək sivilizasiya yaratmış oturaq əkinçi-maldar tayfalarına məxsus olması[37] haqqındakı qənaətlər bu mədəniyyətin Azərbaycan xalqının həyatında nə qədər mühüm yer tutduğunu təsdiqləyir.

**4. SƏNAYELƏŞMƏ:** Hələ Nuh peyğəmbərin dövründən etibarən Naxçıvanda duzçıxarmanın başlanması regionda sənayenin də qədimliyini təsdiqləyir. Naxçıvandakı duz mağaraları yer üzündəki ən qədim mədənlərdən biridir. Duzdağ ərazisindən tapılmış daş baltalar da sənayeləşmə proseslərini əks etdirir. Çünki daş baltaların yonulub hazırlanması da, istifadəsi də sənaye əlamətlərini özündə cəmləşdirir. Vaxtilə tapılmış daş baltalar bu regionda insanlığın məskunlaşmasının və ilkin sənayetipli əmək fəaliyyətinin əlamətlərini özündə yaşadır: "Naxçıvanda qədim dövrün abidələrinə ilk növbədə Naxçıvan duz mədənlərindən tapılmış daş baltaları və daş çivləri aid etmək olar. Bunlar 1870-ci ildə duz mədənlərinin keçmiş nəzarətçisi cənab Beyer tərəfindən tapılmış, 2 ədədi Naxçıvan şəhər məktəbinə verilmiş, qalanlarının isə bir hissəsi Tiflis və Peterburq muzeylərinə göndərilmişdir. Duzçıxarma alətləri olan balta və çiv burada insanlığın ilkin məskunlaşma dövrlərindən, hələ dəmirdən istifadə etməyin məlum olmadığı daş dövründən xəbər verir. Digər tərəfdən isə bu alətlər tarixəqədərki dövrdən etibarən işə salınan duz mədənlərinin qədimliyini aydınlaşdırır".[38]

Göründüyü kimi, qədim dövrlərdə Naxçıvanda baş verən ilkin duzçıxarma proseslərində sənayeləşmənin yaranması, şəhərtipli yaşayış və fəaliyyət sahələrinin formalaşması üçün real imkanlar mövcud idi.

**5. ŞƏHƏRLƏŞMƏ:** Naxçıvan şəhərinin qədim tarixə malik olması regionda şəhərsalmanın sivilizasiyadan sonrakı ilkin mədəniyyətlərlə səsləşdiyini göstərir. Naxçıvan - həzrəti Nuhun əsasını qoyduğu, yaxud da onun adına yaradılan şəhər kimi mühüm əhəmiyyət kəsb edir. Bu şəhərin adını bildirən Nuhçıxan və Naxçıvan sözlərinin səsləşməsi sadəcə fonetik hadisə olmayıb, Həzrəti Nuh peyğəmbərlə, Dünya tufanından sonrakı hadisələrlə üzvi surətdə bağlıdır. Naxçıvan yer üzündəki ilk sivilizasiya şəhərlərindən biridir. Birinci və ikinci Kültəpə mədəniyyətləri haqqındakı elmi araşdırmalar bu ərazidə qədim şəhər mədəniyyəti ənənəsinin mövcudluğunu isbat etmişdir. Həmçinin ərazidə qala tipli şəhərlərin mövcudluğu, Oğlanqala, Qalacıq, Gavurqala, Çalxanqala kimi qalaşəhərlərin olması da burada şəhərsalmanın qədimliyi haqqında düşünməyə əsas verir.[39] Son illərdə Naxçıvan-Amerika birgə arxeoloji ekspedisiyasının 2009-cu ildə Şərur rayonu

ərazisindəki Oğlanqalada ilkin şəhər mədəniyyətinə dair qalıqları, maddi sübutları üzə çıxarması faktları da regionda qədim, ilkin şəhərsalmanın perspektivindən söz açmağa əsas verir. Bütün bunlar Naxçıvan şəhərinin sivilizasiyadan sonra yarandığını, Nuh peyğəmbərin adı ilə səsləşdiyini və Naxçıvan şəhərinin 5 min illik tarixə malik olduğunu yəqinləşdirir.[40]

Qeyd etdiyimiz xüsusiyyətlər Naxçıvan ərazisinin və Naxçıvan şəhərinin dünya sivilizasiya prosesləri ilə möhkəm surətdə səsləşdiyini əyani şəkildə nümayiş etdirir. Bundan başqa, Naxçıvan ərazisinin, yaxud Naxçıvan şəhərinin çay vadisi və çayarası sivilizasiyalarla oxşarlığına, bənzəyişinə dair də mülahizələr irəli sürmək mümkündür. Belə ki, bəlli olduğu kimi, Naxçıvan şəhəri regiondakı ən böyük çaylardan sayılan Araz çayının yaxınlığında yerləşir. Hətta vaxtilə Araz çayının Naxçıvan şəhərinin hüdudlarından keçməsinə dair məlumatlar da vardır.[41] Buna görə də Naxçıvana çay vadisi sivilizasiyanın nümunəsi kimi baxmaq mümkündür. Həmçinin coğrafi baxımdan Naxçıvanda çayarası sivilizasiyanın da əlamətləri müşahidə olunur. Məlum olduğu kimi, Naxçıvan ərazisi Azərbaycan coğrafiyası baxımından Kür çayı ilə Araz çayının arasında qərar tutur. Tarixçilər qədim Naxçıvanı Kür-Araz mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirirlər. Naxçıvan şəhəri həmçinin Araz çayı və Arpaçayla əhatə olunmuşdur. Geniş mənada isə Naxçıvan Dəclə-Fərat mədəniyyəti ilə Kür-Araz mədəniyyətinin qovşağındadır. Bu isə qədim Naxçıvan mədəniyyətini çayarası sivilizasiyaya da aid etməyə imkan yaradır. Bütün bunlar Naxçıvan ərazisinin, o cümlədən Naxçıvan şəhərinin dünya sivilizasiya proseslərinin üzvi tərkib hissəsi olduğunu bir daha təsdiq edir. Naxçıvan böyük sivilizasiyanın nişanəsidir. Regionda sonralar yüksək inkişaf tapmış zəngin mədəniyyət bu möhkəm təməl üzərində yüksəlmişdir.

## ƏDƏBİYYAT


1. Царева Т. Болшая иллюстрированная энциклопедия. Великие цивилизации мира. М., 2008, с. 3.
2. Яковец Ю.В. История цивилизации. М., 1997, с. 88-89.
3. Toynbi A. Tarixin dərk olunması. M., 2002, s. 41.

4. Ulusel R. Qloballaşma və türk sivilizasiyası. Bakı: Çaşıoğlu, 2005, s. 10.
5. Fərzəli Ə. Gəmiqaya-Qobustan mədəniyyəti. Bakı: Nurlan, 2008, s. 13-14.
6. Cəfərov N. Türk dünyası: xaos və kosmos. Bakı: BDU-nun nəşriyyatı, 1998; yenə onun: Genezisdən tipologiya. Bakı: BDU, 1999 və s.
7. Мифы мира / под. ред. Г.Каширинй, Т.Евсеевой. М.: Мир энциклопедий Аванта Астрель, 2007, с. 13.
8. Древние цивилизации (коллектив). М., Мысль, 1989, с. 7.
9. Türk dünyasında Novruz ikinci bilgi şöləni bildiriləri. Türkiyə, Ankara, 1996, s. 170.
10. Kaya H., Bektaşi Ə. Türkiyə. İstanbul, 1996, s. 399.
11. Həbibbəyli İ. Novruz bayramı: nə vaxt, necə? "Sovet Naxçıvanı" qəz., 1989, 3 mart № 53 (15.293).
12. Novruz bayramı ensiklopediyası tərtib edənlər B.Abdulla, T.Babayev. Bakı: Şərq-Qərb, 2008, s. 140.
13. Naxçıvan folkloru tərtib edənlər T.Fərzəliyev, M.Qasımlı. Bakı: 1994, s. 68.
14. Novruz və rənglər. Türkiyə, Ankara, 1996, s. 170.
15. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, s. 68-69.
16. Yurdsevər M.V. Nevruz, Nevruz // Emel, 1973, № 75.
17. Dədə A. Batı Trakya folkloru. Ankara, 1978, s. 123.
18. Rassonen H. Çuvaş sözlüyü. İstanbul, 1950, s. 94.
19. Turan Ə. Türk boylarında Novruz geleneyi / Ərciyəz, 1990, № 150, s. 2.
20. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, s. 70.
21. Qədirzadə Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıl dağ, 2008, s. 122.
22. Azərbaycan folkloru (tərtib edəni Bəhlul Abdulla). Bakı: Şərq-Qərb, 2005, s. 221.
23. Seyidov A. Gəmiqaya (toponimlər, qədim köç yolları). Bakı: 2003, s. 32.
24. Qədirzadə Q. Nuh peyğəmbər, dünya Tufanı və Naxçıvan. Naxçıvan: Qızıl dağ, 2008. s. 135.
25. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, s. 603.
26. Əsatirlər, əfsanələr və rəvayətlər / tərtibçilər Arif Acaloğlu, Cəlal Bəydili. Bakı: Şərq-Qərb, 2005, s. 41.
27. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, s. 70.
28. Rzayev F. Nuhun tufanı, tarixi faktlar və ermənilərin növbəti oğurluğu // NDU-nun Xəbərləri, № 17, 2005, s. 10-11.

29. К.А.Никитин. Город Нахичевань и Нахичеванский уездь // Тифлис, СМОМПК, 1882, № 2, с. 111.
30. Həbibbəyli İ. Nuhçıxan-Naxçıvan / Naxçıvan, 2009, № 19, s. 35-43.
31. К.А.Никитин. Город Нахичевань и Нахичеванский уездь // Тифлис, СМОМПК, 1882, № 2, с. 110.
32. Шереметевский П. Нахичеванские соляные месторождения. Газ. "Кавказ", 1855, 16 март, № 22.
33. Гусейнов М.М. Каменные топоры из Нахичевани // ДАН Азербайджана, 1956, № 2, т. 121.
34. Qaşqay S. Qədim Naxçıvanın maddi-mədəniyyəti / Naxçıvan Muxtar Respublikası (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 16.
35. Силейманера Д. Потомки Ноя: из прошлого в будущее. Габала: Асиман, 2001, с. 36.
36. Никитин К.А.. Город Нахичевань и Нахичеванский уездь // Тифлис, СМОМПК, 1882, № 2, с. 111.
37. Əliyev V. Gəmiqaya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, s. 10.
38. Никитин К.А.. Город Нахичевань и Нахичеванский уездь // Тифлис, СМОМПК, 1882, № 2, с. 115.
39. Bağırov R. Naxçıvanın qədim qala-şəhər tipli yaşayış yerləri və müdafiə istehkamları (tarix elm. nam. ...dis. avtoref.) Naxçıvan, 2003.
40. Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı – beş min il / Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Naxçıvan, 2007, s. 20-27.
41. Ön və Orta Asiya türklərinin tarixinə dair dörd anonim mənbə / tərcüməçilər C.Bayramlı, V.Əliyev. Bakı: Nurlan, 2003, s. 135.

**İsmayıl HACIYEV**
*AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor*

## 4.2. TARİXİ MƏNBƏLƏR NAXÇIVAN ŞƏHƏRİNDƏKİ NUH TÜRBƏSİ HAQQINDA

Qədim Azərbaycan torpağı, bəşər sivilizasiyasının beşiklərindən, dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmış Naxçıvan diyarı həm də dünyanın ən qədim insan məskəni kimi tanınmışdır. Daş dövründən Naxçıvan ərazisində ibtidai insanlar yaşamışlar. Naxçıvanda daş dövrü mədəniyyətinin izlərinə Qazma, Kilid, Daşqala mağaralarında, Batabat yaylağında, Naxçıvan çayı vadisindəki II Kültəpə qədim yaşayış yeri yaxınlığında, Əlincə çayı vadisindəki Ərməmməd piri və onun ətrafında və b. ərazilərdə rast gəlinir.

Naxçıvan diyarı öz qədimliyi və bu ərazidən tapılmış çoxlu maddi-mədəniyyət nümunələri ilə də diqqəti cəlb edir. Əldə edilmiş qaşov tipli obsidian alətlər, çapacaqlar, daş lövhələr, itiuclu qaşovlar, daş bıçaqlar, daş çəkiclər bu ərazidə ən qədim insanların yaşadığını təsdiq edir. Qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan Naxçıvan tarixi inkişafın gedişində dərin iz qoymuş və diyarda xalqımızın zəngin tarixi və mədəni irsi yaranmış və formalaşmışdır.

Naxçıvanın qədimliyini sübut edən mühüm amillərdən biri də bu yurdun Nuh peyğəmbər və tərəfdarları ilə bağlı olmasıdır. Bununla əlaqədar "...xalq arasında geniş yayılmış rəvayətə görə, "Naxçıvan" toponimi Nuh peyğəmbərlə, daha doğrusu, "Dünya tufanı" ilə bağlı olub, "Nuhçuvan" - "Nuh tərəfdarlarının məskəni", "Nuhun diyarı" deməkdir" (5, s. 9). Naxçıvanın təşəkkül tarixindən bəhs edən yunan, ərəb, fars, türk qaynaqlarında, orta əsrlər dövrünə aid salnamələrdə də Naxçıvanın "Nuhçıxan", "Nuhcahan", yəni Nuh şəhəri adlandırılması haqqında məlumatlara həddindən çox rast gəlinir. Xalq arasında yaşayan rəvayətlərdə Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvan bəşər övladının ilk beşiyi, insan nəslinin ulu əcdadı hesab edilən Nuhun dayanacaq yerlərindən biri kimi təsvir edilir və onun adını daşıyır. Qeyd etməliyik ki, Naxçıvan toponiminin

izahı ilə bağlı çoxlu sayda məlumatlar mövcuddur ki, bunlardan bir qismi də qeyd etdiyimiz kimi Nuh peyğəmbərin adı ilə əlaqələndirilir.

"Ümumdünya tufanı" barədə şumer rəvayətlərinin ilk yazılı variantlarına əsasən Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzi olmuşdur. Qədim şumer əfsanələri, "Bilqamış" haqqında akkad eposunun yaranma dövrü ilə Naxçıvanın meydanagəlmə tarixi arasında tarixi əlaqəyə əsaslanaraq, habelə qədim yazılı mənbələrə istinad edərək, alimlər belə hesab edirlər ki, Naxçıvan ərazisi də bunlar içərisində "Ümumdünya tufanı"na düçar olmuş və Nuhun gəmisi quruya bu ərazidə çıxmışdır. Nuh ona iman gətirmiş insanlarla birlikdə məhz burada məskən salmışdır. Bunu dolayısı ilə həm də o sübut edir ki, yer üzərində digər elə bir ərazi yoxdur ki, orada Naxçıvandakı qədər Nuh peyğəmbərin adı ilə bağlı toponimlər olsun. Belə ki, regionda Nuhdaban, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhgədik, Nürgüt, Nəbi yurdu, Qaranquş yaylağı, Peyğəmbərayağı və onlarla bu kimi yer adlarının mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamasının daha bir əyani sübutudur. "Cənubi Azərbaycanın Naxçıvandan çox da uzaq olmayan ərazilərində tərkibində Nuh elementi olan Nəhənd, Nehran, Nehram, Nəhqan kimi toponimlərin olması həmin ehtimalı gerçəkliyə daha da yaxınlaşdırır" (2009, 12, 15 aprel).

Toponimlərlə yanaşı, Naxçıvan və onun ətraf ərazilərində Nuh peyğəmbər və Dünya tufanı hadisəsini yaşadan əfsanə və rəvayətlər də çoxluq təşkil edir. Haqlı olaraq qeyd edilir ki, "Dünya tufanı hadisəsinin əhatə etdiyi coğrafiyada, heç bir ərazidə Naxçıvandakı qədər bu hadisə ilə səsləşən çoxsaylı mifoloji motivlərin, əfsanə və rəvayətlərin, etnoqrafik materialların olması qeydə alınmamışdır" (2009, 12, 15 aprel).

Naxçıvan ərazisi həm də tarix və mədəniyyət abidələri ilə zəngindir. "Ərazicə kiçik, məzmunca böyük olan Naxçıvanda" (Ə.Şərif) dünya, ölkə və yerli əhəmiyyətli yüzlərlə abidə qeydə alınmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, "Naxçıvan ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünyamiqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm də adət-ənənələrini göstərən abidələrdir" [8]. Bu abidələr dövlət tərəfindən

qorunur və öyrənilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" sərəncam (2005, 6 dekabr) vermişdir. Bu sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan ərazisindəki tarix və mədəniyyət abidələri tədqiqata cəlb edilmiş və pasportlaşdırılmışdır. 2006-2007-ci illərdə Naxçıvan MR ərazisində 1173 abidə qeydə alınmışdır ki, bunun da 600-ə yaxını dünya və ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələridir [7, s. 5].

Belə abidələrdən biri də Naxçıvan şəhərindəki Köhnəqala adlanan ərazidə yerləşən Nuh peyğəmbərin məzarüstü türbəsidir. "Müsəlman türklərinin böyük hörmət və ehtiram bəslədiyi bu məzar Naxçıvanda Sovet hakimiyyəti qurulanadək, bölgənin məşhur ziyarətgahlarından biri idi. Ancaq Sovet hakimiyyəti illərində Azərbaycanın digər məşhur inam yerləri kimi, bu müqəddəs yer-qəbir də xalqa zorla unutdurulmuş, üzərindəki türbə özülünədək dağıdılmışdır" [10, s. 24].

Son illərə qədər əhalinin böyük əksəriyyətinin Nuh türbəsi haqqında məlumatı yox idi və onun yerləşdiyi yer də məlum deyildi. Milli-mənəvi dəyərlərimizə, maddi-mədəniyyət nümunələrimizə ehtiramla yanaşan və bu sahədə qayğısını əsirgəməyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun tapşırığı ilə türbənin yeri müəyyənləşdirilmiş, həmin ərazidə arxeoloji tədqiqat işləri aparılmışdır. Türbənin bünövrəsi aşkar olunduqdan və arxeoloji tədqiqat işləri başa çatdıqdan sonra Naxçıvan MR Ali Məclisinin Sədri 28 iyun 2006-cı il tarixdə "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalamışdır [8, 2006, 29 iyun].

Sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan MR Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat İdarəsi Nuh peyğəmbərin məzarüstü türbəsinin layihəsini hazırlamış, bərpa və abadlıq işlərinə başlamışdır. Artıq burada bərpa işləri başa çatmış, Naxçıvanın memarlıq abidələri sırasına yeni bir türbə daxil olmuşdur. Vaxtı ilə dağıdılan Nuh peyğəmbərin məzarüstü türbəsi yüksək səviyyədə, Naxçıvan memarlıq üslubuna uyğun olaraq bərpa edilmişdir.

Nuh peyğəmbərin məzarüstü türbəsi, onun yerləşdiyi ərazi tikilmə tarixi, oynadığı rol və əhəmiyyəti haqqında xalq arasında və bir sıra tarixi qaynaqlarda məlumatlar vardır. Həzrəti Nuh peyğəmbərin, onun ailə üzvlərinin, nəsli və tərəfdarlarının Naxçıvanda və bu bölgəyə yaxın ərazilərdə yaşaması, fəaliyyət göstərmələri və qəbirlərinin də burada olması haqqında bilgilər vardır. Xalq arasında yayılan məlumatlara görə, Naxçıvan şəhərinin cənubunda Nuh peyğəmbərin, şimal-qərbində bacısının, Cənubi Azərbaycanın Mərənd şəhərində isə arvadı Nuhəmzənin (Nuhəmzərin) və anasının qəbirləri yerləşir [2, s. 110-111].

Yuxarıda qeyd olunan tarixi faktlar tarixi qaynaqlarla da təsdiq olunur. Yəhudi alimi İosif Flavi Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Qədim yunan alimi Klavdi Ptolemey ilk dəfə Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi qeyd etmişdir. Ptolemey Naxçıvan şəhərinin adını dünyanın yeddi böyük şəhəri ilə bir sırada çəkmişdir. XVI əsrin görkəmli ərəb alimi və coğrafiyaçısı Əl-Əşrəfi hələ o dövrdə nəinki Nuhun qəbrinin, hətta gəmisinin qalıqlarının Naxçıvanda olmasını yazmışdır [10, s. 25].

Nuhun qəbrinin Naxçıvanda olması haqqında bir sıra əcnəbi səyyahların qeydlərində, rus müəlliflərinin əsərlərində maraqlı məlumatlar verilmişdir. XVII əsrin 30-60-cı illərində şərq ölkələrinə dəfələrlə səfərə çıxmış fransız səyyahı və taciri Jan Batist Tavernye bir neçə dəfə Azərbaycanda olmuş və 1664-cü ildə son səfərində Naxçıvanda, Qarabağlar şəhərində, Culfada olmuş və öz müşahidələrini qələmə almışdır. Tavernye Naxçıvan şəhəri barədə yazır: "Naxçıvan dünyanın ən qədim şəhərlərindən biridir. Nuh gəmisinin yan aldığı dağın 3 livliyində bir şəhər bina edilibdir. Naxçıvan olduqca böyük şəhər idi. Lakin Osmanlı sultanı Murad oranı dağıtdırmışdır" [9, s. 88-89]. Bölgənin bir sıra yaşayış məskənləri, eləcə də şəhərləri haqqında məlumatlar verən səyyah Naxçıvan şəhərində olarkən buranın qədim abidələri arasında böyük bir məscid binasının qalıqlarını da müşahidə etmişdir. Səyyah yazır ki, "bu Asiyanın ən yaxşı və ən görkəmli məscidlərindən idi. Deyirlər ki, Nuhun qəbrinə yadigar olaraq bina edilmişdir" [9, s. 90]. Tavernye sözünə davam edərək yazır: "Çox ehtimal ki, ... Teymurun tikdirdiyi binadır ki, İranı fəth edərkən

onu peyğəmbərin qəbrinə yadigar olaraq tikdirmişdir" [9, s. 90].

Tavernyenin qeyd etdiyimiz və etmədiyimiz qeydlərindən Naxçıvan şəhərindəki iki abidə haqqında - Nuh peyğəmbərin türbəsi və Came məscidi haqqında məlumat əldə edirik. Tavernye Nuh peyğəmbərin Naxçıvan şəhərindəki qəbrini təsdiq etsə də, ona yadigar olaraq tikdirilmiş məscid haqqında dəqiq məlumat verməmişdir. "Səyyahın Naxçıvan şəhərində gördüyü və haqqında məlumat verdiyi məscid Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin XII yüzillikdə inşa etdiyi Came məscididir" [10, s. 25] ki, o bunu Əmir Teymurla əlaqələndirir.

Başqa bir fransız coğrafiyaşünası və səyyahı olan Dübüa-De-Monpere də öz yol qeydlərində Naxçıvan, Culfa, Ordubad və b. şəhərlər və yaşayış yerləri haqqında çox maraqlı fikirlər söyləmişdir. Şərur düzündən Naxçıvana doğru hərəkət edən səyyah yazır: "Nuh şəhəri də buradadır. "Nuh" sözü ilk yaşayış məskəni deməkdir". Dübua de Monpere şəhər qalasından və burada yerləşən Nuhun qəbrindən də bəhs edərək bildirir ki, "Dağılmış divar qalıqları bir qəbri sanki qoruyub saxlayır. Buraya hər gün müxtəlif millətlərdən, bizim hamımızın ümumi atası sayılan Nuha ehtiram etmək üçün dəstə-dəstə axışıb gələnlər çoxdur. Bu məqbərənin tikilmə üslubu və materialı Naxçıvanın digər abidələrinə bənzəyir. Rəvayətə görə, həmin türbə sonralar padşahların hakimiyyəti dövründə bərpa edilmişdir".

XIX əsrin 20-ci illərində Naxçıvan xanlığı çar Rusiyası tərəfindən işğal edildi və 1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq bölgəyə xeyli sayda ermənilər köçürüldü. Həm də rus çarizmi işğal etdiyi əraziləri öyrənmək üçün ora tədqiqatçılar, mütəxəssislər göndərirdi. Çox vaxt həmin tədqiqatçılara bələdçilik və tərcüməçilik edən ermənilər fakt və hadisələri öz maraqlarına uyğun şəkildə rus tədqiqatçılarına çatdırırdı. Onlar da bu hadisələrin, faktların mahiyyətində dərinə getmir, çox halda ermənilərdən eşitdiklərini olduğu kimi qələmə alırdılar. Lakin həmin tədqiqatçılar öz müşahidələrini və gördüklərini də əsərlərində yazırdılar. XIX əsrdə Naxçıvanda olan rus tədqiqatçıları öz əsərlərini erməni bələdçilərinin verdikləri məlumatlar əsasında yazdıqlarından təhriflərə və səhvlərə yol vermişdilər. Məsələn, çar Rusiyasınn işğalından sonra Naxçı-

vanda olmuş Vasili Qriqoryev 1833-cü ildə Naxçıvan haqqında kitab nəşr etdirmiş, burada bir sıra qeyri-obyektiv fikirlər söyləmişdir. V.Qriqoryev yazır ki, ermənilər səyyahlara Naxçıvan şəhərinin cənub tərəfində qədim olmayan hansı isə bir tikilinin kərpic divarının küncünü göstərib onu Nuhun qəbri kimi qələmə verirlər və inandırmağa çalışırlar ki, burada Nuhun qəbri üstündə nə vaxt isə yuxarı hissəsi dağılmış iki mərtəbəli kilsə olmuşdur [17, s. 330]. Göründüyü kimi, V.Qriqoryev erməni bələdçisinin məlumatlarına üstünlük vermiş və bu türbəni kilsə kimi göstərmişdir. Tədqiqatçılardan H.Səfərli haqlı olaraq göstərmişdir ki, "...türbənin quruluşu, onun iki təbəqədən - yeraltı sərdabədən və yerüstü türbədən ibarət olması səlcuq memarlığından qaynaqlanan Naxçıvan memarlıq abidələri, ümumiyyətlə türk memarlığı üçün xarakterik cəhətdir və bunun kilsə adlandırılması cəfəngiyatdan başqa bir şey deyildir" [11, s. 26]. Digər tərəfdən, bir sıra müəlliflərin verdiyi məlumatlardan, Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin əsərlərindən və 2005-ci ildə aparılan arxeoloji tədqiqatların nəticəsindən məlum olur ki, "Nuhun qəbri" olan türbə səkkizbucaqlı sərdabə tipindədir. "Nuh türbəsi" adlandırılan abidəni bir gəlmə belə təsvir etmişdi: "...içərisinə pilləkənlərlə enilən məbədin daxili tağları ortadakı daş sütuna söykənən dairəvi mağaraya bənzəyir" [5, s. 90]. Göründüyü kimi, burada da haqqında danışılan türbənin sərdabəyə bənzər olduğu göstərilir.

Nuhun qəbrinin Naxçıvanda olması haqqında qeyd etdiyimiz müəlliflərlə yanaşı, İ.Şopen, K.A.Nikitin, V.M.Sısoyev və b. tədqiqatçılar da məlumat vermişlər. Onlar "Nuhun qəbri" adlı yerin fotoşəklini də çap etdirmişlər. İ.Şopen 1852-ci ildə nəşr etdiyi kitabında [23, s. 30] bu qəbirdən bəhs etmiş, Nuhla bağlı bir sıra məlumatlar vermiş və göstərmişdir ki, əhali Naxçıvan-İrəvan yolunun kənarında Nuhun bacısının qəbrinin olduğu yeri göstərir [23, s. 321].

XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində müfəttiş-müəllim işləmiş K.A.Nikitin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı əsərində "...Naxçıvan mahalının tarixi, coğrafi mövqeyi, demoqrafik inkişaf səviyyəsi, qədim abidələri, iqtisadi vəziyyəti, flora və faunası, yerli əhalinin əsas məşğuliyyət sahələri" [13] ilə yanaşı, Nuhla bağlı maraqlı məlumatlar vermişdir. K.A.Nikitin Nuh tufanının Naxçıvanla

əlaqədar olması barədə geniş məlumat verərək yazmışdır: "Rəvayətə görə, əfsanəvi tufandan sonra Ağrı dağı Nuh peyğəmbəri gəmisi ilə birlikdə qəbul etmişdir... Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarını və türbəsinin yerini göstərirlər... Hətta Nuh peyğəmbərin Naxçıvandakı duz karxanasında fəaliyyəti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. O, burada ilk çalışanlardan biri olmuşdur. Nuh... Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir. Nuh peyğəmbər və onun ailəsi uzun müddət Naxçıvanda yaşamışdır. Rəvayətə görə, insan nəsli buradan yayılmışdır. Nuh peyğəmbər özü, bacısı və ailənin digər üzvləri Naxçıvanda vəfat etmiş və burada dəfn olunmuşlar" [18].

Müəllif həmin əsərində Nuhun qəbri haqqında da geniş məlumat verir: "...Nuhun qəbri şəhərin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi VIII yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o yerdən qalxan çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, çətinliklə keçmək mümkün olan, ortadan daş dirəklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir... Həmin dirəyin altında ulu Nuhun cənazəsi yerləşir..." [18, s. 6-7].

K.A.Nikitin Nuh peyğəmbərin qəbri ilə yanaşı, onun ailə üzvlərinin qəbirləri haqqında da bəhs etmişdir: "Nuhun bacısının məzarı şəhərdən İrəvana tərəf çıxan yolun kənarındakı uca təpədə yerləşir... Nuhun arvadı Culfadan Təbrizə gedən yolun 80-90 verstliyində yerləşən Mərənd şəhərində vəfat etmişdir" [18, s. 7-8].

Göründüyü kimi, K.A.Nikitinin məlumatlarında başqa müəlliflərin fikirləri ilə üst-üstə düşən və reallığı əks etdirən faktlar üstünlük təşkil edir. Bununla yanaşı, onun da məlumatlarında tərcüməçi və bələdçilərin qeyri-obyektiv fikirlərinə kor-koranə istinadlar vardır.

XX əsrin tədqiqatçılarından olan V.M.Sısoyev, İ.M.Dyakonov, K.N.Smirnov və b. müəlliflərin əsərlərində də "Ümumdünya tufanı",

Nuh peyğəmbər və onun qəbri haqqında maraqlı məlumatlar verilib.

Rus tədqiqatçısı V.M.Sısoyev 1926-cı ilin yayında Naxçıvana elmi ekspedisiyaya göndərilmiş, abidələr haqqında məlumatlar toplamış, Nuh peyğəmbərin qəbrini müşahidə etmiş və hesabat hazırlamışdır. Müəllif həmin hesabatda yazır ki, Naxçıvan şəhərinin cənub-şərq qurtaracağında, türk qəbiristanlığının yaxınlığında Nuhun qəbri vardır. V.M.Sısoyev Nuhun türbəsini təsvir edərkən onun mərkəzində diametri 2 metrə çatan səkkizguşəli sütun olduğunu göstərmişdir. Təsvir edilən bu əlamətlər yeraltı və yerüstü hissədən ibarət olan türk türbələri üçün xarakterikdir. "Nuhun qəbri olan yerdə aparılan tədqiqatlar zamanı aşkara çıxarılan tikinti qalıqları burada Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edir" [9].

V.M.Sısoyevin yazdığına görə müsəlmanlar bu yeri "Pir" adlandırır. Müəllif abidənin pir olduğunu və müsəlman-türklər tərəfindən ziyarət olunduğunu açıq-aşkar etiraf etmişdir [20, s. 104]. Qeyd etməliyik ki, bu faktı Nuhun qəbri ilə bağlı məlumat verən bir sıra başqa müəlliflər də təsdiq edirlər.

Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində və Naxçıvan Muxtar Respublikasının Dövlət Tarix Muzeyində mühafizə olunur. 2005-ci ildə Nuh peyğəmbərin qəbrinin yerinin dəqiqləşdirilməsində görkəmli ziyalı Lətif Hüseynzadənin məlumatları ilə yanaşı Bəhruz Kəngərlinin həmin rəsmləri kömək etmişdir. Bu rəsmlər həm də türbənin hansı quruluşa malik olduğunu təsdiq edir.

XX əsrin 30-cu illərində Naxçıvan xanlarının, xüsusilə Kəngərlilərin əlyazma sənədləri ilə tanış olmaq üçün Naxçıvana gəlmiş rus alimi K.N.Smirnov da Nuhun türbəsi ilə maraqlanmış və Naxçıvanın tarix və etnoqrafiyasına həsr etdiyi kitabında bu abidə haqqında yazır: "Qədim Abbasabad qalasının yaxınlığında Nuhun qəbri yerləşir: Nuhdaban. Bütün naxçıvanlıların bildiyi əfsanədə buranın Nuhun gəmisinin ilk dayanacağı olduğu və şəhərin adının da buradan götürüldüyü göstərilir. Nuhun qəbri öz-özlüyündə o qədər də maraq kəsb

etmir. Naxçıvan arxiv sənədlərindəki məlumatlarda bu qəbrin yaşının 4900 il olması faktı o qədər də inandırıcı görünmür. Nuhdabanı ziyarət edənlər o qədər çox deyil" [19, s. 99].

K.N.Smirnovun Naxçıvana səfəri 1934-cü ildə olmuşdur. Məlum olduğu kimi, keçən əsrin 30-cu illəri totalitar rejimin artdığı, şəxsiyyətə pərəstişin və repressiyaların gücləndiyi bir dövr idi. Bu illərdə əhali nəinki ziyarətlərə gedə bilmirdi, həmin ziyarət yerləri dağıdılır, ya da başqa məqsədlər üçün istifadə edilirdi.

Nuhun qəbrinin "Nuhdaban" ("Nuhtaban") adlanmasını Lətif Hüseynzadə də bir yazısında təsdiq edir: "...Peyğəmbərin "Nuhdaban" və ya "Nuhtaban" adlı məzarı və "Əshabi-Kəhf" mağaraları kimi ziyarətgah olan məkanlar Naxçıvandadır... Nuh Naxçıvanda ölmüş və burada da dəfn edilmişdir. Bu məzar müqəddəs bir məkan kimi "Nuhtaban" adlanmışdır ("İşıq saçan" deməkdir). Vaxtı ilə hər il may-iyun aylarında Nuhtabanda böyük bir mərasim keçirilərdi..." [Nuhtaban Naxçıvandır. "Nüh yurdu" qəz., 1996, 22 iyun].

Tarixi mənbələrdə Nuhun türbəsi haqqında məlumatların olmasına baxmayaraq, bu türbənin hansı dövrə aid olması barədə məlumatlar həm çox səthidir, həm də qeyri-dəqiqdir. K.N.Smirnov qəbrin yaşının 4900 il olmasının inandırıcı olmadığını, K.A.Nikitin məzarın VIII əsrdə bərpa edildiyini yazmışdır. Bəzi tədqiqatçılar türbənin memarlıq elementlərinə əsasən onun XII əsrin I yarısına, bəziləri isə XIV əsrə aid olduğunu göstərmişlər. Lakin bir həqiqət məlumdur ki, Nuhun türbəsi hansı dövrdə tikilməsindən asılı olmayaraq müxtəlif səbəblərdən dağıdılmış, lakin yenidən bərpa edilmişdir. Yenidən bərpa olunmuş Nuh peyğəmbərin məzarüstü türbəsi xalqımızın öz tarixi keçmişinə bəslədiyi münasibəti əyani şəkildə göstərməklə, həm də bərpaların ən mükəmməli və Naxçıvan memarlıq incisinə ən layiqlisidir.

Ölkə ziyalıları bütün XX əsr boyu, xüsusilə də son 40 ildə bu problemlə bağlı tədqiqatlar aparmış, fikir və mülahizələrini söyləmişlər. Müstəqillik ərəfəsində və dövründə isə Gəmiqaya, "Ümumdünya tufanı", Nuh peyğəmbər, bunların Naxçıvanla əlaqəsi, Nuh peyğəmbərin qəbri, onun olduğu yerlə bağlı araşdırmalar aparılmışdır. Tədqiqatçılardan İ.Həbibbəyli, Ə.Hüseyni, A.Abbasov, İ.Nəri-

manov, S.Babayev, V.Əliyev, R.Məmmədov, L.Hüseynzadə, R.Sultanov, Q.Qədirzadə, V.Baxşəliyev, Ə.Quliyev, H.Səfərli, A.Seyidov, V.Kərimov, Y.Səfərov, N.Müseyibli, S.Aşurov, Ə.Bədəlov, Q.Ağayev, Ə.Fərzəli, F.Rzayev, N.Bababəyli, A.Qədimov, N.Alıyev və b. bəhs olunan problemə kitablar, monoqrafiyalar və elmi məqalələr həsr etmişlər. Əldə olunan elmi nəticələr "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsinə imkan vermişdir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V. Nuh peyğəmbərin qəbri Naxçıvandadır. "Yeni Azərbaycan" qəz., 2005, 24 noyabr.
2. Baxşəliyev V. Naxçıvanda Nuhla bağlı əfsanələr. Nuhun qəbri və burada aparılan arxeoloji qazıntılar. "Şərq qapısı" qəz., 2005, 8 dekabr.
3. Qədim A. Naxçıvan Nuhun yurdudur. Bakı: Elm, 2003, 172 s.
4. Qədirzadə H.Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıl Dağ, 2008, 192 s.
5. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
6. Mahmudov Y., Şükürov K. Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 216 s.
7. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
8. Naxçıvan abidələri ensiklopediyası. İstanbul: Bakanlar Medya, 2008, 520 s.
9. "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü tür bəsinin bərpa edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı, 28 iyun 2006-cı il. "Şərq qapısı" qəz., 2006, 29 iyun.
10. Onullahi S.M. Jan Batist Tavernye Naxçıvan haqqında / Naxçıvan Muxtar Respublikası-75. Bakı Universitetinin Xəbərlərinin xüsusi buraxılışı. Bakı: BDU, 1999, s. 87-93.
11. Səfərli H. Naxçıvan şəhərindəki Nuh türbəsi haqqında bəzi qeydlər // Təhsil ocağı, 2008, № 3-4, s. 24-31.
12. Sultanov R. Nuhun tufanı haqqında həqiqət. Bakı, 1971, 41 s.
13. Həbibbəyli İ. Nuhun qəbri haradadır? "Vətən səsi" qəz., 1991, 6 fevral.
14. Həbibbəyli İ. Nuhçıxan-Naxçıvan. "Şərq qapısı" qəz., 2009, 15 aprel.
15. Cəfərov Y. Bir əfsanənin mənşəyi // Elm və həyat, 1982, №10, s. 32-33.
16. Дьяконов. Шумерский эпос // БДУ, 1994, № 3.
17. Григорьев Б.Г. Статистическое описание Нахичеванской провинции. СПб., 1833, 264 с.

18. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд // СМОМПК, Тифлис, 1882, № 2, с. 109-142.
19. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.
20. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. АССР. Баку, 1929, с. 87-121.
21. Ptolomey K. Coğrafiya. II kitab, Budapeşt: K.Millerin nəşri, 1929.
22. Флавий И. Иудейские древности. СПб., 1990.
23. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852.

Qadir QƏDİRZADƏ
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru*

## 4.3. GƏMİYƏ GÖTÜRÜLMÜŞ HEYVANLAR, GƏMİQAYA TƏSVİRLƏRİ VƏ NAXÇIVANDAKI İNAMLARLA ORTAQ CƏHƏTLƏR

Nuh (ə.s.) və Dünya tufanının araşdırılmasında ciddi problemlərdən biri də gəmiyə kimlərin, hansı heyvanların, canlıların və toxumların götürülməsidir. Daha dəqiq desək, təbiətə, canlı aləmə və insanlığa münasibət məsələsidir. Qeyd edək ki, bizə qədər ayrı-ayrı müəlliflər problemi bu və ya digər cəhətdən araşdırmaqla müəyyən nəticələrə gəlmişlər. Onlar daha çox dini mənbələrə, xüsusən Bibliyaya əsaslanmışlar. Buna görə də bir sıra məsələlərdə birtərəfliliyə yol verilməklə mübahisəli cəhətlər meydana gəlmişdir. Hər şeydən öncə qaranlıq məqamlar gəmiyə kimlərin götürülməsi, minməsi ilə bağlıdır. Qədim tarixi mənbələrdə, Səmavi kitablarda və dini ədəbiyyatlarda bununla bağlı fərqli məlumatlar mövcuddur. Bura xalq arasında yayılmış rəvayətləri də əlavə etsək, problemin nə dərəcədə çətin olduğu ortaya çıxar. Uzun illər ancaq Bibliyaya əsaslanaraq hökm vermək böyük yanlışlıqlara səbəb olmuşdur. Digər çətinlik, başqa sözlə ifadə etsək, çatışmamazlıq tədqiqatlarda xalq arasında yayılmış, min illər boyu qorunub saxlanmış rəvayətlərin nəzərə alınmamasıdır. Bura yerli materialları, maddi və mənəvi dəlilləri də əlavə etsək, araşdırmaların hansı səviyyədə aparıldığı tam aydınlaşar. Avropa və Amerika araşdırıcıları arasında Bibliyaya əsaslanmaq, xristian təəssübkeşliyi, problemdən siyasi məqsədlər üçün istifadə edilməsi, Dünya tufanından sonrakı sivilizasiya məsələsinə birtərəfli baxış, tutarlı elmi dəlillərə söykənmədən bu inkişafı hansısa ayrıca etnik qrupa aid etmək, nəticədə əsassız ərazi iddiaları irəli sürməyə gətirib çıxarmışdır. Bibliyadakı Ararat/Ağrıdağ variantından istifadə edən müəlliflər az qala Nuh peyğəmbəri erməni dilində danışdırmağa çalışırlar. 150 ildən artıq vaxt sərf etməklərinə baxmayaraq, Ağrıdağda heç bir nəticə əldə edə bilməyən bir sıra araşdırıcılar Ağırlıq mərkəzini Urmiya gölü hövzəsinə yönəltməklə buranın Ermənistanın

mərkəzi, ürəyi olduğunu iddia edirlər. Deməli, onlar üçün məsələnin elmi tərəfindən çox siyasi tərəfi maraqlıdır. Gəmi harada dayanır, dayansın, ora Ermənistandır. Bu fikirlər özünü Devid Rolım 2002-ci ildə rus dilinə tərcümə edilmiş əsərində daha qabarıq şəkildə göstərir [10]. Lakin hansı coğrafi zonaya aparılmasından asılı olmayaraq, heç bir maddi sübut əldə edə bilməyən bir sıra araşdırıcılar zaman-zaman Naxçıvanla bağlı məsələləri gündəmə gətirməyə, buranı da kimlərəsə aid etməyə çalışsalar da, heç bir nəticə əldə edə bilməmişlər. Çünki həqiqətən Dünya tufanından sonrakı bütün hadisələrin Naxçıvanda baş verdiyi, buranın Nuhun, onun oğlu Yafəsin, Yafəs oğlu Türkün, yəni indiki Azərbaycan türklərinin yurdu olduğu elmi şəkildə əsaslandırılmışdır.

Bu kiçik ön sözü problemin nə dərəcədə ciddi olduğunu bildirmək məqsədi ilə veririk. Unutmaq olmaz ki, Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan məsələsi bütövlükdə elmi məsələ olmaqla yanaşı, həm də milli problemdir. Buna görə də araşdırmalar zamanı Naxçıvanla bağlı tarixi həqiqətlərin, elmi dəlillərin, yerli rəvayətlərin ortaya qoyulması vacib şərtlərdəndir.

Bilqamıs dastanına görə, Utnapişti ailəsini, qohum-əqrəbasını gəmiyə yerləşdirir:

Küflətimi, nəslimi yığışdırdım gəmiyə [4, s. 89].

Dastanda kənar adamların gəmiyə minməsi ilə bağlı məlumat verilmir. Bilqamısdan fərqli olaraq, Bibliyada ancaq Nuhun ailəsi gəmiyə götürülür. "Varlıq" kitabının Tufan (Daşqın) bölməsində deyilir ki, tufan başlayanda Nuh, oğlanları Sam, Xam, Yafəs, həmçinin Nuhun arvadı və gəlinləri gəmiyə mindilər [9, s. 16]. Qurani-Kərimə və digər dini mənbələrə görə, Nuha iman gətirən ailə üzvləri və az sayda iman etmiş digər insanlar gəmiyə götürülmüşdür: "Nəhayət (onları məhv etmək barədə), əmrimiz gəldi və təndir qaynadı (təndirdən və ya yer üzündən, yaxud gəminin qazanından su qaynayıb daşdığı) zaman (Nuha) dedik: "Hər heyvandan bir erkək, bir dişi olmaqla bir cüt, həmçinin əleyhinə (ölümünə) əvvəlcədən hökm verilmiş şəxslər istisna olmaqla, qalan ailə üzvlərini və iman gətirənləri gəmiyə mindir". Əslində onunla birlikdə (tayfasından) çox az adam iman gətirmişdi" [Hud surəsi, ayə 40]. Azlıqlarına görə gəmiyə gö-

türülən insanlarla bağlı ciddi mübahisələr mövcud deyil. Yəni onların gəmiyə yığılmasının mümkünlüyü qəbul edilir, Tufan məsələsində ciddi müzakirə mövzusu gəmiyə götürülmüş heyvanlarla əlaqəlidir. "Bilqamıs" dastanında Utnapiştinin gəmiyə bütün ev heyvanlarını, həmçinin çöl heyvanlarını götürdüyü yazılır:

Nə heyvanım vardısa,
O gəmiyə yüklədim.
Külfətimi, nəslimi yığışdırdım gəmiyə,
Çöl heyvanlarını da yerləşdirdim gəmiyə [4, s. 89]. Deməli, Utnapişti özünə məxsus nə varsa, o cümlədən heyvanlarını da gəmiyə götürüb. Lakin çöl heyvanları deyərkən hansılarını və nə miqdarda götürüldüyü məlum olmur. Hər halda vəhşi heyvanların müəyyən hissəsinin xilas edilməsi nəzərdə tutulmaqla onlar tufan baş verən bölgəyə aid olmalıdırlar. Təbii ki, bu fikir daha çox mülahizə xarakteri daşıyır. Çünki dastanda Utnapiştinin "nə heyvanım vardısa" ifadəsi bütün ev heyvanı cinslərini əhatə edə bilər. Lakin çöl heyvanları ifadəsi ümumi olmaqla mücərrəd xarakter daşıyır. Yəni onların miqdarı göstərilmir. Bəlli olduğu kimi, sonrakı mənbələrdə dəqiq göstəriş vardır.

Araşdırıcılar tərəfindən birmənalı qəbul edilməyən, böyük mübahisə doğuran problemlər Bibliyada verilmiş gəmiyə götürülən heyvanların sayı, toxumların miqdarı, tufanın müddəti, gəminin sahəsi, buradakı ərzaq və yem ehtiyatı ilə bağlıdır. Bu məsələdə önəmli yeri olan gəminin ölçülərinə xüsusi diqqət yetirilir. Çünki gəmiyə götürülənlər bundan çox asılıdır. Bibliyada və onunla bağlı digər dini mənbələrdə verilən məlumatlara görə gəminin uzunu üç yüz dirsək, eni əlli dirsək, hündürlüyü 30 dirsək olmuşdur. Bir sıra müəlliflər kimi, A.Azimov rəqəmlərə söykənərək gəminin sahəsinin 43 min kub metr olduğunu bildirməklə gəmiyə götürülənlərin bura yerləşməsinin qeyri-mümkün olduğunu yazır [8, s. 268]. Müəllif bunu doğuran səbəblərin Bibliyada gəmiyə götürülən heyvanların sayı və müəmmalı rəqəmlərlə bağlı olduğunu yazır.

Hər şeydən öncə, Bibliyada bu məsələ ziddiyyətli olmaqla çox dolaşıqdır. "Varlıq", 6-cı başlıq, 19-cu babda deyilir ki, yer üzündəki bütün canlılardan bir cüt gəmiyə götürülür ki, onlar salamat qalsınlar.

Yəni nəsilləri qorunsun. 7-ci başlıq 2, 3-cü bablarda təmiz heyvanlardan (yəqin ki, halal, əti yeyilən – Q.Q.) 7 cüt, natəmiz heyvanlardan bir cüt, həmçinin təmiz quşlardan 7 cüt, natəmizlərdən bir cüt götürmək əmr olunur ki, gələcəkdə onların nəsli davam etsin [9, s. 16]. Təbii ki, oradakı insanları, heyvanları və digər canlıları yedizdirmək üçün müxtəlif ərzaqlar, qidalar, yemlər və içməli su da götürülməli idi. Yuxarıda göstərilən ölçülərə malik olan gəmiyə bunların yerləşdirilməsi mümkün deyil. Problemlə məşğul olan təbiətşünasların əksəriyyətinin fikri belədir ki, ancaq həşəratlardan deyilən qədər gəmiyə götürülsəydi, onları yerləşdirmək olmazdı. Məsələni çətinləşdirən ən ciddi problemlərdən biri də gəmiyə yığılmış saysız-hesabsız canlıları bir il ərzində qidalandırmaqdır. Tutaq ki, ot yeyənlərin problemi həll edildi, halbuki bu da mümkün deyil, ət yeyənlər hansı ehtiyatla təmin edilmişlər?! Belə müəmmalı sualları problemlə məşğul olan bütün mütəxəssislər verirlər. Cavabında isə Bibliyada göstərilənlərin həqiqətə uyğun olmadığı, məsələnin Allah hökmünün əslini əks etmədiyi, zaman-zaman həqiqətin təhrif edilərək yazıya alındığı ortaya qoyulur.

Biz də Bibliya ilə bağlı yanaşmada eyni mövqedən çıxış edir, lakin çoxunun nəzərindən qaçan bir məsələni də diqqətə çatdırmaq istəyirik: içməli su. Bəli, bir il müddətində bütün canlılar üçün lazım olan su harada və necə saxlanmışdır? Maraqlıdır ki, Bibliyada yemdən, ərzaqdan bəhs edilsə də, sudan söhbət açılmır. Müəmmalı şəkildə olsa da, söylənə bilər ki, Tufan nəticəsində yerdən qaynayan və göydən tökülən (yağan) su şirin olmuşdur. Lakin bununla bağlı Peyğəmbərlər Tarixi Ensiklopediyasında yazılır ki, bu su, sair zamanlarda yağan yağmur suları kimi şirin deyildi. Toxunduğunu yandırıb yaxırdı [6, s. 29]. Hətta yağmur suyu içməli olsaydı belə, ondan istifadə etmək mümkün deyildi. Bibliyadan bəlli olur ki, gəmi yeddinci ayın onyeddinci günü Ararat (Ağrı) dağında dayanır. Bu isə Tufanın başlanmasından təqribən 150 gün sonradır. Bu müddət ərzində gəminin qapı və ya pəncərəsi açılmır. Nuh peyğəmbər gəminin pəncərəsini ancaq Tufan başlayandan 258 gün sonra açır [Varlıq 8-ci başlıq, 5-6-cı bab]. Bizcə, bu müddətdə gəmidəkilərin istifadə edəcəyi suyun saxlanması mümkünsüzdür. Yəni Bibliyada əslində mənzərə-

nin fərqli olduğu qənaətinə gəlinir. Bütün bunlar bir sıra araşdırıcılarla bərabər A.Azimov tərəfindən ümumiləşdirilərək verilmişdir [8, s. 270-282].

O, əsərində digər məsələlərlə bərabər 6-cı başlığın 21-ci babındakı lazım olan qidanın götürülməsi ilə bağlı hökmü şərh edərək bildirir ki, deməli, Nuh gəmiyə bütün heyvanatın yeyə bildiyi hər cürə qidanı, bitkini, meyvəni bütövlükdə quruya aid ən azı dörd milyondan artıq növü götürməli idi [8, s. 271-272].

Unutmayaq ki, hökmdə təkcə canlıların xilas edilməsi deyil, bütün bitkilərin də toxumlarının götürülməsi nəzərdə tutulur.

Bu baxımdan mübahisə doğuran məsələlərdən biri də tufanın nə müddətə davam etməsidir. Bilqamısda dəqiq vaxt göstərilməsə də, onun uzun müddət davam etmədiyi bəlli olur.

Qurani-Kərimdə gəmiyə götürüləcək heyvanlarla bağlı deyilir: "Hər heyvandan bir erkək, bir dişi olmaqla bir cüt... gəmiyə mindir" [Hud surəsi, ayə 40]. Müminin surəsinin 27-ci ayəsində də hər heyvandan bir cüt götürmək əmr olunur. Naxçıvan ərazisindən toplanmış materiallar Qurani-Kərimin hökmləri ilə eynilik təşkil edir.

Bibliyadan fərqli olaraq Qurani-Kərimdə verilən məlumatların reallığı əks etdirməsi araşdırıcılar tərəfindən qəbul edilməkdədir. Bir sıra təfsirçilərə görə gəmiyə daha çox insanların faydalandıqları ev heyvanları, həmçinin daşqınların altında qalacaq ərazilərin heyvanlarının hərəsindən bir cüt götürülmüşdür. Peyğəmbərlər Tarixi Ensiklopediyasında bununla bağlı yazılır ki, Allahın əmri ilə Nuh (ə.s.) ın ailəsi, bütün heyvanlar, həşəratlar gəminin ətrafına toplandı. Hz. Nuh sağ əli ilə işarə edincə bir heyvanın erkəyi, sol əli ilə işarə etdikdə dişisi gəmiyə minirdi. Rəvayətə görə, ilan və əqrəb gəmiyə minmək istəyərkən Nuh (ə.s.) onları buraxmır ki, siz zərərlisiniz. Onlar da söz verirlər ki, səni zikr edən kimsəyə zərərimiz dəyməz [6, s. 28]. Buradan Qurani-Kərimin hökmünə uyğun olaraq hər heyvandan bir cüt götürüldüyü bəlli olur.

Naxçıvanda heyvanların gəmiyə götürülməsi ilə yanaşı, onların yerləşdirilməsi, gəmidəki heyvanların hərəkətləri, quruya çıxmaları ilə əlaqəli maraqlı rəvayətlər mövcuddur. Toplanmış rəvayətlərdən birində deyilir ki, Hz. Nuhun gəmiyə ilk götürdüyü heyvan siçan ol-

muşdur. Bundan sonra gəmiyə ardıcıl olaraq öküz, pələng, balıq, ilan, at, qoyun, meymun, quş (toyuq, xoruz), it və qaban minir. Nuh peyğəmbər bildirir ki, gələcəkdə illər bu heyvanların xüsusiyyətlərinə uyğun olmaqla on iki ildən bir dəyişəcəkdir. Beləliklə, tarixdə türklərlə bağlanan və 12 heyvana əsaslanan təqvim yaranmışdır. Toplanmış materiallardan belə məlum olur ki, heyvanlar təsadüfən seçilməmişdir. Seçimdə onların insan həyatındakı yeri, ilin və doğulan uşaqların necəliyinə təsiri də nəzərə alınmışdır. Xalq arasında olan inamlara görə, hərəsi dörd olmaq şərti ilə bu heyvanlar üç yerə ayrılırlar. 1. Mismil (halal) olanlar: qoyun, öküz, quş, balıq; 2. Məkruh olanlar: at, dovşan, ilan, qaban; 3. Murdar olanlar: meymun, it, siçan, pələng. Bu bölgüdən belə aydın olur ki, Nuh peyğəmbər heyvanları seçərkən onların insan həyatında oynadıqları rolu deyil, Allahın hökmünü əsas götürməklə onlar arasında fərq qoymamışdır.

Naxçıvanda gəmiyə götürülmüş ayrı-ayrı heyvanlarla bağlı müxtəlif rəvayətlər mövcuddur. Bir rəvayətdə deyilir ki, gəmiyə ilk olaraq götürülən siçan gəmirərək onu deşir və içəri su dolmağa başlayır. Nuh peyğəmbər deşiyi heç cürə tıxa bilmir, içəridəki heyvanlara müraciət edir. İlan deyir ki, mən tıxaram, amma bir şərtlə. Gəmi quruya çıxdıqda mənim istədiyimi verəsən. Nuh peyğəmbər razılaşır. İlan quyruğunu deşiyə tıxıb, gəmini batmaqdan xilas edir [2, s. 46]. Rəvayətdə qurunu ilk tapan qaranquşdan, onun insanları ilanın bəlasından qurtarmasından bəhs edilir. Gəmiyə götürülmüş heyvanlarla bağlı məsələlər təkcə rəvayətlərlə bitmir. Bunların böyük bir qismi öz əksini qayaüstü təsvirlərdə tapmışdır. Belə təsvirlər içərisində keçi rəsmləri üstünlük təşkil edir. Bu bir tərəfdən keçi kultu ilə bağlıdırsa, digər tərəfdən keçinin insanların həyatını xilas etməsi, tufan olacağını onlara öncədən bildirməsi ilə əlaqəlidir. Ümumtürk xarakteri daşıyan bir Altay rəvayətində deyilir ki, tufan olacağını insanlara ilk olaraq bir göy tüklü təkə bildirmişdir. O, yeddi gün müddətində dünyanı dolaşaraq tufanın əlamətlərini xəbər verməklə insanları hazırlıq görməyə çağırmışdır. Bəladan xilas olanlar keçiyə müqəddəs heyvan kimi baxmışlar [7, s. 15]. Təbii ki, qayaüstü təsvirlərdə keçi rəsmlərinin geniş yayılması onun mifoloji yönləri ilə bərabər, heyvandarlıqda xüsusi yer tutması ilə də bağlıdır. Naxçıvanda indi də bir ifadə

işlənməkdədir: "Üç keçi bir inəyə bərabərdir". Bu, keçilərin bol süd verməsi, sürətlə artıb çoxalması ilə əlaqəlidir. Şifahi xalq yaradıcılığında, xüsusən nağıllarda keçi keçəllə birlikdə çoxbilmiş kimi göstərilir. Bir keçi ailəni dolandırır.

Gəmiqayada rəvayətə görə gəmini batmaqdan xilas edən ilanla bağlı müxtəlif təsvirlər mövcuddur. Bu təsvirlər də xarakterlərinə, mifoloji tutumuna görə fərqlənirlər. Onların içərisində rəvayətlərlə səsləşən, ilanların insanları, şirin və istiqanlıları həyatdan məhrum etmək üçün apardığı mübarizə, gəmi, ilan, əjdaha və qaranquş təsvirlərinin birgə verilməsi isə tufanla əlaqəlidir.

Rəsmlər içərisində diqqətimizi çəkən gəminin sxematik olaraq quş şəkilində təsviridir. Xalq arasında yayılmış rəvayətlərə görə, Nuh (ə.s.) gəmini suda üzən quş, su quşu formasında düzəltmişdir. Tanınmış türk tədqiqatçısı Ahmet Bican Ercilasun tərəfindən Qars yörəsindən toplanmış bir rəvayətdə deyilir ki, Nuh peyğəmbər gəmini hansı formada düzəldəcəyini bilmədiyindən Allaha müraciət edir ki, ya Rəbbim! Mən gəmini hansı formada düzəldəcəyimi bilmirəm, mənə yardım et. Allahın hökmü ilə Təknus adlı quş göndərilir və Nuh (ə.s.) gəmini onun formasında düzəldir [5, s. 250-251]. Maraqlıdır ki, Gəmiqaya ərazisindən aşkar edilmiş gəmi təsviri də quş formasındadır [3].

Gəmiqayadakı heyvan təsvirləri içərisində hələ də tam araşdırılmamış heyvan və həşərat rəsmləri mövcuddur ki, onların hərtərəfli öyrənilməsinə böyük ehtiyac vardır. Bu yolla həmin təsvirlərin Dünya tufanı ilə genetik bağlılığını, xalqımızın düşüncə tərzini müəyyən etmək mümkündür.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov, V.Y. Məmmədəliyev. VI nəşr, Bakı, 2004.
2. Azərbaycan mifoloji mətnləri. Bakı, 1988.
3. Alıyev N. Müqəddəs peyğəmbər gəmisi. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 39-46.
4. "Bilqamıs" dastanı. Rus dilindən çevirəni və ön sözün müəllifi İ.Vəliyev. Bakı, 1985.
5. Ercilasun A.B. Kars ili ağızları. Ankara, 1983.

6. Peygamberler Tarihi Ansiklopedisi. II c, İstanbul: Türkiye Gazetesi.
7. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı, 1988.
8. Азимов А. В начале. Пер. С англ. В.Бабенко и Вл.Гакова. М., 1990.
9. Библия. М. Российское Библейское Общество, 1994.
10. Рол Д. Генезис цивилизаций. Откуда мы произошли. М., 2002.

Vəli BAXŞƏLİYEV
*AMEA – nın müxbir üzvü,*
*tarix elmləri doktoru*

## 4.4. NUHLA BAĞLI ƏFSANƏLƏR VƏ HƏQİQƏTLƏR

Nuh tufanı ilə bağlı əfsanələr, istər qədim dövrdə, istər orta əsrlərdə, istərsə də müasir dövrdə xalq arasında geniş yayılmış əfsanələrdən biridir. AMEA Naxçıvan Bölməsi əməkdaşlarının müxtəlif illərdə Naxçıvan MR ərazisində təşkil etdiyi ekspedisiyalar burada Nuhla bağlı əfsanənin müxtəlif variantlarının yayıldığını göstərir. Nuhla bağlı əfsanələri və abidələri daha geniş tədqiq etmək məqsədi ilə adı Nuhun gəmisi ilə bağlı olan Gəmiqaya abidəsinə 2001 və 2005-ci illərdə Naxçıvan MR Ali Məclisinin təşəbbüsü ilə beynəlxalq ekspedisiya təşkil edilmişdir. Ekspedisiyalar kompleks tədqiqat aparmış, istər Gəmiqaya abidəsi, istərsə də onun ətrafında yerləşən abidələr haqqında yeni elmi dəlillər əldə etmiş, Naxçıvanın etnoqrafiyası, folkloru, onomastikasına aid materiallar toplamışdır. Gəmiqaya abidəsində beynəlxalq konfrans da keçirilmişdir. Ekspedisiyaların, seminar və konfransların keçirilməsində məqsəd Nuhu erməniləşdirməyə çalışan bədxah erməni cızma-qaraçılarının və onların havadarlarının əsassız iddialarını rədd etmək və bu əfsanə ilə bağlı hadisələrə aydınlıq gətirməkdən ibarət olmuşdur. Bu barədə nə qədər yazılsa, müəyyən problemlər həll edilməmiş qalır. Çünki bir qrup tədqiqatçı və həvəskar adamlar mənbələrdə xatırlanan Nuh əfsanəsini bir kənara qoyub, Nuh peyğəmbər (ə.s.) və onun gəmisi haqqında inanılmaz uydurmalar söyləmişlər. Nuh əfsanəsi ilə bağlı hadisələri araşdıran tədqiqatçılar iki qrupa ayrılır. Onların bir qismi məsələyə elmi-materialist konteksdən, digərləri isə dini konteksdən yanaşırlar. İndi heç kəsə sirr deyil ki, monoteist dinlər Nuh tufanı əfsanəsindən öz dini konsepsiyalarını əsaslandırmaq üçün, həm də xeyirxah məqsədlə istifadə etmişlər. Əfsanəyə görə, insanlar bəd əməllərlə məşğul olduğu üçün Tanrının hökmü ilə dünyanın üzünü su alır. Hər şey məhv olur. Yalnız Nuhun gəmisinə sığınan insanlar xilas olur və tufandan sonra yer üzünə çıxaraq insan nəslini davam etdirirlər. Dini inanclara görə, bundan sonra Yer üzündə ikinci sivilizasiya baş-

layır, Nuh peyğəmbər (ə.s.) isə bəşəriyyətin ikinci atası hesab edilir. Monoteist dinlərin əsas məqsədi insanları bəd əməllərdən çəkindirmək, zülm etməməyə çağırmaq idi. Dini konsepsiyaya görə, Nuh peyğəmbər (ə.s.) bəşəriyyətin ikinci atası sayıldığından onu konkret olaraq hansısa bir xalqa aid etmək doğru deyil. Amma hər şeyi öz adlarına çıxmağa çalışan ermənilər Nuh peyğəmbəri (ə.s.) erməniləşdirmək fikrindən də vaz keçmirlər.

Elmi araşdırmalar sübut edir ki, bəşər cəmiyyəti yarandıqdan sonra Yer üzünün tamamilə su altında qalması kimi bir hadisə olmamışdır. Subasma lokal xarakter daşımışdır. Əfsanə e.ə. IV minillikdə Mesopotamiyada baş verən real hadisə əsasında yaranmış və xeyli şişirdilmişdir. Qədim dövrdə və hazırda elmi ədəbiyyatda Şumer əfsanələri kimi tanınan, gil lövhələr üzərində mixi xətlə yazılan bu əfsanələr şumerlərin və mixi yazıların tarix səhnəsindən çıxması ilə unudulmuş, əfsanənin yəhudi variantı isə monoteist dinlər vasitəsi ilə yayılmışdır. Bu yazıda bizim məqsədimiz heç də tufanın olub-olmadığını əsaslandırmaq deyil. Bu barədə elmi ədəbiyyatda əsaslandırılmış fikirlər vardır.

Məsələ burasındadır ki, yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvanda Nuh əfsanəsinin olduqca müxtəlif variantları yayılmış və mənəvi mədəniyyətimizin tərkib hissəsinə çevrilmişdir. Əfsanənin bir variantında Nuhun gəmisinin Naxçıvandan Ağrı dağına doğru, digər variantında Ağrıdan Naxçıvana, Gəmiqayaya doğru hərəkət etməsi haqqında məlumat verilir. Belə hesab edirik ki, əfsanələrin bu variantlarında Azərbaycanın, o cümlədən Naxçıvanın qədim Şərq, o cümlədən Mesopotamiya ilə qarşılıqlı mədəni əlaqələri poetik şəkildə öz əksini tapmışdır. Arxeoloji araşdırmalar Azərbaycanda, o cümlədən Naxçıvanda məskunlaşan qədim tayfaların Mesopotamiya ölkələri ilə sıx iqtisadi mədəni əlaqə saxladığını təsdiq edir. Əfsanənin bəzi variantlarında Nuhun və onun törəmələrinin tufandan sonra Naxçıvanda yaşaması haqqında məlumat verilmişdir. Rəvayətə görə, Nuh peyğəmbər (ə.s.) Naxçıvanda vəfat etmiş və orada dəfn edilmişdir. Buna əsaslanan bir qrup tədqiqatçı Naxçıvanda Nuhun qəbrini axtarmağa başlamışlar. Qeyd edək ki, Nuhun qəbrinin axtarılması yeni məsələ deyil. Aparılan araşdırmalar göstərir ki, onun tarixi bir neçə yüz

il bundan əvvələ gedib çıxır. Nuhun qəbrinin Naxçıvanda olması haqqında İ.Şopen, Dyubua de Monpere, K.A.Nikitin, V.M.Sısoyev və digər tədqiqatçılar məlumat vermişlər. Onlar "Nuhun qəbri" adlı yerin fotoşəkilini də çap etdirmişlər. Bu mənbələrin məlumatları tədqiqatçılar arasında onun axtarılıb tapılması fikrini doğurmuşdur. Bu məqsədlə Naxçıvan MR Ali Məclisininin tapşırığı ilə xüsusi ekspedisiya təşkil edilmişdir. "Nuhun qəbri" haqqındakı mifin həqiqətə nə qədər uyğun olub-olmadığını, habelə məşhur rəssam B.Kəngərlinin rəsm əsərlərinin bu əfsanələri nə dərəcədə reallıqla əks etdirdiyini aydınlaşdırmaq məqsədilə ekspedisiya da təşkil edilmişdir. V.M.Sısoyevin əsərində "Nuhun qəbri" haqqında ziddiyyətli məlumatlar verilsə də, o bir yerdə sərdabənin tərəfləri 2.5 m olan şəkkiz guşəli prizma şəklində olduğunu qeyd etmişdir. Azərbaycanın ilk professional rəssamı B.Kəngərlinin çəkdiyi rəsm əsərlərində də "Nuhun qəbri" çoxbucaqlı sərdabə tipində təsvir edilmişdir. Məsələ burasındadır ki, bu məlumatların verilməsindən xeyli vaxt keçdiyindən və Nuhun qəbri yer üzündən silindiyindən, həm də ziyarət edilmədiyindən tamamilə unudulmuş, onun yeri yaddan çıxarılmışdı. Odur ki, onun yerinin müəyyən edilməsi olduqca çətinlik törətdi. Yaşlı nəslin nümayəndəsi Lətif Hüseynzadə qəbrin yerini təqribi olaraq nişan vermiş, AMEA Naxçıvan Bölməsinin əməkdaşı Nizami Alıyevin hesablamaları isə sərdabənin yerini dəqiqləşdirməyə imkan vermişdir. Sərdabənin yeri müəyyən olunanda müəyyən oldu ki, Naxçıvanda heç də hamı "Nuhun qəbri"ndən xəbərsiz deyilmiş. Çünki onun üzəri buldozerlə kürənmiş və qanunsuz qazıntılarla dəlik-deşik edilmişdi. Burada hər hansı bir tikinti tapmaq dəryada balıq sövdası kimi bir şey idi. Bununla belə, "Nuhun qəbri" adlanan yerdə tədqiqat başlandı. Bir aya qədər davam edən tədqiqat zamanı bəzi ip ucları ələ keçirildi. Məlum oldu ki, sərdabə nəinki dağıdılmış, hətta altı üstünə çevrilmişdir. Qazıntılar zamanı aşkar olunan faktların mənbələrin verdiyi məlumatlarla müqayisə edilməsi, bizcə, məqsədəuyğun olardı. K.A.Nikitinin verdiyi məlumatda qeyd edilir ki, Nuh sərdabəsinin müasir görkəmi VIII əsrdə farslar tərəfindən bərpa edilmişdir. Göründüyü kimi, K.Nikitinin bu məlumatı o qədər də səhih deyildir. Çünki VIII əsrdə sərdabə Ərəb xilafətinin nümayəndələri tərəfindən bərpa edilə bilərdi. V.M.Sısoyev qeyd etmişdir ki, səkkizguşəli türbə-

dən heç nə qalmamış, onun bünövrəsinin yerində isə 1 m dərinliyində xəndək qazılmışdır.

Sısoyev həmçinin türbənin mərkəzində diametri 2 m-ə çatan səkkizguşəli sütunun olduğunu qeyd etmişdir. Qazıntılar zamanı belə bir sütuna rastlanmadı, lakin tədqiqata başladığımız ilk andan tez-tez rastlanan tikinti keramikasının nümunələri burada nə vaxtsa Orta əsrlərə aid türbənin var olduğundan xəbər verirdi. Qazıntı müəyyən dərinliyə çatdıqda əhəng məhlulu ilə bir-birinə birləşdirilmiş bişmiş kərpiclərdən ibarət bloklara rastlandı. Onların üzərində həmçinin bir yerdə əhəng məhlulu üzərinə basma üsulu ilə vurulmuş, ərəbcə "Allah" kəlməsinə rastlandı. Başqa bir blokun üzərində kufi xətlə yazılmış kitabənin bir neçə hərfi saxlanmışdı. Tikinti qalıqları burada XIII-XIV əsrlərə aid, Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edirdi. Bəs necə olmuş ki, belə bir möhtəşəm abidə tamamilə dağıdılmış, ondan əsər-əlamət qalmamışdır.

XIX əsrin mənbələrinə baxdıqda "Nuhun qəbri"nin kilsə kimi qələmə verilməsi ilə rastlaşırıq. Məsələn, V.Qriroryev qeyd edir ki, ermənilər bizə burada ikimərtəbəli kilsənin olması haqqında məlumat verdilər. Lakin biz burada çox da qədim olmayan kərpic tikintinin qalıqlarına rastladıq. K.A.Nikitin də "Nuhun qəbri"nin yerində əvvəlcə kilsə olduğunu qeyd etmişdir. V.M.Sısoyev də burada vaxtilə kilsə olduğunu qeyd etmişdir. Lakin qeyd etmək istəyirik ki, bu məlumatların heç bir əsası olmamışdır. Sısoyevin Köhnəqalanın Böyükqala hissəsini erməni qalası kimi qələmə vermək cəhdi də diqqətdən yayınmır. Halbuki bu həm kiçik, həm də böyük qalanın birlikdə Orta əsr Naxçıvan şəhərinin qalıqları olduğu, "Nəqşicahan" adı ilə bütün dünyada məhşur olduğu orta əsr mənbələrinin çoxsaylı məlumatları ilə təsdiq edilir. Hər şeydən əvvəl qeyd edək ki, müəlliflərin təsvir etdikləri əlamətlər yeraltı və yerüstü hissələrdən ibarət olan türk türbələri üçün xarakterikdir. Heç bir kilsə ikimərtəbəli olmamışdır. Türbənin dağılması da, yəqin ki, onun yerində kilsə görmək istəyənlərin əməli olmuşdur. Türbənin ətrafında Orta əsrlərə aid müsəlman qəbiristanlığı da olmuşdur. Tarixi rəsmlərdə bu qəbiristanlığın varlığı aydın şəkildə əks olunmuşdur. Bu qəbirlərin qalıntıları indi də qalmaqdadır. Amma nədənsə olmayan kilsə haqqında dəfələrlə söz edən Nikitin, Sısoyev kimi tədqiqatçılar

burada müsəlman qəbiristanlığına aid qəbir daşları haqqında məlumat verməmişlər. Görünür, bu onların Nuhu xristianlaşdırmaq istəyi ilə bağlı olmuşdur.

Bir xüsusa da diqqəti çəkmək istərdik ki, Naxçıvanın türk əhalisi müqəddəs yerləri bəzən "vəng" adlandırmışdır. Sısoyev vəng sözünün ermənicə kilsə mənasında olduğunu qeyd edir.

Lakin qeyd etmək istəyirik ki, kilsə olmayan müqəddəs yerlərin vəng adlandırılması bu fikri inkar edir. İlk variantı "beng", "benq" olan bu sözün türkcə olduğu tədqiqatçılar tərəfindən əsaslandırılmışdır. Məlum olduğu kimi, qədim türklər görkəmli şəxsiyyətlərin şərəfinə qoyulmuş abidələri bəngüdaş adlandırmışlar. Şübhəsiz ki, bu sözün işlədilməsi Naxçıvanın qədim türk əhalisinə məxsus olmuş və onlardan digər xalqlara keçmişdir.

Arxeoloji araşdırmalar zamanı buradan xeyli miqdarda heyvan sümüklərinin və gil qab parçalarının aşkar olunması "Nuhun qəbri" adlanan yerin ziyarətgah kimi istifadə olunduğunu göstərir. Bunu Naxçıvan şəhərindən toplanan etnoqrafik məlumatlar və mənbələrin məlumatları da təsdiq edir. Dyubua de Monperenin verdiyi məlumata görə, müxtəlif millətlərdən olan insanlar, o cümlədən ruslar, yəhudilər bura gələrək bəşəriyyətin atasını ziyarət edir, müəyyən mərasimlər keçirirmişlər. Belə mərasimlər azərbaycanlılar tərəfindən də keçirilmişdir.

Tədqiqat zamanı B.Kəngərlinin təsvir etdiyi türbənin yalnız acınacaqlı vəziyyətdə saxlanmış qalıqları aşkar edildi. Türbənin yalnız girişi və divarlarının bəzi qisimləri salamat qalmışdı. Geniş dəhliz şəklində olan giriş bişmiş kərpicdən hörülmüş, döşəməsinə isə yenə də bişmiş kərpic döşənmişdir. Türbənin səkkizguşəli bünövrəsinin qalıqları 20 sm hündürlükdə salamat qalmışdı. Türbənin dəhlizi və divarları kvadrat formalı bişmiş kərpiclərdən tikilmişdi. Kərpiclərin ölçüləri 20x20x5 sm, 18x18x5 sm-dir. Divarları 75 sm qalınlığında olub, gəclə suvanmışdır. Türbənin üzlərini təşkil edən divarların içəri üzündə trapesiya biçimli xüsusi arxitektura bəzəyinə rastlanmışdır. Türbənin divarlarının (tərəflərinin) uzunluğu Sısoyevin qeyd etdiyi kimi, 2,5 m deyil, 2,3 m idi. Tədqiqat zamanı türbənin bir-birinin qarşısında yerləşdirilən iki girişinin olduğu müəyyən edilmişdir. İkinci girişin tikin-

tisində istifadə edilən XIX əsrə aid kərpiclər bu girişin sonradan açıldığını təsdiq edir. Bəzi qisimlərdə, həm də müxtəlif səviyyələrdə gəc və bişmiş kərpicdən olan döşəmə qalıqlarına rastlanması türbənin döşəməsinin dəfələrlə bərpa edildiyini göstərir. B.Kəngərlinin çəkdiyi rəsmlər isə türbənin özünün dəfələrlə bərpa edildiyini təsdiq edir. Qazıntı zamanı aşkar olunan, bişmiş kərpicdən inşa edilən tikinti qalıqları XIX əsrin sonu XX əsrin əvvəllərinə aid edilə bilər. Belə hesab edirik ki, bəşəriyyətin ikinci atası sayılan Nuh peyğəmbərin (ə.s.) Azərbaycanın, o cümlədən Naxçıvanın türk əhalisi içərisində populyarlığı, türk soylarının Nuh peyğəmbərlə (ə.s.) bağlı olması haqqındakı əfsanələr, habelə bəzi orta əsr müəlliflərinin bu əfsanələri öz əsərlərinə salaraq tarixiləşdirməsi Nuh peyğəmbərə (ə.s.) müəyyən sayğı göstərilməsinə, onun şərəfinə türbə inşa edilməsinə səbəb olmuşdur. Şübhəsiz ki, bu hadisələrdə türk xalqlarının bir qisminin müəyyən müddət iudaizmə sitayiş etməsinin də müəyyən rolu olmuşdur. Bizcə, "Nuhun qəbri" ifadəsi istər orta əsrlərdə, istərsə də yeni dövrdə simvolik bir anlam daşımışdır. "Nuhun qəbri"nin Naxçıvanda olması bu ərazilərin əzəldən türk xalqlarına aid olduğunu təsdiq edən faktlardan biridir. Çünki Nuh əfsanəsinin kökündə qədim türk əfsanələri – Şumer əfsanələri dayanır. Bu əfsanələrin Cənubi Qafqazda geniş yayılması da türk xalqları ilə bağlıdır.

**Adil BAĞIROV**
*AMEA-nın müxbir üzvü,*
*filologiya elmləri doktoru*

## 4.5. NAXÇIVANDA NUHLA BAĞLI YER-YURD ADLARININ TARİXİ-ETİMOLOJİ TƏHLİLİ

Azərbaycanın qədim inzibati və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın hər daşında, hər qayasında xalqımızın şərəfli tarixi, zamanın müxtəlif dövrlərinə aid zəngin maddi-mədəniyyət abidələri, daş kitabələrdə milli adlarımız, təfəkkür dünyamız, düşüncə tərzimiz yaşayır. Bu ərazi ən qədim yaşayış məskənlərindən biridir. Bunu ərazidə aparılan arxeoloji qazıntılar, tapılan maddi-mədəniyyət abidələri, təbiətin sirrini özündə qoruyub saxlayan kurqanlar, məbədlər, möhtəşəm qalalar, yeraltı mağaralar, dağlar, dərələr, daşlara həkk olunmuş rəsmlər, qədim yazı nümunələri, Gəmiqaya abidələri, Nuh peyğəmbərin qəbri və s. kimi xalqımızın özünəməxsus mədəniyyətini əks etdirən minlərlə abidələr sübut edir. Bu abidələr içərisində toponimlərin xüsusi rolu və çəkisi vardır. Toponimlər Azərbaycan tarixinin ən qədim dövrlərinin şahidi, xalqın danışan dili, onun daşlara, qayalara hopmuş təfəkkür dünyası və milli-mənəvi abidələridir. Bu abidələrin çoxu əsrlər boyu torpağın altında, təbiətin qoynunda qalmış, öz sirrini insanlardan gizli saxlamışdır. Odur ki, xalqımızın keçmişindən soraq verən, onun tarixini, varlığını təsdiqləyən toponimləri toplayıb linqvistik cəhətdən tədqiq etmək xalqımızın tarixi, dili, coğrafiyası, etnik tərkibi, mədəniyyəti ilə bağlı çox qiymətli faktları aşkar edir, bir çox qaranlıq və sirli mətləbləri açır. Naxçıvan toponimlərinin öyrənilməsi xalqımız üçün taleyüklü məsələdir və hər şeydən əvvəl siyasi və mənəvi cəhətdən çox vacibdir. Qədim sərhədlərimizin müəyyənləşdirilməsi, torpaqlarımıza qarşı ərazi iddiasında olub dünyaya hay-həşir salan erməni millətçilərinə kəsərli cavab verilməsi üçün dilimizin toponimlər sisteminin öyrənilməsi təxirəsalınmaz vəzifəmizdir.

Naxçıvan toponimləri xalqımızın tarixi ilə bağlı yaranmış, milli mənəviyyatı ilə yoğurulmuş, azərbaycançılıq, türkçülük damğası ilə möhürlənmiş, leksik-semantik və qrammatik xüsusiyyətləri ilə seçilən milli onomastik vahidlərdir. Bu onomastik vahidlərin leksik tərkibində

qədim türk tayfa birləşmələri, tayfa, nəsil, tirə başçılarının adları, ərazinin relyef quruluşu, hidronimik və zoonimik leksikası, flora və faunasını əks etdirən adlar xüsusi yer tutur.

Naxçıvan ərazisindəki toponimlərin bir qisminin leksik tərkibi Həzrəti Nuh peyğəmbərin adı ilə bağlıdır. Bu bağlılığı "Dünya tufanı" zamanı Nuh peyğəmbərin ilk dəfə Naxçıvan ərazisində quruya çıxması, gəminin qalıqlarının bu ərazidə olması, Nuh peyğəmbərin "Köhnəqala" adlanan ərazidə dəfn olunması, Naxçıvan adının Nuhçıxan şəklində mənalandırılması, ərazinin Nuhun vətəni hesab edilməsi kimi faktlar təsdiqləyir, eləcə də peşəkar rəssam Bəhruz Kəngərlinin "Nuhun türbəsi" adlı əsərlərini naturadan çəkməsi, ərazidə Nuhla bağlı: Nuh Nəbidən xəbər verir, Nuh əyyamından qalıbdır, Nuhdan qalma məsəldir, Nuh Nəbini taxtda görüb, Süleymanı qundaqda kimi atalar sözü və məsəllərin, yer-yurd adlarının zənginliyi də bu fikrə dəstək olur.

Naxçıvanda Nuhun adı ilə bağlı toponimlər çoxluq təşkil edir. Ərazidə Nuhun adını yaşadan, onun adı ilə səsləşən: Gəmiqaya, Nuhçıxan, Nuhdabanı, Nügədih, Nürgüt, Nəbi yurdu, Nəhəcir kəndi, Nəhəcir dağı, Əlincə dağı, Ağrı dağı, İnan dağı, Kəmki dağı, Dava daşı, Peyğəmbər ayağı, Üçqardaş təpəsi, Qaranquş yaylağı və s. kimi etnonim, antroponim, toponim, hidronim və digər onomastik vahidlər mövcuddur ki, bu adların da hər birinin əmələgəlmə, yaranma yolu, leksik-semantik cəhətdən zəngin dil xüsusiyyətləri vardır.

Naxçıvan toponimi tarixin özü qədər qədimdir. Bu ad eradan əvvəl bina olunan tarixi bir şəhərin, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan böyük bir ərazinin, eyniadlı muxtar respublikanın adıdır. Mənbələrin verdiyi məlumata görə, bu ad haqqında ilkin məlumat yəhudi alimi İosif Flaviyə (e.ə. I əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın II əsri) məxsusdur. K.Ptolemeyin "Coğrafiya" adlı əsərində şəhərin adı Naksuana şəklində qeyd olunmuş və coğrafi mövqeyi göstərilmişdir [25, II c. s. 62]. Naxçıvan şəhərinin təşəkkül tarixi, adının əmələ gəlmə, yaranma mənbəyi və mənşəyi əsrlər boyu bir çox tədqiqatçı, dilçi, tarixçi və coğrafiyaşünasların, səyyah və diplomatların diqqətini cəlb etmiş, xalq ehtimalları, rəvayətlərlə yanaşı, yunan, latın, ərəb, fars, Azərbaycan, gürcü, rus, erməni, fransız dillərinə aid

mənbələrdə bir-birini məntiqlə tamamlayan, yaxud təkzib edən fikir və mülahizələr yaranmış, adını çoxsaylı etimoloji yozumu və versiyaları meydana çıxmış, müxtəlif mənbələrdə bu ad Naxç, Nəxçuan, Nəşəva, Nəşəvi, Nəqşicahan, Nəqcuan, Naxcuvan, Qələyi Nəxşivan, Nəxşuan, Naxuç, Nəxcir, Akçivan, Nacəvan, Naxçıvan və s. kimi variantlarda yazılmışdır [3, s. 29; 9; 13, s. 310; 16, s. 1-; 22, s. 28; 21, s. 27-30].

Naxçıvan sözünün Nuh peyğəmbərin adı ilə bağlı olması fikri bir çox tarixi qaynaq və mənbələrdə, qədim və orta əsrlərdə Naxçıvana gəlmiş səyyahların yol qeydlərində, müxtəlif tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Məsələn, Naxçıvanda olmuş fransız coğrafiyaşünas səyyahları Jan Şarden, Frederik Dübua de Monpere Naxçıvanın Nuhun yurdu olduğunu, bu adın mənşəyinin Nuh peyğəmbərin adı əsasında yarandığını yazmışdır [31]. Eyni fikir XIX əsrdə rus tədqiqatçıları V.Qriqoryev və İ.Şopenin tədqiqat əsərləri, rus dilində yazılmış ensiklopediyalarda da öz ifadəsini tapmışdır. Yazı müəllifləri Naxçıvanı Nuhun gəmisinin dayandığı ilk məntəqə hesab etmiş, ancaq məsələyə qatı ermənipərəst mövqedən yanaşmışlar [20, s. 66; 32, s. 318; 10, s 705]. 1881-ci ildə nəşrə başlayan "Qafqazın ərazi və tayfalarının təsviri məcmuəsi"ndə (SMOMPK) Naxçıvan şəhər uçilişinin inspektoru K.Nikitin də "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı məqaləsində özündən əvvəlki müəlliflərdən geri qalmır. O, erməni tarixçisi Çamçyana istinadən (Çamçyan da Georgi adlı müəllifə əsaslanıb) Naxçıvan sözünü ermənimənşəli ad hesab edir. Nuh, onun bacısı və digər ailə üzvlərinin Naxçıvanda, arvadının (Neemzara və ya Noemqara) isə Mərənddə dəfn olunduğunu yazır və Mərənd sözünü "Mayrand" - "ana buradadır" mənasında açıqlayır [26, s. 109-113]. 1926-1927-ci illərdə Azərbaycan Arxeologiya Komitəsinin xətti ilə Naxçıvanda tədqiqat aparmış V.M.Sısoyev də Nuhun qəbrinin Naxçıvanda olması haqqında məlumat vermişdir [27, s. 97-105]. Elə bunun nəticəsidir ki, Naxçıvan adının Nuhçıxan versiyası dilimizə aid bir çox mənbədə də öz ifadəsini tapır. Tədqiqatçılarımız bu adın mənşəyini "Dünya tufanı" ilə əlaqələndirərək sözün: Nuhçıxan, Nuhtaban, Nahçıxan, Naxçığan, Navçığan, Noyçıxan, Navçıxan, Navcığan, Naxçıvan şəkillərində formalaşması ehtimalını irəli sürürlər [4, s. 98; 5, s. 103;

14; 24, s. 33]. "Bu el mülahizəsinə görə "Naxçıvan" sözü üç hissədən - "Nax" (Nuh), türk dillərində isim düzəldən "çı" şəkilçisindən və yer, məkan bildirən "van" toponimik formantından ibarət olub, "Naxçuvan" - "Nuhçuların (Nuh tərəfdarlarının) məskəni", "Nuhun diyarı" deməkdir [25, II c., s. 62]. Naxçıvan və Nuh probleminə dair bir neçə məqalə ilə çıxış edən Q.Qədirzadə "Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan" adlı kitabında bu məsələyə yeni elmi prizmadan yanaşmış, Nuh peyğəmbəri əfsanəvi şəxs kimi deyil, müqəddəs Tövrat və Quranda adı çəkilən bir peyğəmbər kimi təqdim etmiş, Dünya tufanı və Naxçıvan coğrafi arealında Nuh peyğəmbərin tutduğu mövqeyi açıqlamışdır [18].

Naxçıvan coğrafi arealında Nuhla bağlı toponimlərdən biri Gəmiqaya dağ adıdır. Gəmiqaya xalqımızın daş pasportu, maddi və mənəvi mədəniyyətimizin təbii tarix muzeyidir. Bu dağda Dəmir və Tunc dövrlərinə aid yaşayış yerləri, petroqlif, heroqlif və piktoqramlar, arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət abidələri, daşlar üzərindəki günəş, ay, ulduz, araba, qaranquş, keçi, öküz, maral, bəbir, canavar, at, it, ilan şəkilləri burada yaşayan insanların kosmik dünyagörüşü, fəlsəfi düşüncə tərzi, ovçuluq mədəniyyəti, təsərrüfat həyatı, peşə və məşğuliyyətindən soraq verən ilk daş kitabələridir. Bu kitabələrin öyrənilməsində tədqiqatçı alimlərimizdən V.Əliyev, V.Baxşəliyev, Q.Qədirzadə, A.Seyidov, Ə.Fərzəli, H.Səfərov və başqalarının gördükləri işlər xüsusi əhəmiyyət kəsb edir [11; 7; 18; 28; 12; 30]. A.Seyidovun "Gəmiqaya (toponimlər, qədim köç yolları)" adlı kitabı Gəmiqayanın toponimik mənzərəsini elmi əsaslarla əks etdirir. Kitabda Naxçıvan və Zəngəzur ərazisinin 170-dən artıq yer adı (toponim) və qədim köç yol adları tədqiqat obyekti seçilmişdir ki, bu adlar da xalqımızın formalaşma tarixi, etnik tərkibi, ad mədəniyyəti haqqında soraq verən çox qiymətli materiallardır [28]. Ancaq adı çəkilən müəlliflərin tədqiqat obyektinə daxil olmadığından toponimlərin linqvistik xüsusiyyətləri ilə bağlı araşdırmalar aparılmamışdır. Bunu nəzərə alaraq Naxçıvan ərazisində Nuh peyğəmbərin adı ilə bağlı yer-yurd adlarının tarixi-etimoloji cəhətdən təhlil etməyi qarşıya məqsəd qoymuşuq. Əvvəlcə Gəmiqaya adı haqqında.

Gəmiqaya gəmi və qaya sözlərinin biri-birinə yanaşması nəticə-

sində yaranmış milli adlarımızdan biridir. Min illərdir ki, bu ad dilimizdə işlənir və adın mənşəyinin Nuh peyğəmbərin adı ilə bağlı yarandığı ehtimal olunur. Xalq etimologiyasından fərqli olaraq Ə.Hüseyni belə nəticəyə gəlir ki, "Gəmiqayanın ilkin adı Alqaraq olub. Tələffüz nəticəsində q hərfi *x* elementi ilə dəyişib. Alqaraq şəklinə düşmüşdür. Azərbaycanda Alqaraq adlı iki dağ var. Bunlardan biri Gəncədə, digəri isə Naxçıvanda - Ordubad ərazisindədir. Alqaraq dilimizdə sıra ilə al və qar köklərindən -"uca və nəhəng" mənası daşıyan sözlərdən əmələ gəlmişdir. Yəni "uca, nəhəng dağ". Bu həqiqətən də belədir. Hər iki dağ uca və nəhəngdir. Maraqlıdır ki, dağların hər ikisi püskürmə nəticəsində uçub, sonralar yeni ad almışlar. Gəncədə Kəpəz, Naxçıvanda Gəmiqaya olmuşlar" [15].

Bizim fikrimizcə, Gəmiqayaya bu ad dağın təbii mövqeyinə, relyef quruluşuna, görünüşcə gəmiyə oxşadığına görə verilmişdir ki, bu ad da xalq etimologiyası ilə səsləşir. Deyilənə görə, Ümumdünya tufanı zamanı Nuhun gəmisi bu dağa toxunub dayanmış, zaman keçdikcə gəmi daşlaşıb qayalaşmış və nəhəng bir dağa çevrilmişdir. Odur ki, Naxçıvanın su ilə heç bir əlaqəsi olmayan yüksək dağ zirvəsinə gəmi ilə bağlı adın verilməsi xalq arasında ümumi fikir yaradır ki, bu dağ Nuhun gəmisinin daşlaşmış, qayalaşmış gövdəsidir. Dağ görünüşünə görə gəmiyə oxşadığı üçün ona Gəmiqaya adı verilmişdir. Bu ad elmi mənbələrdə də qorunub saxlanılmışdır.

Gəmiqaya və ətraf əraziləri tarixi və təbii coğrafi zənginliyinə görə fərqlənir. Burada tarixi leksikologiyamız və coğrafi obyektə ad vermə ənənələrimiz özünü yaşadır. Odur ki, Gəmiqayada hər daşın, qayanın, gölün, suyun, yerin öz adı, öz mövqeyi, üzərindəki rəsmlərə, heroqlif və piktoqramlara görə öz yaranma tarixi vardır. Bu adları leksik-semantik cəhətdən aşağıdakı şəkildə qruplaşdıra bilərik:

a) Şəxs adı ilə bağlı olanlar: Nəbi yurdu, Ağalar yurdu, Seyid yurdu, Süleyman yurdu, Əzim yurdu, Bədəl demisi, Novruz güneyi, Qəhrəman çuxuru, Murad ağılı.

b) Tayfa adı ilə bağlı olanlar: Saqqarsu dağı, Saqqarsu çayı, Kəngərli düzü, Qaraçı yurdu, Xəzər yurdu.

c) Müasir və keçmiş kənd adları: Nəsirvaz, Nuhdabanı, Nügədih (Nühgədik), Nürgüt, Tivi, Ağdərə, Parağaçay, Bist, Əlahi, Xurs,

Urmus.

ç) Dağ, daş, qaya adları: Qapıcıq zirvəsi, Qazangöl dağı, Dəmirli dağ, Ələngəz dağı, Kəmki dağı, Ballı qaya, Dava daşı, Gölün daş, Çadırdaş, Daşbaşı.

d) Dərə, təpə və sahə adları: Yağlı dərə, Sallı dərə, Qayırma dərəsi, Ayı dərəsi, Qaranlıq dərə, Sarı dərə, Dəhnə dərə, Çeşmə başı, Pətək qoyulan, Subay çınqılı, Şamlar, Şorlar, Xəzər yurdu, Gözcük, Pez yurdu, Novlar, Soltanlar, Babacıq, Aşağı baca, Orta baca, Yuxarı baca, Topallı, Nefitli, Hasarlar, Çürüklü, Silgəz, Təndirli, Boğaz yurd, Nav yeri.

e) Su mənbələri ilə bağlı olanlar: Zərnəbad çayı, Əyriçay, Bazar çay, Şırlan çayı, Göllər, Göygöl, Qazangöl, Dəli bulaq, Lala çeşməsi, İsti çeşmə, Soyuq çeşmə, Yeddi çeşmə, Şahbulaq, Xan bulağı, Narzan bulağı, Arxac bulağı.

ə) Heyvan və quş adları ilə bağlı olanlar: Qaranquş yaylağı, Çaqqallar yurdu, Eşşək meydanı, Qartal oturan, Keçi qalası.

f) Bitki adı ilə bağlı olanlar: Çimənnər (lər), Çuxur çimən, Şıppırlı, Dikgözə, Meşə.

g) Forması və relyef quruluşuna görə verilən adlar: Böyük qara qaya, Kiçik qara qaya, Yumru daş, Dəlik daş, Gen yurd.

ğ) Baş vermiş hadisə ilə əlaqədar verilən adlar: Camışölən, Əliölən, Qanlı zəmi.

h) Rəvayət və əfsanələrlə bağlı olanlar: Nuh yurdu, Gəmiqaya, Gülüm-gülüm xarabalıqları, Qızgəlin çuxuru.

x) Rəng bildirən sifətlər əsasında yaranan adlar: Qara qaya, Qara sal, Sarı daş.

ı) Pir və ocaq adları: Bibqətəl piri, Qara pir.

Bu adlar tarixin yaddaşı, dilimizin onomastik leksikasının qədim nümunələridir. Bu nümunələrin bir çoxunun leksik tərkibində xalqımızın etnik tərkibinə işıq saçan dil elementləri çoxdur. Məsələn, C.Cəfərov "qədim salur və əfşar tayfa damğalarının Gəmiqaya işarələri sistemində gözə dəydiyini" yazır [9, s. 54]. Bu tayfa adları eradan əvvəlki minilliklərə aid olmuş, müxtəlif fonetik transformasiyalara uğrayaraq zəmanəmizə qədər gəlib çatmışdır. Belə tayfa damğalarının Gəmiqayadakı izləri oğuz qəbilələrinin tarixi kökü, yayılma arealı,

məşğuliyyət sahələri haqda da təsəvvürü genişləndirir.

Naxçıvan ərazisində Nuhun adını yaşadan toponimlərdən biri də Qapıcıq adıdır. Qapıcıq Qafqazın ən yüksək zirvəsi hesab olunur. Bu dağ adının mənşəyi ilə bağlı həm xalq arasında, həm də elmi ədəbiyyatda müxtəlif fikirlər vardır. Xalq etimologiyasına görə, tufandan sonra gəmidən yer üzünə açılan ilk qapı belə adlandırılıb. Ə.Hüseyninin fikrincə, Qapıcıq adı qabcıq sözündən götürülüb: "Gəmiqaya"nın zirvələrindən birinə Qapıcıq deyilir. Çoxuna elə gəlir ki, guya bura qapıya bənzədiyinə görə belə adlanır. Əslində isə, qabcıq qədim dilimizdə gəmi-qayıq deməkdir. Bu ad da şübhəsiz həmin hadisə ilə (yəni Nuh tufanı ilə - A.B.) əlaqədar meydana gəlmişdir" [15]. Ə.Hüseynidən fərqli olaraq N.Məmmədov Qapıcıq sözünü "dar dərə keçidi" mənasında açıqlayır: "Qədim türk dillərinə mənsub cigi "dar dərə" sözü Alacigi dağının (Qazax rayonunda dağ, hündürlüyü 696 metr) adında əks olunmuşdur. Fikrimizcə, bu oronimdə də məhz cik sözü başqa mənanı ifadə edir. Deməli, Qapıcıq zirvəsi adının mənası "dar dərə keçidi" deməkdir" [23, s. 25]. Fikrimizcə, N.Məmmədovun qeyd etdiyi Alacigi dağının adında əks olunan cigi termininin Qapıcıq adı ilə heç bir əlaqəsi yoxdur. Odur ki, hələlik elmi təhlilini tapmayan bu adı ehtimal şəklində Nuhun gəmisindən yer üzünə açılan qapı mənasında açıqlamaq mümkündür.

**Nəbi yurdu.** Ən qədim toponimlərdən biridir. Nəsirvazla Gəmiqaya arasında yerləşən bu coğrafi obyektin adı Nuh peyğəmbərin əsas adlarından biri olan Nuh Nəbi adı ilə bağlı yaranmışdır. Rəvayətə görə, Nuh Nəbi yer üzünə çıxdığı zaman bu ərazidə yurd-yuva saldığı, ərazidə məskunlaşdığı üçün buraya Nəbi yurdu adı verilmişdir.

**Nuhdabanı.** Gəmiqaya dağ zirvəsinin ətəklərində yerləşən, adı rəvayət və əfsanələrdə çəkilən qədim kənd adıdır. Nuh və daban komponentlərindən ibarət olan toponimin hər iki hissəsi Nuhun adı ilə bağlıdır. Əfsanəyə görə, Nuh peyğəmbər gəmidən yer üzünə çıxarkən ilk dəfə dabanını torpağa basmış və həmin yerdə yurd salmağı məsləhət görmüşdür. Elə buna görə də həmin yerə Nuhdaban adı verilmişdir. Daban sözü dilimizdə həm də "dağın, qayanın dabanı", "dağ və qaya ayağının aşağı hissəsi", "dağın dibinə yaxın yer" anlamında işlənir. Demək, belə güman etmək olar ki, Nuhdaban adı "Nuhun düşdüyü zir-

vənin aşağı hissəsi, dağın dibinə yaxın yer, dağ aşırımı" mənalarında işlənir ki, bu da ərazinin relyef quruluşu, Gəmiqayanın yüksək zirvədə yerləşməsi ilə uyğun gəlir.

**Nügədih.** Gəmiqaya ərazisində qədim yaşayış məskəni və dağ aşırımının adıdır. Adın ilkin variantı Nuhgədik olmuş və canlı danışıq dilində fonetik dəyişməyə uğrayaraq Nügədih şəklinə düşmüşdür. Nuhgədik adının birinci komponenti Nuh peyğəmbərin adı ilə bağlıdır, gədik sözü isə dağ aşırımı mənasında işlənir. Deməli, Nuh peyğəmbərin adı ilə bağlı yaranan bu toponim "Nuhun gədiyi", "Nuhun yaşadığı dağ aşırımı" mənasındadır.

**Nürgüt.** Ordubad rayonunda kənd və böyük bir ərazinin adıdır. Bu ad mənbələrdə Dərənürgüt adı ilə qeydə alınmış [17, s. 149, 180] və sonralar Nürgüt şəklində işlənmişdir. Tədqiqatçıların fikrincə, bu ad monqolmənşəli nohur və xüt – "düşərgə", "dayanacaq" sözlərinin birləşməsi yolu ilə yaranıb [8, s. 97]. Digər fikrə görə isə bu ad Nouqut sözünün təhrif olunmuş variantıdır. Toponim fars dilindəki nou (təzə, yeni) və qut (kənd, şəhər, qala) sözlərindən ibarət olub "yeni kənd", yaxud "təzə qala" mənasındadır [2, s. 390]. Fikrimizcə, Nürgüt adının mənşəyini monqol və digər dillərə aid sözlərlə açıqlamaq doğru deyil, çünki adın birinci komponenti olan nür sözü Nuh sözünün fonetik dəyişikliyə uğramış forması, ikinci komponenti isə "kənd", "qala", "istehkam" mənasında işlənən qut sözündən ibarətdir. Bütövlükdə Nürgüt sözü "Nuha məxsus qala, istehkam, yaşayış yeri" mənasında işlənir.

**Dava daşı.** Gəmiqayada yerləşir, e.ə. burada yaşayan insanlar dava (döyüş) zamanı bu daşdan müdafiə məqsədilə istifadə etdikləri üçün obyektə belə ad verilmişdir. Bu haqda danışan V.Əliyev yazır ki, "Nəbi yurdu ərazisində təbii "qala istehkam"da Gilançay vadisinin aşağı axını boyunca yaşamış maldar tayfalar Tunc və ilk Dəmir dövründə (e.ə. IV-I minilliklərdə) yay fəslində Qaranquş yaylağında mövsümi məskunlaşıb, təsərrüfat işləri ilə məşğul olmuş və təhlükədən xilas olmaq üçün qayalar arasında əlverişli strateji mövqeyə malik olan yerlərdən qalaça kimi istifadə etmişlər. Maraqlıdır ki, Nəsirvaz, Tivi, Bist, Xurs, Biləv, Parağa kəndlərinin əhalisi arasında bu qədim istehkamlar "Dava daşı" – yəni dava, döyüş, vuruş yeri, müdafiə qalaları adlandırılır" [11. s. 12].

**Nəhəcir dağı.** Culfa rayonu ərazisində püskürmə nəticəsində yaranmış sıldırım qayalardan ibarət bu dağ adı Nəhəcir kənd adına dağ topoformantının artırılması yolu ilə yaranmışdır. Nəhəcir respublikamızda ən qədim toponimlərdən biridir. Bu adın mənşəyinə toxunan N.Məmmədov yazır ki, Nəhəcir toponiminin Nuhəcir olması, qənaətimizcə, daha inandırıcıdır. Uzun illər ərzində Nuhəcir sözü ahəng qanununa uyğunlaşaraq qalın "u" saitinin incə "ə" saitinə keçməsi nəticəsində Nəhəcirə çevrilmişdir [24, s. 27]. Bu fikirdən fərqli olaraq Nəhəcir toponiminin Nuh şəxs adı və fars dilindəki cir (yamac, maili yer) sözlərindən ibarət olub "Nuhun yamacı" mənasında işləndiyini daha inandırıcı sayırıq [6. s. 172].

**Əlincə dağı.** Culfa rayonu ərazisində sıldırım qayalardan ibarət möhtəşəm dağ adıdır. Eyniadlı qala da bu dağın üzərində yerləşir. Bu qala neçə-neçə müharibələrin şahidi olmuş, Eldənizlər, Elxanilər, Cəlairilər dövründə möhtəşəm istehkama çevrilmiş, illər uzunu monqollarla mübarizə aparmış, zamanın feodal çəkişmələri nəticəsində dağılmış və adı əsrlər boyu tarixin səhifələrindən düşməmişdir.

Dilimizdə Əlincə adının mənşəyinə birmənalı şəkildə yanaşılmır. Xalq etimologiyasına görə, dağın adı "əlini çək" sözündən yaranıb. Digər mülahizələrə görə isə dağın (həm də qalanın) adı Alancıq ("meydança", "kiçik meydan", alan – qədim türk dilində "düzənlik", "meydan") sözündəndir. M.Seyidovun fikrincə, ilkin forması "erinq//erınq" olan bu söz sonra Erincaq//Erincək şəklinə düşmüş və "möhkəm, qüvvətli, dövlətli hakimiyyəti olan yer" mənası bildirmişdir [29, s. 88]. A.Axundov Əlincə adını monqolların yürüşlərində iştirak edən, əslən türk tayfası olan əlcihinlərlə əlaqələndirərək yazır ki, Əlincə toponiminin metateza (səslərin yerdəyişməsi) və eliziya (səs düşümü) fonetik hadisələri nəticəsində əlcihin (elcihin) etnonimindən törəməsi tamamilə mümkündür [1, s. 34-35].

Apardığımız araşdırmalara əsaslanıb belə qənaətə gəlirik ki, tufandan sonra ərazidəki Gəmiqaya, Alancıq, Nuhdabanı, Nuhəcir, Nuhçıhan kimi yer-yurd adları Nuh peyğəmbər və onun yaxın adamlarının, o cümlədən Əlincə adı da Nuh peyğəmbərin nəticəsi Alınca xanın adı ilə bağlı yaranmışdır. Əksər mənbələrdə dağ və qala adının Alancıq şəklində işlədilməsi də bu fikrə dəstək olur. Deməli, belə nəticəyə gəl-

mək olar ki, Alınca xan hakimiyyəti illərində yüksək dağ zirvəsində inşa etdiyi qala onun adı ilə adlandırılmış və zaman keçdikcə Alınca adı Əlincə şəklinə düşmüşdür.

**Peyğəmbər ayağı qayası.** Culfa rayonunun Kırna kəndi ərazisində qaya adıdır. Q.Qədirzadənin yazdığına görə, bu ad Nuh peyğəmbərin adı ilə bağlı yaranmışdır. Rəvayətə görə Nuh peyğəmbər buradakı qaya üzərində hərəkət etmiş, ayağını qoyduğu yerdə yerimək asanlaşsın deyə qaya yumşalmış, onun ayaq izləri orada qalmışdır. Elə bu səbəbdən də əraziyə Peyğəmbər ayağı adı verilmişdir [19].

**Üçqardaş təpəsi.** Culfa rayonunun Kırna kəndi ərazisində təpə adıdır. Xalq arasında müqəddəs sayılan bu ərazi həm də Dəlik daş və Papaqlı daş adları ilə tanınır. Q.Qədirzadənin yazdığına görə, bu oronim Nuh peyğəmbərin Ham, Sam və Yafəs adlı oğlanlarının adı ilə bağlı yaranmışdır [19].

Gəmiqaya ərazisindəki toponimlərin bir qisminin etimologiyası hələ də tam dəqiqləşdirilməyib, bu sahədə xeyli iş görmək lazımdır. Adların bir qisminin mənşəyi isə xalq arasında yaşayan müxtəlif rəvayət və əfsanələrlə bağlıdır. Bu baxımdan ərazidəki Ağrı dağ ("ağır dağdır"), Kəmki dağ ("bu dağ o dağlardan kəm ki deyil), İnandağ ("inanki, dağdır"), Qaranquş yaylağı, Gülüm-gülüm dağı, Qızgəlin çuxuru və s. Kimi oronimlərin mənşəyinin Nuhun adı ilə bağlı açıqlanması da maraq doğurur.

**Qaranquş yaylağı.** Gəmiqayadakı qayaüstü rəsmlər, piktoqrafik yazılar, qədim tayfa damğaları və digər abidələr bu yaylaqda yerləşir. Qaranquş yaylağının adı zootoponim səciyyəli ad olub, Nuh tufanının adı ilə bağlı yaranmışdır. Yer üzünü su basacağını əvvəlcədən bilən Nuh peyğəmbər səfərə çıxanda quşların və heyvanların hərəsindən bir cüt götürür. O, bir müddət suyun üzündə qaldıqdan sonra gəmidəki quşları havaya buraxır ki, sahili müəyyənləşdirə bilsin. Ancaq quşların heç biri sahili tapa bilmir, səmada qanad vurub, gəmiyə qayıdırlar. Növbə qaranquşa çatır. Qaranquş gəmidən xeyli uzaqlaşır və sahili tapıb, geriyə qayıdır. O, gəmi üzərində qanad vurub, sahilə tərəf qayıdır, gəmi də qaranquşun arxasınca üzür. Nəhayət, sahil görünür, gəmi qayaya toxunub dayanır. Nuh və onun adamları sahilə çıxır və ətrafın gözəl yaylaq olduğunu görüb, burada məskən salırlar. Elə həmin vaxt-

dan da həmin yer Qaranquş yaylağı adlanır.

Bütün bu faktlar sübut edir ki, Nuh peyğəmbərin düşdüyü məkan, yaşadığı yurd və dəfn olunduğu yer Naxçıvandır. Naxçıvan – Nuhçıxandır.

## ƏDƏBİYYAT


1. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik. 1983.
2. Azərbaycan toponimləri: Ensiklopedik lüğət. Bakı: Azərbaycan ensiklopediyası, 1999.
3. Allahyarov K. Naxçıvan sözünün mənşəyi və mənası // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2002, № 9, s 27-30.
4. Babayev S. Əfsanələr diyarı. Bakı: Elm, 2001.
5. Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002.
6. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2007.
7. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı, 2003.
8. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı Bakı: Nafta Press, 1998.
9. Cəfərov C. Milli etnik yaddaşın izi ilə. Bakı: Səda, 2005.
10. Энциклопедический словарь. Т. XL, С.- Петербург: Ф.А.Брокгауз, И.А.Ефрон, 1897.
11. Əliyev V. Gəmiqaya. Bakı, 2005.
12. Fərzəli Ə. Gəmiqaya – Qobustan əlifbası. Bakı, 2003.
13. Hacıyev İ., Rzayev F. Bir daha Naxçıvan sözünün etimologiyası haqqında // Tarix vo onun problemləri, Bakı, 2007, № 2, s. 303-311.
14. Həbibbəyli İ. Nuhçıxan-Naxçıvan. "Şərq qapısı" qəz., 2009, 15 aprel.
15. Hüseyni Ə. Xalqımızın mənlik heykəli. "Sovet Naxçıvanı" qəz., 1986, 30 yanvar.
16. Hüseynzadə L. Nəxcir əfsanəsi // Naxçıvan Dövlət Universitetinin Elmi xəbərləri, 1999, № 5, s. 139-140.
17. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996.
18. Qədirzadə Q. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan. Naxçıvan, 2008.
19. Qədirzadə Q. Naxçıvanda Nuh (ə.s.) və Dünya Tufanı ilə bağlı yeni araşdırmalar. "Şərq qapısı" qəz., 2009, 14 yanvar.
20. Григорьев В. Статистическое описание Нахичеванской провинций. С.- Петербург, 1833.

21. Quliyev Ə. Naxçıvan sözünün mənşəyi haqqında // Naxçıvan, 2000, № 2, s. 27-30.
22. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977.
23. Məmmədov N. Azərbaycanın yer adları. Bakı, 1993.
24. Məmmədov N. Vətən dərdi. Bakı, 2005.
25. Naxçıvan ensiklopediyası: 2 cilddə. Naxçıvan, 2005.
26. Никитин К.Н. Город Нахичевань и Нахичеванский уезд / Сборник материадов для описания местностей и племен Кавказа. Вып. II, Тифлис, 1882, с. 109-113.
27. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (Отчет о поздке летом 1926 г.); Нахичеванский Край – Нах. ССР (Отчет о поздке летом 1927 г.) / Изв. Азкомстариса. Вып. 4, Баку, 1929, с. 87-215.
28. Seyidov A. Gəmiqaya (toponimlər, qədim köç yolları). Bakı, 2003.
29. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989.
30. Səforov H. Gəmiqaya və çevrəsindəki yer adları // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 108-112.
31. Zaman Ş. Naxçıvan Fransız mənbələrində. "Azərbaycan müəllimi" qəz., 1999, 13-19 may.
32. Шопен И.Н. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. С. – Петербург, 1852.

**Fəxrəddin SƏFƏRLİ**
*AMEA – nın müxbir üzvü,*
*tarix elmləri doktoru, professor*

## 4.6. NAXÇIVAN ŞƏHƏRİNDƏKİ NUH PEYĞƏMBƏRİN MƏZARÜSTÜ TÜRBƏSİNİN TARİXİNƏ DAİR

Orta əsr qaynaqları, bir sıra səyyahların yol qeydləri təsdiq edir ki, Yaxın Şərqin qədim elm, təhsil və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı qədim və orta əsrlər zamanı yaradılmış maddi-mədəniyyət nümunələri ilə çox zəngin olmuşdur. Ərazidə indiyədək salamat vəziyyətdə gəlib çatan, həmçinin bəzi abidələrin dağılmış vəziyyətdə qalan qalıqlarının və orta əsr qaynaqlarının da təsdiq etdiyi kimi bu nümunələr içərisində memarlıq abidələri xüsusi yer tutmuşdur. Bir qismi zaman keçdikcə təbii və s. qüvvələrin təsirindən məhv olaraq sıradan çıxmış bu abidələrin bir hissəsi də Sovet hakimiyyəti illərində ateizm ideologiyasına uyğun olaraq planlı şəkildə tədricən dağıdılmışdır. Belə nümunələrdən biri də Naxçıvan şəhərində əhali arasında Nuh peyğəmbərin qəbri və məzarüstü türbəsi kimi tanınan abidədir.

Naxçıvan şəhərinin cənubunda yerləşən və hansı dövrə aid olması dəqiq bilinməyən, ancaq yerli əhalinin - müsəlman türklərin böyük hörmət və ehtiram bəslədiyi və ziyarət etdiyi, yeraltı və yerüstü hissədən ibarət olan türbənin sərdabə hissəsində yerləşən bu məzar Naxçıvanda Sovet hakimiyyəti qurulanadək bölgənin məşhur ziyarətgahlarından biri idi. Ancaq Sovet hakimiyyəti illərində Azərbaycanın digər məşhur inam yerləri kimi bu müqəddəs yer - qəbir də xalqa zorla unutdurulmuş, üzərindəki türbə özülünədək dağıdılmışdır. Bu səbəbdən də tək-tək yaşlı adamlar istisna olmaqla əhalinin əksəriyyətinin bu abidə haqqında məlumatı yox idi və onun yerini heç kim bilmirdi.

Ona görə də maddi-mədəniyyət nümunələrimizə, milli-mənəvi dəyərlərimizə ehtiramla yanaşan və bu sahədə qayğısını əsirgəməyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2005-ci ildə türbənin yeri müəyyənləşdirilmişdir. Bundan sonra AMEA Naxçıvan Bölməsinin əməkdaşları bu ərazidə arxeoloji tədqiqat işləri aparmış, türbənin ətrafı təmizlənmiş, bünövrəsi tamamilə aşkara çıxarılmışdır. Xoşbəxtlikdən türbə dağıdılarkən onun özülündən-sək-

küzguşəli bünövrəsindən təxminən 20 sm hündürlükdə salamat qalmışdır. Türbənin bünövrəsi aşkar olunduqdan və arxeoloji tədqiqat işləri başa çatdırıldıqdan sonra Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov 28 iyun 2006-cı il tarixdə "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn tələblərə uyğun olaraq Nuh peyğəmbərin məzarüstü türbəsi bərpa edilmişdir.

Vaxtilə abidənin üzərində onun təyinatı, sifarişçisi, inşa tarixi, memarı və s. haqqında dəyərli məlumat verə biləcək kitabələr olmuşdur. Ancaq zaman keçdikcə təbii qüvvələrin (isti, soyuq, yağış, qar, külək) təsirindən, yaxud da sovet hakimiyyəti illərində məhv edilməsi səbəbindən, bu kitabələrin heç biri indiyədək qalmadığından onun inşa tarixi haqqında dəqiq və əsaslı fikir söyləmək mümkün deyildir.

1934-cü ildə iki aydan artıq Naxçıvanda ezamiyyətdə olan rus şərqşünası K.N.Smirnov arxiv materiallarına əsaslanaraq Nuhun qəbrinin 4900 il yaşı olduğunu qeyd etsə də qəbirin üstündəki türbə haqqında heç bir məlumat verməmişdir (7, s. 99).

Bir sıra maddi-mədəniyyət abidələrimizlə bərabər bədnam qonşularımızın erməni mədəniyyəti nümunəsi kimi qələmə verməyə çalışdıqları (onlar bu abidəni özlərinə məxsus kilsə adlandırırlar) türbə ətrafında arxeoloji tədqiqatlar, bərpa və abadlıq işləri zamanı torpağın altından bir sıra maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Bu nümunələrə, o cümlədən aşkar olunan epiqrafik materiallara əsasən dövrü haqqında tədqiqatçılar arasında müxtəlif fikirlər olan abidənin inşa tarixi barədə müəyyən fikirlər söyləmək mümkündür.

Arxeoloji tədqiqatlar zamanı abidə ətrafında aşkar edilən türbəyə aid ornament qalıqları Naxçıvan memarlıq məktəbinə məxsus abidələr - xüsusilə bu məktəbin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani yadigarları olan Yusif Küseyr oğlu (1162-ci il) və Möminə xatın (1186-cı il) türbələrinin ornamentləri ilə çox oxşardırlar. Tapıntılar göstərir ki, Nuh türbəsinin yanlarının üzlənməsində Naxçıvanın XII əsr abidələrində olduğu kimi üzləmə bloklarından istifadə olunmuşdur. Bu bloklar gəc məhlulu və bişmiş kərpiclə hazırlanmışdır.

XIII əsrdə fars dilində yazılmış "Əcaib əd-Dünya" əsərinin naməlum müəllifi Naxçıvan şəhərindəki binaların tikinti materialından da-

nışarkən yazır ki, "bütün binalar kərpicdən və gəcdən tikilmişdir". Seysmik zona olan Naxçıvanda orta əsrlərdə memarlıq abidələrinin inşasında özünün plastikliyi, sukeçirməsi, suyadavamlılığı, möhkəmliyi ilə seçilən gəcdən geniş istifadə olunurdu. Sənətkarlar gəcə bir sıra əlavə maddələr, xüsusilə əhəng qataraq onun keyfiyyətini daha da yüksəldirdilər. Bu tikinti texnologiyasına biz Nuh türbəsinin inşasında da rast gəlirik. Qazıntılar zamanı aşkar olunan tikinti materialları təsdiq edir ki, türbə kvadrat formalı bişmiş kərpiclərlə və gəc məhlulu ilə inşa olunmuşdur. Bu kərpic tipi və tikinti texnikası Azərbaycanın X-XII əsr memarlıq abidələri üçün xarakterikdir. Burada nisbətən salamat qalan üzləmə blokları da qeyd olunan qayda üzrə bişmiş kərpic və gəc məhlulu ilə hazırlanmışdır. Ona görə də bərpa edilən türbənin yanlarının üzlənməsində abidənin ətrafından aşkar edilən həmin bloklar əhəmiyyətli qaynaq rolunu oynamış, türbənin bərpasında orijinallığı qorumağa çalışan bərpaçılar yeni üzləmə bloklarının və onlar üzərindəki ornamentlərin hazırlanmasında tapılan maddi mədəniyyət nümunələrini əsas götürmüşlər.

Bu ornamentlərin bir hissəsi üzərinə göy rəngli kaşı çəkilmiş kərpiclərlə hazırlanmışdır. Tərkibinə qatılan metal oksidindən asılı olaraq göy, qara, qırmızı, firuzəyi və s. rənglərdə hazırlanan kaşılardan orta əsrlərdə binaların inşasında bəzək-inşaat materialı kimi istifadə olunmuşdur. Türbədə bizədək ancaq göy rəngli kaşı nümunəsi gəlib çatdığına görə deyə bilərik ki, orada əsasən bu kaşıdan daha çox istifadə olunmuşdur. AMEA-nın müxbir üzvü Cəfər Qiyasinin fikrincə, bu cür kərpiclər Səlcuq imperiyasının başlıca memarlıq mərkəzlərində demək olar ki, eyni vaxtda - XII yüzilin I yarısında meydana gəlmişdir. Başlanğıcda belə kərpiclər çox az, tikilinin ən vacib yerlərində naxış, ya da kitabə qurşağı şəklində işlədilirdi (4, s. 188).

Nuh türbəsindən üzləmə blokları vasitəsi ilə bizədək çatan ornamentləri Yusif Küseyr oğlu, Xaraba Gilan və Möminə xatın türbələrinin ornamentləri ilə müqayisə edərkən aydın olur ki, bu ornamentlər sadədən mürəkkəbə doğru inkişaf yolu keçmişdir. Belə ki, Nuh türbəsinin ornamentləri Yusif Küseyr oğlu türbəsində olduğu kimi nisbətən sadə, bəzi hallarda müəyyən qədər inkişaf etmiş, Möminə xatın türbəsinin ornamentləri isə daha mürəkkəb və çox mükəmməldir. Məhz

bunu nəzərə alaraq memarlıq namizədi Q.Əliyev qeyd edir ki, Yusif Küseyr oğlu türbəsinin memarlıq quruluşunun inkişaf edərək Möminə xatın türbəsinin mürəkkəb quruluşuna keçməsi və burada ən yüksək səviyyəyə çatması qanununa uyğun olaraq ornamentlərin quruluşları da müvafiq surətdə inkişaf edir və Möminə xatın türbəsində ən yüksək zirvəyə çatır (2, s. 63).

Bu ornamentləri təhlil edərkən görünür ki, naxışlar hazırlanarkən kərpic dekorun ən mürəkkəb, ən zəngin örnəkləri olan "girih" (düyün) adlanan xüsusi həndəsi ornamentlərdən də istifadə olunmuşdur. Tədqiqatçıların fikrincə girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan (çoxbucaqlılar, yaxud ulduzlardan, ya da onların hissələrindən) ibarətdir. Ciddi riyazi qanuna tabe olan bu naxışlar bütünlüklə xətlərin bir-biri ilə bağlı ahəngdar birləşməsindən yaranır. Girih quruluşları XI-XIII yüzillərin Azərbaycan memarlıq bəzəyində aparıcı yer tutmuşdur (2, s. 5). Türk mənşəli bu ornamentlərin Nuh peyğəmbərin qəbri üzərindəki türbənin bəzədilməsində geniş tətbiqi bədnam qonşularımız tərəfindən uydurulan, abidənin ermənilərə aid kilsə olması fikrini təkzib və alt-üst edir.

1834-cü ildə Azərbaycanda olan, Naxçıvan şəhərini "Nuh şəhəri" kimi xarakterizə edən fransız səyyahı Frederik Dyuba de'Monperyenin "səkkizbucaqlı, diametri on- on iki ayaq olan" Nuh türbəsinin "işlənmə üslubu və materialı Naxçıvanın başqa abidələrinin üzərində aparılmış eyni iş üslubundadır. Bu onu göstərir ki, türbə yerli hakimlərin hakimiyyəti illərində yenidən təmir və bərpa edilmişdir" sözləri (6) bu fikri daha da möhkəmləndirir. Səyyahın verdiyi bu məlumatdan da aydın olur ki, Nuh türbəsi memarlıq-konstruktiv xüsusiyyətlərinə görə Azərbaycan memarlığının Naxçıvan məktəbinə, geniş mənada desək Səlcuq memarlığının qülləvari türbələr qrupuna məxsus abidə olmuşdur və onun erməni memarlığı ilə heç bir əlaqəsi yoxdur.

Qeyd olunduğu kimi arxeoloji qazıntılar zamanı türbənin ətrafından bir neçə ədəd epiqrafik materialın qalıqları - kitabə fraqmentləri tapılmışdır. Tapıntılar içərisində nisbətən salamat və yaxşı vəziyyətdə qalmış, üzərinə basma üsulu ilə "Allah" kəlməsi həkk edilmiş əhəng materialı da aşkar olunmuşdur (1). Yusif Küseyir oğlu türbəsində belə bir fraqmentə rast gəlinməsə də Möminə xatın türbəsinin ornament bə-

zəyinə əsasən demək olar ki, bu epiqrafik motiv ümumislam mədəniyyəti tərkibində özünə məxsus yer tutan Naxçıvan memarlıq abidələri üçün xarakterik haldır. Möminə Xatın türbəsinin üzərində bu üsulla çoxlu sayda kitabə - "Allah" kəlməsi həkk edilmiş və abidənin həndəsi bəzəyi ilə üzvi surətdə əlaqələndirilmiş, onun tərkib hissəsinə, əsas ünsürünə çevrilmişdir.

Türbənin ətrafında aşkar olunan digər kitabə qalıqlarının əksəriyyəti gəc məhlulu və bişmiş kərpiclə kufi xətti ilə hazırlanmış kitabə fraqmentlərindən ibarətdir. Əldə edilən bu materiallar təsdiq edir ki, Nuh türbəsinin kitabələri də Naxçıvan memarlıq məktəbinə məxsus XII əsr abidələrində olduğu kimi bişmiş kərpic və gəc məhlulu ilə yerinə yetirilmişdir. Bu kitabə fraqmentləri çox kiçik, əsasən bir və ya iki hərfdən ibarət olduqları üçün onların oxunması mümkün deyildir. Yalnız bir ədəd kitabə qalığında gəlib çatan hərflərə əsasən orada "bənna" (?) sözünün yazılması müəyyən edilmişdir.

Vaxtilə türbənin üstündə olan bu kitabə fraqmentləri şübhəsiz ki, bütöv halda ilk növbədə abidənin təyinatı, sifarişçisi, inşa tarixi, memarı və s. haqqında müfəssəl məlumat vermək məqsədi ilə yazılmaqla bərabər, həm də ornamental bəzək funksiyasını yerinə yetirmişdir. Belə ki, abidənin memarı ərəb əlifbasının kufi xəttinin imkanlarından məharətlə istifadə edərək onları həndəsi ornamentlərlə bacarıqla uyğunlaşdırmış, hərflər arası boşluqları ornamentlərlə, ornamentlər arası boşluqları isə hərflərlə dolduraraq gözəl bəzək ünsürləri yaratmışdır. Ona görə də Azərbaycan memarlığının ilk inkişaf dövründə kufi xəttindən istifadə edilməsi binaların dekorunda üstün yer tutan həndəsi ornamentin inkişafı ilə sıx əlaqədar olmuşdur (5, s. 108). Çünki bu xətt növü memarlıqda tətbiq olunarkən düz cizgilərdən geniş istifadə olunur, hərflər həndəsi düzgünlüklə yazılırdı və həndəsi ornamentlərlə uyğunlaşdırılırdı.

Türbəyə aid kitabə fraqmentləri ilə Yusif Küseyir oğlu və Möminə xatın türbəsinin kitabələrinin ətraflı müqayisəsinə əsasən deyə bilərik ki, Əcəmi barmaqlarının məhsulu olan abidələr, xüsusilə Möminə xatın türbəsinin üzərindəki kitabələr daha mükəmməldir və kufi xəttinin inkişaf etmiş mərhələsinə aiddirlər. Ancaq Nuh türbəsindən əldə olunan kitabə fraqmentləri onlara nisbətən sadədir və kufi xəttin epiqrafikada

tətbiqinin bir az əvvəlki dövrlərinə aiddir. Digər abidələrlə paleoqrafik xüsusiyyətlərinə əsasən müqayisə edərək bu kitabələri təxminən XII yüzilliyin ortalarına aid etmək olar.

Bütün bunlara, o cümlədən abidənin inşasında istifadə olunan inşaat materiallarına, yan üzlərinin bəzədilməsində tətbiq edilən ornament - naxışlara, burada işlədilən kaşı nümunələrinə və tapılan kitabə fraqmentlərinin təhlilinə əsasən belə bir qənaətə gəlmək mümkündür ki, türbə Naxçıvan memarlıq məktəbinə məxsusdur və bu məktəbin çiçəklənmə prosesi keçirdiyi, Azərbaycanın aparıcı memarlıq məktəbinə çevrildiyi XII yüzilliyin ortalarında inşa edilmişdir.

Sonda bir məqama diqqəti cəlb etmək istərdik. Yaxşı məlumdur ki, Nuh peyğəmbərin gəmisinin harada quruya oturduğunu aydınlaşdırmaq məqsədi ilə bir sıra alimlər dünyanın müxtəlif yerlərində olan yüksəkliklərdə gəminin qalıqlarını axtarırlar. Aradan uzun müddət keçməsinə baxmayaraq bu cəhdlər indiyədək heç bir nəticə vermədiyi kimi, fikrimizcə, bundan sonra da bu sahədə əsaslı uğur əldə olunmayacaqdır. Ancaq bölgəmizdə Nuh peyğəmbərlə bağlı folklor nümunələrinin, toponomik vahidlərin (yaxın və uzaq ölkələrin heç birində Naxçıvanda olduğu qədər Nuh peyğəmbərlə əlaqədar əfsanə, rəvayət, toponomik nümunə yoxdur) və s. geniş yayılması tufanın cərəyan etdiyi mərkəzi ərazilərdən birinin və Nuh peyğəmbərin gəmisinin quruya çıxdığı yerin məhz Naxçıvan ərazisi olduğu fikri üzərində təkid etməyə əsas verir. Bir sıra əcnəbi alimlər də bu fikri təsdiq edirlər. Bu cəhətdən bir müddət Naxçıvanda Beynəlxalq ADRA Təşkilatının nümayəndəsi kimi fəaliyyət göstərmiş ABŞ-nın Norvest Universitetinin professoru Marti Martincito Fillips və xanımı Qabrielonun ölkələrinə qayıtdıqdan sonra Naxçıvanın tarixi, mədəniyyəti və ziyarətgahları haqqında nəşr etdirdikləri maraqlı məqalə diqqəti xüsusi ilə cəlb edir. Məqalədə onlar Nuh peyğəmbər və Naxçıvan məsələsindən bəhs edərək yazırlar: "Nuh fəlsəfəsinə, Nuh baxışına görə dünyada yer və göyün qovuşduğu yalnız bir yer var və bu yer məhz Naxçıvandır. Əgər belə olmasaydı, Nuh peyğəmbər dünya mədəniyyətinə və dünyanın tarix yaddaşına Nuh möhürünü Naxçıvanda yox, digər bir bölgədə vurmuş olardı.

Bu keçən dövr ərzində Nuhun Naxçıvanla bağlı bir çox təkzibolunmaz faktları elm aləminə məlum olsa da, onun tarixi və mədəniyyət

xəzinəsinin ən dərin qatları tam öyrənilməmişdir. Bu gün Naxçıvan tarixini, mədəniyyətini, arxeologiyasını öyrənməklə Nuh irsinin zənginliklərini aşkarlamaq olar. Baxmayaraq ki, dünyanın bir sıra yerlərində Nuh izinə düşənlər və ya bu təşəbbüsdə olanlar var, lakin ən inandırıcı, elmi baxımdan ən obyektiv tədqiqat nəticələri Naxçıvanla bağlıdır. Belə ki, istənilən naxçıvanlı, istənilən ucqar kəndin sadə bir adamı Nuhla bağlı bir çox əhvalatlar deyər və saysız-hesabsız yer adlarının Nuhun şərəfinə aid olduğunu əsaslandıra bilər. Əgər belə bir sorğu digər Nuh axtaranlar ölkəsində aparılsa, şübhəsiz ki, heç bir xalq versiyası üzə çıxmayacaq" (3).

Fikrimizcə, bitərəf əcnəbi alimlərinin çox sərrast şəkildə ifadə olunmuş bu fikirləri, Nuh peyğəmbər və Dünya tufanının hansı ərazi ilə daha çox əlaqəli olduğunu sübut etmək cəhətdən çox sanballı qaynaqlardan biridir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V. Naxçıvanda Nuhla bağlı əfsanələr / "Şərq qapısı" qəzeti, 08 dekabr 2005-ci il.
2. Əliyev Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 2007, 160 s.
3. Qabrielo və Martincito Filips. Allah yurdu Naxçıvan / "Şərq qapısı" qəzeti, 28 may 2008-ci il.
4. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
5. Məmmədzadə K. Azərbaycanda inşaat sənəti. Bakı: Elm, 1978, 210 s.
6. Zaman Ş. Naxçıvan fransız mənbələrində / "Azərbaycan müəllimi" qəzeti. 13-19 may 1999-cu il, s. 5.
7. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.




*Nuhun qəbri*




*B.Kəngərli. "Nuhun-qəbri", 1913.*



*B.Kəngərli. "Nuhun-qəbri", 1916.*



B.Kəngərli. "Nuhun-qəbri", 1919.



*B.Kəngərli. "Nuhun-qəbri", 1920.*



*Nuh Peyğəmbərin Məzarüstü Türbəsi*



*Gəmiqaya*



*Gəmiqaya*



Haçadağ

MÜNDƏRİCAT

"NUH PEYĞƏMBƏRİN NAXÇIVAN ŞƏHƏRİNDƏKİ MƏZARÜSTÜ TÜRBƏSİNİN BƏRPA EDİLMƏSİ HAQQINDA" NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN SƏRƏNCAMI....................4

"NUH PEYĞƏMBƏR: DÜNYA TUFANI VƏ NAXÇIVAN" MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN KEÇİRİLMƏSİ HAQQINDA NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN SƏRƏNCAMI............ 9

"NUH PEYĞƏMBƏR: DÜNYA TUFANI VƏ NAXÇIVAN" MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ SİMPOZİUMDA NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI.................. 10

Tərtibçidən....................18

I FƏSİL

NAXÇIVANDA NUH PEYĞƏMBƏRLƏ ƏLAQƏDAR YARANMIŞ ŞİFAHİ XALQ ƏDƏBİYYATI NÜMUNƏLƏRİ.......... 23

1.1. Miflər.................... 23

1.2. Əfsanələr və rəvayətlər.................... 29

1.3. İnamlar.................... 44

1.4. Bayatılar.................... 44

1.5. Tərtibçinin topladığı materiallar.................... 45

1.6. Nuh peyğəmbər və övladları ilə əlaqədar yaranmış yer-yurd adları.................... 46

1.7. Nuh peyğəmbərlə bağlı deyimlər.................... 48

1.8. Naxçıvan bölgəsində Nuh peyğəmbərlə bağlı rast gəlinən şəxs adları.................... 49

II FƏSİL

QURANİ-KƏRİMDƏ NUH PEYĞƏMBƏR HAQQINDA MƏLUMATLAR....................50

III FƏSİL
QAYNAQLARDA NUH PEYĞƏMBƏR VƏ NAXÇIVAN BAĞLILIĞI HAQQINDA MƏLUMATLAR.................. 58

IV FƏSİL
NUH PEYĞƏMBƏRİN NAXÇIVANLA BAĞLILIĞI İLƏ ƏLAQƏDAR TƏDQİQATLAR.......................................................... 90

**4.1. İsa Həbibbəyli**
Nuh peyğəmbər və Dünya tufanı toplusu.......................................... 91

**4.2. İsmayıl Hacıyev**
Tarixi mənbələr Naxçıvan şəhərindəki Nuh türbəsi haqqında....................................................................... 104

**4.3. Qadir Qədirzadə**
Gəmiyə götürülmüş heyvanlar, Gəmiqaya təsvirləri və Naxçıvandakı inamlarla ortaq cəhətlər............................................... 115

**4.4. Vəli Baxşəliyev**
Nuhla bağlı əfsanələr və həqiqətlər............................................ 123

**4.5. Adil Bağırov**
Naxçıvanda Nuhla bağlı yer-yurd adlarının tarixi-etimoloji təhlili.......................................................................129

**4.6. Fəxrəddin Səfərli**
Naxçıvan şəhərindəki Nuh Peyğəmbərin Məzarüstü Türbəsinin tarixinə dair.......................................................................141

Şəkillər..................................................................................... 148

**FƏXRƏDDİN SƏFƏRLİ**

*Tarixi mənbələrdə*
*Nuh peyğəmbər*

Nəşriyyat redaktoru
M.Qasımzadə

Kompyuter tərtibatı
Z.Məmmədov

Yığılmağa verilmiş 07.02.2015.
Çapa imzalanmış 18.06.2015.
Formatı 70X100 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 10.0 ç.v.
Sifariş № 465. Tiraj 300 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.